www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 sentyabr 2015-ci il Çərşənbə axşamı № 210 (6238) Qiyməti 40 qəpik

**Xəbər**

**"Yeni Müsavat"ın baş redaktoru daxili işlər nazirinə müraciət etdi**

yazısı səh.3-də

**Gündəm**

**Bakıda həbs olunan "nurçular" fətullahçılar olmayıb... - hadisə şahidi danışdı**



DİN 85 təriqət üzvünü həbs etdiyini açıqladı, saxlanılanlar arasında cərəyan lideri Mustafa Sunqurun oğlu və daha bir neçə Türkiyə vətəndaşı olub: "79 nəfər idik..."

yazısı səh.11-də

**Avropa Birliyinin sanksiyasının hədəfində olanları nə gözləyir...**

yazısı səh.4-də

**"Tornado"nun qoçuları "Yeni Müsavat"çılara hücum etdi**

yazısı səh.12-də

**Əli Kərimliyə rəqib olan Sahib Kərimliyə "satqın" damğası vuruldu**

yazısı səh.6-da

**ADP prezidentə çağırış etdi**

yazısı səh.4-də

**AŞ PA-nın xüsusi müşahidə missiyası gəldi**

yazısı səh.5-də

**Qarabağ ermənilərı Bakıya sığınsa...**

yazısı səh.8-də

**Beynəlxalq Bank əməliyyatı fermerləri vurdu - pambıq sahələrdə batır...**

yazısı səh.12-də

**Qarabağ uğrunda mübarizə - həm də beynəlxalq rəy uğrunda mübarizədir**

yazısı səh.13-də

**Cavid Qurbanovun keçmiş rəqibindən fərqli mövqe**

yazısı səh.8-də

**Daha 50 erməni ailəsi Azərbaycana gəlmək istəyir**

yazısı səh.13-də

**Mobil telefonsuz yaşaya bilərikmi...**

yazısı səh.15-də

## Kreml heç də həmişə pis nümunə deyil...

# BAKIDAKI YENİ SENSASİON HƏBSLƏRDƏ "RUSİYA İZİ"

Rusiya cəmiyyəti qubernatorun, Azərbaycan isə iri şirkət rəhbərlərinin həbsi ilə silkələndi; sabiq nazir Səfər Əbiyevə korrupsiya ittihamı niyə yenidən dövriyyəyə girib?; hədəfdə bir neçə icra başçısı da var; iqtidar texnoloqları prezident İlham Əliyevin "cinayət törətmisənsə, get cəzasını çək" tezisini niyə Putin kimi real reytinqə çevirmir...




yazısı səh.9-da

## "Eurovision" "terrorçusu" seçki ərəfəsində üzə çıxdı və ilişdi...

Türkiyəyə uçmaq istəyərkən Kiyevdə saxlanılan universal döyüş üzrə Avropa çempionu Valeh Əmirəliyev Azərbaycan prezidentinə sui-qəsd hazırlayan mütəşəkkil dəstə ilə əlaqələrinə görə axtarılırdı; onun parlament seçkisi ərəfəsində üzə çıxması təsadüfdürmü...

yazısı səh.3-də



*Atilla Kaya:*

**"AKP-nin siyasəti rəqiblərə arxadan zərbədir"**

yazısı səh.5-də



*Hacı Qalib Salahzadə:*

**"Mən türmələr, güllələr görmüşəm"**

yazısı səh.10-da



*Əli Həsənov:*

**"Onlar müvafiq qaydalara əməl etmir"**

yazısı səh.3-də

# İsa Qəmbərə 15 saylı dairədə daha bir rəqib



**“Azadlıq-2015" seçki blokunun həmtəsisçisi olan Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyev parlament seçkilərində mübarizə aparacağı dairəni müəyyənləşdirib. Partiyanın mətbuat xidmətindən verilən xəbərə görə, VİP sədri öz namizədliyini 15 saylı Yasamal birinci seçki dairəsindən irəli sürüb. Sentyabrın 21-də blokun səlahiyyətli nümayəndələri Əli Əliyevin seçki sənədlərini 15 saylı Yasamal birinci seçki dairəsinə təqdim ediblər.**

Qeyd edək ki, Əli Əliyev 2010-cu il parlament seçkilərində də 15 saylı Yasamal birinci seçki dairəsindən deputatlığa namizəd olub.

Hazırda isə həmin dairədən Müsavat Partiyası sabiq başqan İsa Qəmbərin, YAP Bayram Aslanovun, AMİP Elşən Mustafayevin namizədliyini irəli sürüb. Dairənin indiki deputatı Etibar Hüseynovdur. Onu da bildirək ki, bu şəxslərdən istisna olmaqla, hamısı 2010-cu ildəki seçkilərdə də 15 saylı dairədən namizəd idilər.

❑ E.SEYİDAĞA

# Müsavat Divanında seçki kampaniyasının gedişi müzakirəyə çıxarıldı

**Sentyabrın 21-də Müsavat Partiyası Divanının iclası keçirilib. Partiyadan verilən xəbərə görə, Müsavat Partiyasının Mərkəzi Seçki Qərargahının rəhbəri Gülağa Aslanlı seçki prosesi barədə ətraflı məlumat verib və seçki dairələri üzrə vəziyyət analiz edilib. İmza toplanması kampaniyası zamanı ölkə ərazisində Müsavat Partiyasından olan namizədlərə, onların yaxınlarına, imza toplayan şəxslərə və müsavatçı namizədlərin lehinə imza verən seçicilərə qarşı təzyiqlər barədə məlumatlar dinlənilib.**

42 saylı seçki dairəsindən Müsavat Partiyası namizədinin irəli sürülməsi haqda qərar qəbul edilib. Müsavat Partiyası səlahiyyətli nümayəndələrinin növbəti siyahısı təsdiq olunub.

İclasda «Meydan TV» saytının əməkdaşı Şirin Abbasovun inzibati qaydada həbs edilməsi, saytın üç xanım əməkdaşının gecə polis idarəsində saxlanılması söz və ifadə azadlığına qarşı aparılan ümumi prosesin tərkib hissəsi kimi qiymətləndirilərək pislənilib.

Sonda carı məsələlər müzakirə edilib.

❑ E.SEYİDAĞA

# Kredit fırıldağına məruz qalan Qarabağ əlili: “Özümü yandıracam”





**Bakıda bir qrup vətəndaş kredit fırıldağına məruz qalıb. Musavat.com-un məlumatına görə, onların evləri, ticarət obyektləri dələduzluq yolu ilə əllərindən alınıb. Onlarla kredit vermək adı altında müqavilə bağlanıb. Etirazçılar bildirib ki, 5-10 min manat məbləğində kredit götürsələr də notariusda təsdiq olunan sənəddə bu, 50-60 min manat, hətta daha çox göstərilib.**

Bu vətəndaşlar götürdükləri krediti ödədikdən sonra kredit verən şəxslər müqavilədə göstərilən məbləğin ödənilməsini tələb edib. Məhkəmə də qərar çıxarıb ki, bu şəxslər evdən çıxmalıdır. Etiraz edənlərin əksəriyyəti artıq evlərindən çıxarılıb.

Kredit götürüb aldadılan şəxslər Ali Məhkəmənin qarşısında və məhkəmənin sədri Ramiz Rzayevlə görüşmək istədiklərini bildiriblər. Vətəndaşlar 5-6 dəfə Ali Məhkəmənin qarşısına gəlsələr də, onları qəbul edən olmayıb. Etirazçılardan biri Qarabağ müharibəsi əlilidir və o bildirib ki, Ramiz Rzayev onları qəbul etməsə özünü yandıracaq.

Etirazçılar bildirib ki, onları aldadıb müqavilə bağlatdıran Hüseynova Reyhan, Rüstəmova Ceyran, Rüstəmova Kəmalə, Gülməmmədova Mətanət hazırda həbsdədirlər və məhkəmə onların bəraətinə qərar verib.

Ali Məhkəmənin sədri Ramiz Rzayev vətəndaşlarla görüşməyib. Məhkəmədən bildirilib ki, bu gün görüş günü deyil. Vətəndaşlar razılaşmayıb və etirazlarını davam etdirib. Bu vaxt etirazçıları aparmaq üçün polis maşını gəlib. Polis maşınını görən etirazçılar dağılışıb. Polislər özünü yandırmaq istəyən Qarabağ əlilinin əlindən benzin şüşəsini alıblar.

❑ İlkin MURADOV

# İlham Əliyev Milli Məclisin qəbul etdiyi qanunu geri qaytardı

**Azərbaycan Milli Məclisi tərəfindən qəbul olunan “Kənd təsərrüfatı informasiya-məsləhət xidməti haqqında” Qanunu prezident İlham Əliyev yenidən parlamentə qaytarıb.**



Milli Məclisdən APA-ya verilən məlumata görə, bununla bağlı parlamentin sentyabrın 30-da keçiriləcək iclasında “2015-ci il aprelin 28-də Milli Məclis tərəfindən qəbul edilmiş ”Kənd təsərrüfatı informasiya-məsləhət xidməti haqqında" Qanuna Azərbaycan Respublikası Prezidentinin etirazları barədə" qərar layihəsi müzakirəyə çıxarılacaq.

**Layihədə qeyd edilən tarixdə məlum qanuna prezidentin etirazının səbəbi belə izah olunur:** “Qanunun 4-cü maddəsində səlahiyyətləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən yerinə yetirilən respublika informasiya-məsləhət xidməti mərkəzinin təşkil edilməsi, həmin mərkəzin tərkib hissəsi kimi fəaliyyət göstərən yerli qurumların yaradılması, habelə mərkəzin funksiyaları və öhdəlikləri müəyyən edilir.

Bundan başqa, qanunun 5-ci və 15-ci maddələrinə əsasən kənd təsərrüfatı informasiya-məsləhət xidməti subyekti hesab edilən müvafiq icra hakimiyyəti orqanının bu sahədə xidmət göstərmək hüququ əldə etmək üçün akkreditasiya olunması tələb olunur. Beləliklə, qanunun bu müddəaları Konstitusiyanın 93-cü maddəsinin IV hissəsi və 109-cü maddəsinin 7-ci bəndi ilə ziddiyyət təşkil edir. Bununla Konstitusiyanın 7-ci maddəsində nəzərdə tutulmuş hakimiyyətlərin bölünməsi prinsipini pozaraq Azərbaycan Prezidentinin icra hakimiyyəti orqanlarına münasibətdə səlahiyyətlərini məhdudlaşdırır. “Normativ hüquqi aktlar haqqında” Konstitusiya qanununun 64.9-cu maddəsinə uyğun olaraq qanunda normaların həddindən artıq detallaşdırılması Konstitusiya ilə müəyyən edilmiş icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə müdaxiləyə gətirib çıxarmamalıdır.

Qeyd olunanlarla yanaşı, qanunda “Normativ hüquqi aktlar haqqında” Qanunun 25.2-ci və 64.4-cü maddələrinin tələblərinə riayət olunmadan həddindən artıq ümumiləşdirilmiş və qeyri-müəyyən ifadələrə, eləcə də eyni məsələ ilə bağlı normativ göstərişlərin çoxluğuna yol verilib.

Konstitusiyanın 110-cu maddəsinin I hissəsini və 149-cu maddəsinin III hissəsini rəhbər tutaraq “Kənd təsərrüfatı informasiya-məsləhət xidməti haqqında” qanun imzalanmadan geri qaytarılır".

# QHT Şurasının dəstəyi ilə Qarabağ haqqında 5 dildə sayt hazırlanıb

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə “Düşüncə” Gənclərin İnkişafına Dəstək" İctimai Birliyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədilə Azərbaycan, rus, ingilis, alman və fransız dillərində sayt (www.dailykarabakh.com) hazırlayıb.**

İnformasiya resursunun təqdimatı 22 sentyabr 2015-ci il, saat 12:00-da «Park İnn» hotelinin “Dan ulduzu” zalında təşkil olunacaq. Tədbirdə millət vəkilləri, xarici ölkələrin Azərbaycandakı səfirliklərinin nümayəndələri və ictimai-siyasi xadimlər iştirak edəcəklər.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# AzTV-də İbrahim Məmmədov krizi çözülməyib

## Sədr müavininin səhhəti kritik həddə, rəhbərlik onunla bağlı mətbuata açıqlama yasağı qoyub

**AzTV Qapalı Səhmdar Cəmiyyətinin sədrinin müavini İbrahim Məmmədovla bağlı aylardır davam edən kəskin durum olduğu kimi qalır. Sentyabrın 15-də rəhbərlik tərəfindən göndərildiyi məzuniyyət müddəti bitən İ.Məmmədovun həmin tarixdə işə çıxacağı gözlənilsə də, hər şey fərqli məcrada davam etdi.**

İ.Məmmədovun yaxın qohumlarının musavat.com-a verdiyi məlumata görə, hazırda onun səhhəti pisləşib, kritik həddədir. Xüsusən son günlər güclü stress keçirdiyi üçün ürəyində, başında kəskin ağrılar meydana gəlib. Hazırda yataq şəraitində olan İ.Məmmədova davamlı sistemlər köçürülür. Yaxınlarının bildirdiyinə görə, sədr müavinin durumunda neçə gündür yaxşılığa doğru heç nə yoxdur.

Qohumları eyni zamanda bildirib ki, əgər İ.Məmmədovun durumu bu cür davam etsə, ailəsi müalicəsini Türkiyədə davam etdirmək istəyir. Daha bir məlumat isə onun AzTV-dəki durumu ilə bağlıdır.

Belə ki, bir neçə gün öncə İ.Məmmədovun müavin otağı da Arif Alışanovun göstərişi ilə boşaldılıb, otağının və xidməti maşınının açarları isə alınıb.

“Yeni Müsavat” isə AzTV-də İbrahim Məmmədov mübhəminə aydınlıq gətirmək üçün yenidən telekanalın rəsmiləri ilə danışmağa cəhd göstərib. AzTV sədrinin köməkçisi Fərman Orucov əməkdaşımızla danışmaqdan imtina edib və İ.Məmmədovla bağlı sualları telekanalın mətbuat xidmətinin rəhbəri Xatirə Qasımovaya ünvanlamağı məsləhət görüb. X.Qasımova isə gün ərzində telefon zənglərinə cavab verməyib.

Beləliklə, ölkənin ən böyük kanalında aylardır davam edən sədr müavini krizi çözülməmiş qalır. Təyinatı prezident tərəfindən olan İ.Məmmədovun taleyi isə hələlik aydınlaşmayıb.

❑ SEVİNC

# Parlament jurnalistlərindən seçki bəyanatı

**Parlament Jurnalistləri Birliyi (PJB) parlament seçkiləri ilə əlaqədar bəyanat qəbul edib. Seçkiyə qatılacaq jurnalistlərə dəstək xarakterli bəyanatda deyilir: “2015-ci il noyabrın 1-də ölkəmizdə mühüm siyasi hadisələrdən biri kimi parlament seçkiləri keçiriləcək. Milli Məclisə seçkilərlə əlaqədar artıq bir neçə jurnalist deputatlığa namizədliyini irəli sürüb və qarşıdakı müddətdə daha bir neçə jurnalist də seçkiyə qatılmaq niyyətində olduğunu bildirib. Bəyan edirik ki, Parlament Jurnalistləri Birliyi (PJB) təşkilat olaraq seçkilərdə iştirak etməsə də, seçki prosesinə namizəd kimi qatılan jurnalistlərə dəstəyini ifadə edir”.**

Qarşıdan gələn parlament seçkiləri ilə bağlı PJB bəyan edib ki, Milli Məclis üzvləri arasında jurnalistlərin çox olması ciddi əhəmiyyətə malikdir: “Biz hesab edirik ki, deputat seçiləcək jurnalistlər daha aktiv olacaqlar. Bunu deputat jurnalistlərin təcrübəsi dəfələrlə sübut edib. Jurnalistlərin məsələlərə baxışı daha obyektiv olur, hadisələr zamanı onlar daha çeviklik nümayiş etdirirlər. Ona görə də bütün gücümüzlə jurnalistlərin Milli Məclisdə daha çox yer almasını dəstəkləyəcəyik”.

❑ Cavid TURAN



# Mətbuat orqanları Əflatun Amaşova dəstək verəcəkmi?

**Mətbuat Şurasının sədri Əflatun Amaşov qarşıdan gələn parlament seçkilərinə namizədliyini irəli sürüb. Onun sözlərinə görə, parlamenti mediasız, jurnalistsiz təsəvvür etmək qeyri-mümkündür. Buna görə də jurnalistikanın parlamentdə təmsilçiliyi vacibdir.**

Bəs görəsən, tanınmış media orqanları Əflatun Amaşova seçki təbliğatında dəstək verəcəkmi?

**Tanınmış jurnalist, lent.az-ın baş redaktoru Qabil Abbasoğlu Ə.Amaşova uğurlar arzulayıb:** “Mətbuat Şurasının sədri olaraq cənab Amaşovun fəaliyyəti hər zaman diqqətimizdədir. Deputatlığa namizəd isə başqa bir statusdur və bu statusla bizim qarşılıqlı münasibətlərimiz istəyimizlə deyil, Seçki Məcəlləsi və digər hüquqi sənədlərlə tənzimlənir. Cənab sədrə uğurlar arzulayıram”.

**«APA Holdinq»in prezidenti Vüsalə Mahirqızı qanun çərçivəsində Mətbuat Şurasının sədrinə dəstək olacaqlarını deyib:** “Əflatun Amaşova uğurlar arzulayıram. Azərbaycanda tanınmış jurnalistlərin parlamentdə təmsil olunmasını həmişə alqışlamışam. Hörmətli sədrə də əlbəttə, dəstək verəcəyik. ”APA Holding" Mətbuat Şurasının sədri kimi də həmişə Əflatun Amaşovla məmnuniyyətlə əməkdaşlıq edib. Şirkətimiz seçki təşviqatında iştirak etməklə bağlı Mərkəzi Seçki Komissiyasına müraciət edib. Qanunun imkan verdiyi çərçivədə Əflatun Amaşova da dəstək olacağıq".

**“Bakı-xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev Ə.Amaşovun seçkilərə qatılmasını alqışlayıb:** “Biz ona seçkim kampaniyasının bütün mərhələlərində dəstək verəcəyik. Təbii ki, ilk növbədə informasiya təbliğatında. Əminəm ki, Amaşov mətbuat kampaniyasından yararlanaraq ictimai dəstək ala biləcək.

Media nümayəndələrinin parlamentdə təmsilçiliyinin mətbuata ancaq faydası dəyə bilər. Bu baxımdan arzu edərdim ki, parlamentdə çoxlu sayda yetişmiş, ictimai-siyasi məsələlərdə öz sözünü deyə biləcək baş redaktorlar da təmsil olunsun".

**“Yeni Müsavat” qəzetinin redaktoru Elşad Məmmədli bildirdi ki, Əflatun Amaşovun parlament seçkilərinə qatılması media camiəsi üçün ciddi məsələdir:** “Əlbəttə ki, ”Yeni Müsavat" qəzeti hörmətli Əflatun müəllimə seçki kampaniyası dövründə onun istədiyi və gərəkən bütün dəstəyi verəcək. Ona uğurlar arzu edirik".

❑ Xalidə GƏRAY



# Yazarımız Tofiq Yaqubluya Azadlıq!

## Günün içindən

YENİ MÜSAVAT
N 210 (6238) 22 sentyabr 2015

# "Yeni Müsavat"ın baş redaktoru nazirə müraciət etdi

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu sentyabrın 21-də peşə fəaliyyətini icra edən zaman "Tornado" şirkətinin mühafizəçiləri tərəfindən fizik təzyiqə məruz qalmış reportyorların işi ilə bağlı Azərbaycan Respublikası daxili işlər naziri general-polkovnik cənab Ramil Usubova müraciət edib.**



Rauf Arifoğlu



Ramil Usubov

**Müraciətdə bildirilir:** "Hörmətli cənab nazir! Bakının Sabunçu rayonu Sabunçu qəsəbəsində, Q. Vəzirov küç. 32 A. ünvanında aparılan söküntü işləri ilə bağlı çəkiliş aparan iki əməkdaşımız İlkin Muradov və Məhəmməd Türkmən (Məhəmməd Muxammedqurbanov) fiziki təzyiqə və təhqirə məruz qalıb. Söküntünü çəkmək istəyən reportyorlara, həmin işlərin guya mühafizəsini həyata keçirən "Tornado" mühafizə şirkətinin 10 nəfərə yaxın əməkdaşı tərəfindən təzyiq göstərilib.

Əməkdaşlarımız 2015-ci il sentyabrın 21-də yuxarıda göstərilən ünvanda söküntünü çəkmək istəyiblər. Özlərini mühafizəçi kimi təqdim edən şəxslər reportyorlara mane olmaq istəyib. Jurnalistlər şirkətin əməkdaşlarına vəsiqə göstərib özlərini təqdim etsələr də, buna məhəl qoyan olmayıb. Əvəzində şirkət işçiləri jurnalistlərin üstünə hücum çəkib, təhqir edib və fiziki təzyiq göstəriblər. Onlar öncə əməkdaşlarımızın kameralarına əl atıb, çəkiliş aparmamalarını tələb edərək fiziki təzyiq göstəriblər. "Yeni Müsavat" qəzetinin əməkdaşları həyatlarına yarana biləcək təhlükəni dəf etmək üçün yaxındakı evlərdən birinə girib gizlənməyə məcbur olublar.

Qəzetimizin reportyorları İlkin Muradov və Məhəmməd Türkmənin bildirdiyinə görə, şirkətin əməkdaşları evin qapısını döyüb onlardan bayıra çıxmağı tələb ediblər. Həmin şəxslər jurnalistlərin çəkdiyi videomaterialları dərhal pozmalarını, əks təqdirdə, bunu başqa yolla, yəni fiziki zorakılıqla həll edəcəkləri barədə təhdidlər yağdırıblar.

Qəzetimizin əməkdaşları hadisə ilə bağlı qəzet rəhbərliyinə məlumat veriblər. Məlumatı aldıqdan sonra "Yeni Müsavat" qəzetinin daha bir reportyor qrupu hadisə yerinə yollanıb. Əməkdaşlarımız hadisənin baş verdiyi ünvana çatdıqdan sonra məlum şirkətin əməkdaşları həmin ərazidən uzaqlaşıblar".

**Daha sonra müraciətdə qeyd olunur:**

**"Hörmətli Ramil müəllim!**

Bu vəziyyətdə digər əməkdaşların həyatlarına ciddi təhlükə yarandığını hiss edirəm. Əməkdaşlarımıza qarşı terrora yol vermiş bu adamların çalışdığı şirkət məlumdur. Bu tip insanların tapılıb cəzalandırılmaması onları başqa qanunsuz əməllər törətməyə ruhlandıra bilər. Bu baxımdan məsələnin tez bir zamanda hüquqi qiymət alması məqsədilə Sizə müraciət etməyi zəruri hesab edirəm".

# Meydan TV-nin əməkdaşlarının saxlanmasına dövlət səviyyəsində reaksiya gəldi

## Əli Həsənov: "Onlar müvafiq qaydalara əməl etmir"



Əli Həsənov

**Meydan TV ilə əməkdaşlıq edən üç qadın jurnalist - Aytən Fərhadova, Sevinc Vaqifqızı və İzolda Ağayeva sentyabrın 20-nə keçən gecə saat 1 radələrində Binə hava limanında saxlanılıblar. Ukraynadan təlimdən qayıdan jurnalistlərə bildirilib ki, onların adı sistemdə bloklanıb və ölkədən çıxışlarına qadağa qoyulub. Bundan sonra onlar Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparılıblar.**

Xanım jurnalistlərlə sorğu-sual zamanı Mingəçevir hadisələri və Meydan TV-nin fəaliyyəti ilə bağlı maraqlanıblar.

Sentyabrın 20-də saat 12.30 radələrində DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanılan jurnalistlər azad edilib.

Baş vermiş olayla bağlı S.Vaqifqızı facebook səhifəsində detallı yazıb.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov son günlər bir neçə jurnalistin saxlanmasına münasibət bildirib.

**Əli Həsənov AzərTAc-a açıqlamasında deyib ki, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da KİV nümayəndələrinin fəaliyyəti müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənir:** "Ölkə qanunvericiliyi söz və məlumat azadlığına, KİV redaksiyalarının və jurnalistlərin müstəqil fəaliyyətinə, sərbəst şəkildə informasiya əldə etmək və yaymaq hüququna tam təminat verir. Bununla yanaşı, həm yerli, həm də Azərbaycanda xarici KİV-ləri təmsil edən jurnalistlər və nümayəndələr öz fəaliyyətlərini qanunların çərçivəsində qurmalı, ölkə və cəmiyyət qarşısında məsuliyyətlərini dərindən dərk etməli və qeyri-qanuni addımlara yol verməməlidirlər".

**Prezidentin köməkçisi xatırladıb ki, 2015-ci il martın 18-də "Azərbaycan Respublikasında xarici kütləvi informasiya vasitələrinin akkreditasiya qaydaları" təsdiq edilib:** "Hətta xarici KİV-lərin, onların Azərbaycandakı nümayəndəliklərinin və əməkdaşlarının elektron qaydada akkreditasiyası məqsədilə Xarici İşlər Nazirliyinin internet saytında müvafiq bölmə də yaradılıb. Təəssüf ki, "İnteraz", "Euroaz" televiziya kanalları, "Amerikanın səsi" radiosu, "Meydan TV" internet saytı və bir sıra digər xarici media orqanları və onların əməkdaşları dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, bu günə qədər müvafiq qaydalara əməl etmir və ölkə daxilində qeyri-qanuni fəaliyyət göstərirlər. Son günlər bəzi xarici KİV əməkdaşlarının hüquq-mühafizə orqanları tərəfindən saxlanması da onları öz fəaliyyətlərini "Azərbaycan Respublikasında xarici kütləvi informasiya vasitələrinin akkreditasiya qaydaları"na uyğun qurmağa dəvət etmək məqsədi daşıyır".

Əli Həsənov deyib ki, bundan sonra da işlədiyi sahədən və peşəsindən asılı olmayaraq Azərbaycan qanunlarının tələblərini pozan hər bir şəxs barədə aidiyyəti orqanlar tərəfindən ölçü götürüləcək.

❑ SEVİNC

# "Eurovision" "terrorçusu" seçki ərəfəsində üzə çıxdı və ilişdi...

### Türkiyəyə uçmaq istəyərkən Kiyevdə saxlanılan universal döyüş üzrə Avropa çempionu Valeh Əmirəliyev Azərbaycan prezidentinə sui-qəsd hazırlayan mütəşəkkil dəstə ilə əlaqələrinə görə axtarılırdı; onun parlament seçkisi ərəfəsində üzə çıxması təsadüfdürmü...



**Kiyevin "Borispol" aeroportunda tutulan Valeh Əmirəliyevin Azərbaycan prezidentinə sui-qəsd hazırlayan mütəşəkkil dəstə ilə əlaqələri üzə çıxıb. APA-nın əldə etdiyi məlumata görə, Qusar rayon sakini, 1986-cı il təvəllüdlü Valeh Cavanşir oğlu Əmirəliyevin "Eurovision-2012" mahnı müsabiqəsi ərəfəsində Azərbaycanda silsilə terror aktları planlaşdırmaqda və ölkə başçısına sui-qəsd hazırlamaqda təqsirləndirilən Vüqar Padarovla yaxın əlaqələri olub.**

V. Əmirəliyev V. Padarov və Samir Sanıyevin rəhbərlik etdiyi dəstənin bəzi üzvləri ilə birgə Rusiyada da bir sıra ağır cinayətlər törədib. V. Əmirəliyev 2011-ci ilin noyabrında mütəşəkkil dəstənin üzvləri İlham Gülməmmədov, Faiq Süleymanov və Zaur Seyidovla birgə Zaqatala şəhərinə gələrək Vüqar Padarovla görüşüb, Azərbaycanda həyata keçirməyi planlaşdırdıqları terrorla bağlı müzakirələr aparıb.

Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin (MTN) 2012-ci ildə həyata keçirdiyi xüsusi əməliyyat nəticəsində ölkədə terror aktları hazırlayan həmin dəstənin bir çox üzvü həbs edilib. Dəstənin başçısı Vüqar Padarov isə əməliyyat zamanı öldürülüb.

Araşdırmalar zamanı məlum olub ki, dəstə üzvləri 2012-ci ilin aprel ayının əvvəlində Azərbaycan prezidentinin respublikanın şimal-qərb bölgəsinə planlaşdırılan səfəri zamanı dövlət başçısına qarşı terror aktı həyata keçirməyi, eyni vaxtda hüquq-mühafizə orqanlarına silahlı basqınlar təşkil etməyi, əhali arasında müqəddəs sayılan bir sıra ziyarətgahları partlatmağı, əcnəbilərin daha çox olduqları və qaldıqları "Hilton Baku" və "JW Marriot Hotel Absheron" və digər mehmanxanalarda, "Baku Crystal Hall"da və Dövlət Bayraq Meydanında irimiqyaslı partlayışlar törətməyi planlaşdırıblar.

Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə dəstənin başçısı Samir Sanıyev və daha iki nəfər ömürlük, digər şəxslər isə 9 ildən 15 ilədək müddətinə azadlıqdan məhrum ediliblər.

Qeyd edək ki, Ukrayna sərhədçiləri terrora görə İnterpol xətti ilə axtarışda olan V. Əmirəliyevi bu il sentyabrın 19-da Kiyevin "Borispol" aeroportunda saxlayıblar.

Bu barədə Ukrayna Dövlət Sərhəd Xidmətinin mətbuat xidməti məlumat yayıb.

O, Rusiyadan Ukraynaya gəlib, Türkiyəyə uçmaq istəyərkən saxlanılıb.

Rusiyanın terror cinayətinə görə axtarışa verdiyi, universal döyüş üzrə Avropa çempionu V. Əmirəliyev Ukrayna polisinə təhvil verilib.

Nəzərə çatdıraq ki, bütün seçki illərində və Azərbaycanda dünya əhəmiyyətli tədbirlərin keçirildiyi ərəfələrdə missioner qüvvələr, "qara əllər" ölkəmizə qarşı uzanmağa başlayırlar. 2012-ci ildə "Eurovision-2012" mahnı müsabiqəsi ərəfəsində Azərbaycanda silsilə terror aktları planlaşdırmaqda və ölkə başçısına sui-qəsd hazırlamaqda təqsirləndirilən Vüqar Padarovla əlaqələri olan və həmin ərəfədə aradan çıxmağı bacaran V.Əmirəliyevin 2015-ci il noyabrın 1-də keçiriləcək seçkilərə təxminən 40 gün qalmış üzə çıxması, Ukraynanı tərk edib Türkiyəyə gəlməsi müəyyən şübhələr oyadır. Təhlükəsizlik üzrə ekspertlər bildirir ki, bir qayda olaraq hər hansı terrorçu şəbəkə ilə əlaqələri olan şəxslər bir müddət qaçıb gizləndikdən sonra yenidən hansısa formada fəaliyyətə keçirlər; bəzən onlar saxta pasportlarla, yəni başqa ad-soyadla, görkəmlərində müxtəlif dəyişikliklər etməklə peyda ola bilirlər. Məhz indiki ərəfədə V.Əmirəliyevin "azdırıcı" qaydada - Rusiyadan Ukraynaya gəlib, oradan da Türkiyəyə uçması belə ehtimallar yaradır ki, o, daha sonra hansısa çirkin bir niyyətini icra etmək üçün Azərbaycana gəlməyi planlaşdırırmış...

Ekspertlər V.Əmirəliyevin həbsindən sonra digər həbslərin də həyata keçiriləcəyini istisna etmirlər: **"Çünki bu adamın "dirilməsi" hansısa bir prosesin tərkib hissəsidir. Və o əlbəttə ki, bu prosesdə tək deyil. Odur ki, yaxın zamanlarda növbəti təxribatçı dəstənin tam ələ keçməsinin şahidi ola bilərik".**

Onu da nəzərə çatdıraq ki, apardığımız dəqiqləşdirmələr zamanı V.Əmirəliyevin radikal dini cərəyanın üzvü olması üzə çıxıb.

❑ T.ƏHMƏDLİ

YENİ MÜSAVAT
N 210 (6238) 22 sentyabr 2015



# Siyasətdə “yeni qan” perspektivi

Azər RƏŞİDOĞLU

**Qarşıdan gələn parlament seçkiləri yəqin ki, öz sönüklüyü ilə fərqlənəcək. Lakin vəziyyət göründüyü qədər də acınacaqlı deyil. Siyasətə yeni gənclik gəlir. Gəncliyin qarşısını almaq imkansızdır.**

Ümumiyyətlə, son zamanlar Azərbaycanın ictimai-siyasi həyatında gənclərin fəallığı açıq-aydın sezilməkdədir. Bu gün siyasətə atılan gənclik bütün nöqsan və yanlışlıqları ilə bərabər yeni siyasət müstəvisini yaradırlar. Siyasi proseslərə qoşulmaqda olan yeni gənclik Azərbaycandakı 80-ci illərin barışmaz və mübariz gəncliyindən kəskin fərqlənsə də, dönməzliyi ilə milli azadlıq hərəkatı illərini xatırladır. Proseslərə qoşulmaqda olan, heç bir partiyada təmsil olunmayan gənclik daha praqmatik və azad bazar münasibətlərinə üstünlük verən bir təbəqə təsiri bağışlayır. Düzdür, yeni gənclik dalğası yekcins deyil və ideoloji baxımdan hazırlıqlı da deyil. Lakin istənilən halda, yeni gənclik dalğasının biganəlik azarından qurtulmağa başlaması təqdirəlayiqdir. Dünyada gedən son proseslər zamanı tələbələrin tutduğu mövqe, Azərbaycanda baş verən proseslərə artıq dözmək limitinin sona çatması gəncliyi mübarizəyə qaldıra bildi.

Azadfikirli, dünyadakı prosesləri dərk eləyən, demokratik institutların mövcudluğunda maraqlı olan gənclər iqtidar dəhlizlərində demək olar ki, yoxdur və yaxud onların səsi eşidilmir. Hakimiyyətin mahiyyətinin özü azadfikirliliyə qarşı olduğundan, orada demokratik fikirli insanların tab gətirmək ehtimalı yox dərəcəsindədir.

Son zamanlar müstəqil gənclər yeni texnologiyalardan istifadə edərək, narazı elektoratı etiraz aksiyalarına səsləyirlər. Gənclərin müstəqil fəaliyyət göstərməsi etiraz elektoratına yaxın olan gənclərin təşkilatlanması ilə müşayiət olunur ki, bu, istənilən halda müsbət hal kimi dəyərləndirilə bilər. Gənclərin fəallıq nümayiş etdirməsi cəmiyyətə əlavə impulslar verə bilər.

Gənclərin son zamanlar fəallıq göstərməsi müəyyən mənada durğunluğa son qoymaqla yanaşı, ölkədə yeni növ aksiyalarda - sosial şəbəkələrdə protest elektoratının səfərbər olunmasında dönüş nöqtəsi oldu.

Hakim elitanın gənclərin aksiyalar keçirmək arzusuna göstərdiyi sərt mövqe də, görünür, məhz bu amillə bağlıdır. Digər tərəfdən, ən müxtəlif təbəqənin təmsilçiləri olan gənclərin sosial şəbəkələr vasitəsilə vətəndaşları aksiyalara səsləməsi proseslərin nəzarətdən çıxa bilmə ehtimalını yaradır. Həmçinin hakimiyyət müxalifətin ata biləcəyi addımları asanlıqla hesablaya və onları zərərsizləşdirə bilir. Yeni yaranan gənclər təşkilatlarının “virtual mübarizə” metodlarına qarşı isə iqtidar hazırlıqlı olmamaqla yanaşı, eyni zamanda gənclərin mübarizə metodları ilə tanış deyil, odur ki, tanış olmayan mübarizə metodlarına qarşı addımlarını da hesablaya bilmir.

Ehtimal etmək olar ki, hakimiyyət hər vəchlə gənclərin müstəqil hərəkata çevrilməsinə imkan verməyəcək. Bu halda gənclərin hansı addımları ata biləcəyi hələlik bəlli deyil. Bu, gənc siyasətçilərin fantaziyalarının genişliyindən asılı olacaq.

Azərbaycandakı siyasi prosesləri izləyənlər əmindir ki, yaxın zamanlarda ən aparıcı qüvvə gənclik və onların dəstəklədiyi qüvvələr olacaq. Bu baxımdan Azərbaycan gəncliyinin mübarizəsinin ən qızğın mərhələsi 2015-ci il parlament seçkiləri və 2018-ci il prezident seçkilərində özünü göstərəcək.

Azərbaycanın gələcək millət vəkilləri, nazirləri, partiya sədrləri və prezidenti də bu gün mübarizədə olan gəncliyin sırasından çıxacaq. Gənclik mübarizəyə başlayıb və bu yolda ona yalnız dəstək lazımdır. Səhv etmək limitini hələ xərcləməyən gəncliyin yolunu kəsməyin də heç bir perspektivi yoxdur. Gənclik uğrunda mübarizə aparmağın da bir mənası görünmür. Azərbaycan gəncliyinin öz yolu var. Bu yol nə qədər çətin olsa da sonu görünür. Gənclik siyasi müstəvidə təşəbbüsü ələ almaqdadır. Səhvləri və uğurları ilə gənclik yeni nəfəs gətirir. Onlara ancaq uğurlar arzulamaq olar...

# Avropa Birliyinin sanksiyasının hədəfində olanları nə gözləyir...

## Ekspert məmurların arxayınçılığının yanlış olduğunu bəyan etdi

**Avropa Parlamentinin Azərbaycanla bağlı sərt qətnaməsində insan haqlarını pozan məmurlara qarşı sanksiyaların tətbiqinin tövsiyə edilməsi Qərbin bu məsələni tədricən gündəmə gətirmək istəyi kimi şərh edilir. Ancaq Azərbaycan məmurlarının, deputatlarının açıqlamalarından onların sanksiyalar tətbiq olunmasından çəkinmədikləri müşahidə edilir. Bəs Avropa Birliyi kimi güclü beynəlxalq təşkilatın sanksiyasına məruz qalan şəxsləri nələr gözləyir?**

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** Avropa Birliyi tərəfindən sanksiyalara məruz qalan məmurlar üçün həmin sanksiyaların ciddi problemlər ortaya çıxardığını bildirdi: “Hər hansı nazirə, məmura sanksiya tətbiq olunanda həmin şəxs Avropa Birliyinə daxil olan ölkələrə gedə bilmir. Həmin şəxslərin bank hesabları dondurulur. Nəzərə alsaq ki, bizim bir çox nazirlər, məmurlar dincəlməyə, müalicəyə də həmin Avropa ölkələrinə getməyə üstünlük verirlər, sanksiyalar onlar üçün ciddi problemlər yarada bilər. Məsələn, Rusiya Krımı işğal edəndə Avropa Birliyi və Parlamenti Rusiyanın bir sıra məmurlarına, deputatlarına və media işçilərinə qarşı da ünvanlı sanksiyalar tətbiq etdi. Rusiyalılar əvvəlcə dedilər ki, bu sanksiyalar bizə təsir etməz. Amma sonra çox ciddi problemlərlə üzləşdilər. Məsələn, Rusiyanın məşhur müğənnisi İosif Kobzon tez-tez Dombasa gedirdi, onun da adını Avropa Birliyi qara siyahıya salmışdı. İlk vaxtlar deyirdi ki, bu sanksiya ona təsir etmir. Amma həmin İosif Kobzon xərçəng xəstəliyindən əziyyət çəkirdi və hər il Almaniyada müalicəyə gedirdi. Sanksiyadan sonra gedə bilmədi, vəziyyəti ağırlaşdı və məsələyə hətta Rusiya prezidenti Vladimir Putin qarışmaq məcburiyyətində qaldı. Avropa Birliyi mərhəmətdən çıxış edərək imkan verdi ki, Kobzon gəlib müalicəsini davam etdirsin. Azərbaycandakı məmurlara da sanksiyalar tətbiq edilsə, ən müxtəlif problemlərlə qarşılaşa bilərlər. İlk növbədə Avropadakı banklarda olan vəsaitləri bata bilər”.



Elxan Şahinoğlu

**Qaldı sanksiyalar tətbiq etmək barədə qərar verilib-verilməyəcəyi məsələsinə, E.Şahinoğlu düşünür ki, Avropa Birliyi bu dövrdə Azərbaycan məmurlarına qarşı sərt sanksiyalar tətbiq etməyəcək:** “Avropa Parlamentini Avropa Birliyini idarəedici strukturlarına ayırmaq lazımdır. Avropa Parlamentinin Azərbaycanla bağlı son qətnaməsi də əsasən tövsiyə xarakteri daşıyır. Bu, o demək deyil ki, idarəedici qurum olan Avropa Komissiyası bunu yerinə yetirəcək. Belarusdan fərqli olaraq Azərbaycan Avropa Komissiyası ilə çox sıx əlaqələr qurub. Azərbaycan Avronestdən çıxdı, amma Avronest Avropa Parlamentinin qurumudur, Avropa Komissiyasına dəxli yoxdur. Avropa Parlamenti Azərbaycanla bağlı məlum sərt qətnaməni qəbul etdiyi gün Avropa Komissiyası Azərbaycanın kənd təsərrüfatına 13 milyon dollar ayırdı. Bunun özü də göstərir ki, Avropa Parlamenti ayrıdır, Avropa Komissiyası isə ayrı.

Ona görə mən deyirəm ki, Azərbaycanın Avropa Birliyi “Şərq tərəfdaşlığı proqramı”nı tərk etməsi çox yanlış olardı. Məhz bu zaman Avropa Komissiyası ilə münasibətlər soyuya və pozula bilər. Azərbaycanın 60-70 faiz ticarəti məhz Avropa Birliyi ölkələri ilədir, neftimizi Avropa ölkələrinə satırıq. Qazımızı da Avropaya satıb qazanc əldə etmək istəyirik. Əgər Azərbaycan “Şərq tərəfdaşlığı proqramı”ndan çıxsa, Avropa Komissiyası ilə də münasibətlərin soyumasına getsə, bu, birbaşa həm Azərbaycan hökumətinə və Azərbaycanın özünə zərbə olacaq, sanksiyalar məsələsi o zaman gündəmə gələ bilər. Ona görə də düşünürəm ki, son anda rəsmi Bakı riskli addımı atmaqdan çəkinəcək, ancaq Avropa Parlamenti ilə münasibətlərin soyuması ilə kifayətlənəcək".

**“Hakimiyyət mediasında belə bir fikir tez-tez vurğulanır ki, 10 il Avropa Birliyi Belarus iqtidarına sanksiyalar tətbiq etdi, lakin nəticəsi olmadı, Belarusa nə oldu ki, Azərbaycana da tətbiq edilsə nəsə olsun. Bu yanaşma doğrudurmu?” sualına ekspert belə cavab verdi:** “Bu, yanlış düşüncədir. Çünki Belarusla Azərbaycanın arasında böyük fərqlər var. Birincisi, Belarusda oliqarxlar yoxdur ki, həmin oliqarxlar Avropa ilə bağlı olsun. Bizdə isə oliqarxlar var və onların kapitalları Avropadadır, Avropada mülkləri, yatırımları var. SOCAR-ın özünün Avropada çoxlu yanacaqdoldurma məntəqələri var. Odur ki, sanksiyaların təsirinin olmayacağını düşünmək yanlışdır. Belarusun Avropa Birliyi ilə iqtisadi-ticari əlaqələri də əvvəldən çox az idi. Azərbaycanın isə Avropaya satdığı da, Avropadan aldığı da çoxdur. Sanksiyalar tətbiq olunsa, Azərbaycana çox ciddi təsir edəcək. Avropa Birliyinin sanksiyalarının Azərbaycana heç bir təsirinin olmayacağını o adam deyə bilər ki, Avropa Birliyi ilə əlaqələrdən xəbəri yoxdur. Ancaq mən dəqiq bilirəm ki, Prezident Administrasiyasında və Xarici İşlər Nazirliyində əmindirlər ki, Avropa Birliyindən sanksiyalar işə düşsə, onun Azərbaycana necə böyük mənfi təsirləri olacaq”.

❑ Etibar SEYİDAĞA

# ADP prezidentə çağırış etdi

**Sentyabrın 21-də ADP İdarə Heyətinin toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən “Yeni Müsavat”a verilən xəbərə görə, iclasda 1 noyabrda keçiriləcək parlament seçkiləri ərəfəsində ölkədə mövcud olan vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.**




Müzakirələrdə seçkidə iştirak edən müxalif düşərgə təmsilçilərinə qarşı baş verən qanun pozuntuları - namizədlərin özlərinə və səlahiyyətli nümayəndələrinə qarşı hakimiyyət orqanları tərəfindən həyata keçirilən basqılar, imzatoplama kampaniyasına yaradılan süni maneələr və s. kimi hallar ciddi tənqid olunub. İdarə Heyəti hakimiyyəti dünyada və regionda mövcud siyasi konyuktura şəraitində ölkədə yersiz qarşıdurma yaratmamağa, dövlət məmurlarının seçkiyə müdaxiləsinin qarşısının alınması, konstitusion qaydada azad və ədalətli seçkilərin keçirilməsi üçün ciddi tədbirlər görməyə çağırıb.

ADP İdarə Heyəti son vaxtlar Dağlıq Qarabağın bəzi rayonlarının azad edilməsi müqabilində rus qoşunlarının “sülhməramlılar” adı altında Azərbaycanın işğal altında olan ərazilərinə yeridiləcəyi ilə bağlı ölkə və beynəlxalq mətbuatda gedən informasiyaları da müzakirə edib. Belə bir hadisənin Azərbaycanın suverenliyinin məhdudlaşdırılmasına gətirib çıxara biləcəyini nəzərə alaraq, hətta Azərbaycan ərazilərinin işğaldan azad olunması müqabilində rus qoşunlarının Dağlıq Qarabağa yerləşdirilməsinin yolverilməz olduğu bildirilib.

ADP İdarə Heyəti qarşıdan gələn Müqəddəs Qurban Bayramı ilə bağlı ölkə başçısı İlham Əliyevə müraciət edərək islami dəyərlərə hörmət əlaməti, islami həmrəyliyə və ölkədə milli barışa xidmət edəcək bir addım kimi siyasi məhbusların azad edilməsi üçün geniş əfv fərmanı imzalamağa çağırıb.

Sonda Azərbaycan xalqına qarşıdan gələn Müqəddəs Qurban Bayramı münasibətilə təbrik ünvanlanıb.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 210 (6238) 22 sentyabr 2015

**"7 iyun seçkisində xalqdan gələn mesaj "AKP-nin tək iqtidar olmasını istəmirik" idi. Seçicilər 13 ildən bəri ölkəni idarə edən AKP-yə etimad etmədilər, onun digər partiyalarla iqtidar ortağı olmasını istədilər. Bununla da Türkiyədə AKP-nin təkhakimiyyətliliyinə son qoyuldu. Mən prosesin geriyə inkişaf edəcəyini və AKP-nin yenidən təkbaşına hakimiyyətə gələ biləcəyini ehtimal etmirəm. Çünki xalq artıq onu iqtidardan düşürüb". Bu sözləri "Yeni Müsavat"a açıqlamasında MHP sədrinin müavini Atilla Kaya deyir.**

# "AKP-nin siyasəti rəqiblərə arxadan zərbədir"

**MHP millət vəkili Atilla Kaya:** "Son açıqlanan nəticələrə görə, AKP 1 noyabr seçkisində 10 faizə qədər səs itirəcək və 30 faizlərdə qalacaq"



Yada salaq ki, 7 iyun seçkisindən sonra hökumət qurmaq mümkün olmadığından Türkiyə təkrar seçkiyə gedir. AKP təmsilçilərinin çıxışları onu deməyə əsas verir ki, partiya yenidən ortaqsız hakimiyyət olmaq düşüncəsindədir. Bir sıra ekspertlərin iddialarına görə, ölkədə terrorun genişlənməsi, gərginliyin yüksəlməsi AKP-nin gizli planıdır və bununla partiya xalqa "bizsiz sabitliyin təmin edilməsi mümkün deyil" mesajını verməyə çalışır. **Atilla Kaya** isə düşünür ki, xalq 7 iyundan sonra ölkədə nələr baş verdiyinin fərqindədir: "Yeni seçkidən sonra ölkədə koalisyon hökuməti qurulacağı ehtimalı çox yüksəkdir. AKP təbii, durumdan çox narazıdır. Seçkilərdə xalqdan etimad ala bilməmələri onlar üçün böyük itkidir və bu, AKP-ni bir siyasi güc olaraq məhv olmaq təhlükəsi ilə üz-üzə qoyan prosesin başlanğıcı ola bilər. AKP rəhbərliyi, eləcə də qaçaq sarayda oturan prezident Rəcəb Tayyib Ərdoğan durumu çox yaxşı anlayır. Qarşıdan seçki gəldiyi üçün xalqla münasibətləri pisləşdirmək istəmirlər, buna görə də ritorikalarında yetərincə ehtiyatlıdırlar. Əslində isə seçicilərdən narazılıqları böyükdür. AKP 7 iyun seçkisindən sonra da koalisyon hökuməti qura bilərdi, amma bunun üçün faktiki olaraq heç bir cəhd göstərilmədi. Aydındır ki, seçkidə ikinci, üçüncü yerləri qazanan partiyalar koalisiyada təmsil olunmaq üçün şərtlərini irəli sürəcəkdilər və sürdülər. AKP bu şərtlərin heç birini qəbul etmədi, üstəlik, nə CHP-yə, nə də MHP-yə hökumət qurmaqla bağlı açıq təklif göndərmədi. Tam əksinə, bilərəkdən prosesi uzatdı və təkrar seçki elan etdi. Çünki AKP hələ də yenidən tək hakimiyyət quracağına ümid edir. Qaçaq sarayda oturan prezidentin ən böyük arzusu budur".

**A.Kaya deyir ki, çözüm süreci AKP üçün böyük bəlaya çevrilib. Türkiyə bir tərəfdən PKK, digər tərəfdən isə devirməyi hədəflədiyi rejimlərə qarşı yaratdığı silahlı birləşmələrin hədəfindədir. Ancaq bu da son deyil. İqtidarın iqtisadi siyasəti də iflas edib və durum getdikcə pisləşir:** "Biz 7 iyuna qədər dəfələrlə demişik ki, kürd açılımı, çözüm süreci adı verilən siyasət Türkiyəni uçuruma aparır, PKK-nı gücləndirir, terroru Türkiyə ərazisinin bəlli hissəsində hakim vəziyyətə gətirir. MHP illərdir bu siyasəti tənqid edir. Bizim illər öncə söylədiklərimizi AKP-nin rəhbəri, nazirlər, digər AKP-lilər indi deyirlər. Çox təəssüf, 7 iyundan PKK-nın başlatdığı terrorda 150-yə yaxın əsgər, polis, mülkü vətəndaş şəhid oldu. Allah şəhidlərimizə rəhmət eləsin. Onların qanı PKK ilə bərabər, PKK-nı bu ölkədə gücləndirən AKP-nin boynundadır. PKK yalnız Türkiyənin güney, güney-doğu Anadolu bölgələrində deyil. Terrorla mübarizə tədbirləri effektli aparılmadığı üçün PKK digər bölgələrə də yayılıb və ölkənin təhlükəsizliyi ilə bağlı ciddi problemlər ortaya çıxıb. Bir tərəfdən terror, bir tərəfdən də iqtisadi durumun getdikcə zəifləməsi Türkiyəni çox çətin duruma sürükləyir. Dollar artıq 3 lirəni keçib və bahalaşmanın qarşısını almaq mümkün deyil. Yalnız PKK və iqtisadi problemlər deyil, xarici siyasət kursundakı AKP-nin açdığı yaralar ölkəni beynəlxalq güclərlə üz-üzə qoyub. Türkiyə seçkiyə belə gərgin bir dönəmdə gedir və vətəndaş AKP-nin ölkəni necə qırılmaq nöqtəsinə gətirdiyinin fərqindədir. Ona görə də AKP-nin səsləri bu seçkidə daha da azalacaq. Bu, sadəcə, bizim müxalifət partiyasının mənsubları olaraq baxışımız deyil. Türkiyədə proqnozları reallığa son dərəcə yaxın olan sosioloji sorğu mərkəzlərinin araşdırmaları belə deməyə əsas verir. Son açıqlanan nəticələrə görə, AKP 1 noyabr seçkisində 10 faizə qədər səs itirəcək və 30 faizlərdə qalacaq. Mən xalqın AKP-yə gərəkli dərsi verəcəyinə inanıram".

**AKP-nin 1 noyabr seçkisi ilə bağlı siyasətini izləyərkən bəlli olur ki, partiya bir sıra dairələrdə daha nüfuzlu namizədləri irəli sürməklə itirdiyi səslərin bərpasına çalışır. MHP təmsilçisi deyir ki, bu şəxslərin çoxu artıq "xərclənmiş" simalardır və onların səsləri artırmaq ehtimalı çox aşağıdır:** "AKP-nin məqsədi, sadəcə, rəqib partiyaların, özəlliklə də MHP-nin səslərini bölməkdir. İğdırı buna gözəl örnək saymaq olar. Bəllidir ki, İğdır həm Türkiyə, həm Azərbaycan üçün çox önəmli bölgədir. İki ölkənin sərhədində yerləşən bu strateji məkan PKK-nın hədəfindədir. Orada əslən Azərbaycan türkü olan, eləcə də milliyyətcə kürd olan vətəndaşlarımız yaşayır. AKP iqtidara gəldiyi gündən İğdırda dövlət idarələrində türk vətəndaşlarımız hətta şöbə müdiri vəzifəsində saxlanmadı. Çox qısa bir dönəmdə bütün rəhbər orqanlara kürdlər yerləşdirildi. Beləliklə, İğdırın kürdləşdirilməsinə geniş imkan açıldı, qısa zamanda əhalinin milli tərkibi kürdlərin xeyrinə dəyişdi, əsrlərlə bu torpaqlarda yaşayan insanlar sıxışdırıldıqlarına, onlara işləmək-yaşamaq şəraiti yaradılmadığına görə köçməyə məcbur edildilər. 7 iyun seçicisində AKP-nin MHP-yə qarşı qurduğu oyuna görə MHP-nin namizədi İsa Yaşar Təzəl 1500 səs fərqi ilə kürd namizədə uduzdu. Çox təəssüf, CHP də bu dairədə AKP ilə əlbir oldu, əslən Azərbaycan türkü olan namizəd irəli sürməklə MHP-nin səslərini böldü. AKP 1 noyabr seçkisinə yenə böyük hiylə ilə gedir. Məqsəd yenidən PKK-nın siyasi qanadı HDP-ni dairədə qalib etməkdir. AKP-nin irəli sürdüyü Nurəddin Aras köhnə MHP-lidir. Bir dönəm İğdırda bələdiyyə başqanı olub, daha sonra AKP-dən namizəd oldu, MHP-nin səsləri bölündü və HDP qalib gəldi. İndi yenə AKP eyni oyunu oynayaraq bu şəxsi Azərbaycan türklərinin səslərini bölmək üçün ortaya atıb. 7 iyun seçkisində MHP 25 min 500, AKP 10 min səs alıb. 1 noyabr seçkisində Nurəddin Aras AKP-nin səslərini 2 dəfə artırsa belə, onun qalib gəlmək şansı yoxdur. Vətəndaşlar bu siyasəti düzgün dəyərləndirməsələr, yenə də MHP-nin səsləri bölünəcək və 7 iyun seçkisində olduğu kimi, hər iki millət vəkili HDP-li olacaq. AKP bir çox bölgələrdə analoji gedişlər qurmaqla HDP-nin qalib gəlmə şansını artırır. Türkiyənin problemi həm də odur ki, həm AKP-nin, həm də CHP-nin içərisində HDP-dən fərqli düşünməyən millət vəkilləri, rəhbər şəxslər var. PKK-nın silah yolu ilə əldə etmək istədiyi hədəflərə bu şəxslər demokratiya pərdəsi altında çatmaq istəyirlər. AKP-nin sayəsində bu gün əllərində ciddi səlahiyyət var, müəyyən dairələrə təsir imkanları genişdir. Təbii, bütün bunlar siyasi mübarizə imkanlarını çətinləşdirir. AKP bir zamanlar müxalifətdə olan, daha sonra isə özünün ələ aldığı şəxsləri namizəd göstəməklə xalqa alternativ təklif etmiş kimi görünmək istəyir. Əslində isə bu, rəqib düşərgəyə arxadan zərbədir".

**MHP-nin hədəfi isə bu seçkidə səslərini maksimum artırmaqdır. Bu məqsədlə partiya seçki siyahısına bəzi dəyişikliklər edib. Yeni siyahı partiya içərisindəki bəzi etirazlara səbəb olsa da A.Kaya düşünür ki, MHP-lilər durumun məsuliyyətini dərk edərək birliyə xələl gətirəcək addımlar atmayacaqlar:** "Siyahı ilə bağlı kiçik narazılıqların partiyada ciddi fikir ayrılıqları yaradacağını ehtimal etmirəm. Ümid edirəm, MHP-də təmsil olunan hər kəs durumun vətən üçün nə qədər həssas olduğunu nəzərə alacaq. Namizəd siyahısının yenilənməsi səbəbsiz deyil. Biz 7 iyun seçkisində məğlub olan namizədləri yeniləri ilə əvəz etdik. Düşündük ki, seçkidə yıpranmamış, seçkiyə yalnız qələbə həvəsi ilə gedəcək partiyadaşlarımıza da şans yaradılmalıdır. İğdır, Çankırı, Çorum və digər bölgələrdə MHP-ni yeni namizədlər təmsil edəcək. Bəri başdan onlara böyük qələbə arzulayıram. Bizim davamız ideoloji davadır. Bu gün partiya tapşırığı olaraq, millət vəkili olaraq görəvdə olan MHP-li, sabah davamıza xidmət üçün başqa bir yerdə ola bilərik. Bizim dava arxadaşlarımızın hamısı bu durumu qəbul etmiş insanlardır. Önəmli olan Milliyyətçi Hərəkat Partiyasının güclənməsi, onun hədəflərinə çatmasıdır".

❑ **Aygün MURADXANLI**



# AŞ PA-nın xüsusi müşahidə missiyası gəldi

## Seçkilər zamanı bütün DİN strukturları gücləndirilmiş iş rejiminə keçəcək

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) seçki müşahidə missiyasının dünən Azərbaycana ilk səfəri başlayıb. İspaniyalı parlamentar Yordi Şuklanın başçılığı ilə 5 nəfərlik AŞ PA nümayəndə heyəti seçkiqabağı durumu öyrənmək üçün 2 gün Azərbaycanda olacaq. Səfərin məqsədi 1 noyabr tarixində Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı seçki sistemini və seçki kampaniyasını dəyərləndirməkdir. Nümayəndə heyəti parlamentin spikeri, parlamentdə təmsil olunan parlament qrupları və partiya liderləri, həmçinin parlamentdə təmsil olunmayan müxalif partiya liderləri ilə görüşəcək.**

Nümayəndə heyəti seçki öncəsi səfərlə bağlı yazılı bəyanat hazırlayacaq.

Nümayəndə heyətinin tərkibinə həmçinin Almaniyadan Franck Schwabe, keçmiş Yuqoslaviya Respublikası və Makedoniyadan Aleksandar Nikoloski, Türkiyədən Egemen Bağış və İspaniyadan Aqustin Konde daxildir.

Səfərin ilk günü-sentyabrın 21-də AŞ PA müşahidə komitəsinin üzvləri Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovla görüşüb. Bu barədə "Yeni Müsavat"a MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən məlumat verilib. Xəbərdə deyilir ki, nümayəndə heyətini salamlayan MSK sədri rəhbərlik etdiyi qurumun nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən Avropa Şurası və onun müxtəlif qurumları ilə çoxillik əlaqələrinə daim önəm verdiyini məmnunluqla bildirib, seçkilərlə bağlı müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

Nümayəndə heyətinin rəhbəri Xordi Şukla və qonaqlar seçkilərə hazırlıqla bağlı görülmüş işlərlə maraqlanıb. Nümayəndə heyətinin suallarını cavablandıran komissiya sədri vətəndaşlarımızın aktiv və passiv seçki hüquqlarının daha səmərəli təmin olunması üçün beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində həyata keçirilmiş tədbirlər, atılmış addımlar və nəzərdə tutulan layihələr barədə məlumat verib.

Görüşdə həmçinin müxtəlif sahələrdə qurumlararası əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən verilən daha bir məlumata görə, sentyabrın 21-dən etibarən komissiya Daxili İşlər Nazirliyi (DİN) ilə birgə seminar-müşavirələrə başlayıb. Milli Məclisə seçkilər prosesində və səsvermə günü ictimai qaydanın pozulması hallarının qarşısının alınması istiqamətində polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsinə həsr edilən zona seminar-müşavirələrində dairə seçki komissiyalarının sədrləri və polis orqanlarının nümayəndələri iştirak edir.

İlk belə seminar-müşavirə dünən Gəncə Şəhər Baş Polis İdarəsində Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi tərəfindən MSK-nın nümayəndələri və dairə seçki komissiyalarının sədrləri, polis orqanlarının xidmət üzrə rəis müavinləri və ictimai təhlükəsizlik şöbə, bölmələrinin rəislərinin iştirakı ilə təşkil olunub. DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini polis polkovnik-leytenantı Hikmət Eyvazov bildirib ki, noyabrın 1-də keçiriləcək seçki günü vətəndaşların öz iradəsini sərbəst və azad ifadə etməsi üçün mühüm amillərdən biri ictimai asayişin etibarlı qorunmasıdır. H. Eyvazov bu məqsədlə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması ilə bağlı DİN rəhbərliyi tərəfindən 26 avqust 2015-ci il tarixli xüsusi tədbirlər planının təsdiq edildiyini və icrasının nəzarətə götürüldüyünü bildirib.

Qeyd olunub ki, seçici kimi səsvermə halları istisna olmaqla, seçki günü polis əməkdaşlarının seçki məntəqəsinə yalnız xüsusi geyim formasında və məntəqə seçki komissiyasının qərarına əsasən ictimai qaydanın bərpa edilməsi məqsədilə gəlməsinə icazə veriləcək. İctimai qayda bərpa olunduqdan sonra onlar dərhal məntəqədən çıxarılacaq.

Seçki bülletenləri saxlanılan dairə və seçki məntəqələrinin mühafizəsinin təşkil edilməsi, səsvermədən əvvəl bülletenlərin MSK-dan dairə seçki komissiyalarına və oradan seçki məntəqələrinə, seçki qurtardıqdan sonra isə seçki məntəqələrindən dairə seçki komissiyalarına və oradan Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı mühafizənin təmin edilməsi üçün bütün zəruri tədbirlər görüləcək.

H.Eyvazov deyib ki, seçkilərlə əlaqədar DİN-in bütün orqan və nizami polis hissələri oktyabrın 27-dən noyabrın 2-dək gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək.

❑ **Etibar SEYİDAĞA**



# Qərbə qarşı acıqlı cəmiyyət...

**Hüseynbala SƏLİMOV**

**Cəmiyyətləri başa düşmək siyasətçiləri anlamaqdan həmişə çətin olub. Xüsusən də nəzərə alanda ki, siyasətin özünün də anlamı son nəticədə gəlib cəmiyyətdən keçir, məsələ bir az da qəlizləşir...**

Nə gizlədim? Hamımız Rusiya siyasətindəki və cəmiyyətindəki prosesləri heç olmasa, bir azacıq olsa da anlamağa çalışırıq. Bilmək istəyirik ki, bu ölkədə cəmiyyətlə siyasət dünyası biri-birinə nə qədər adekvatdır?

Siyasətçilər özləri çox fikrə düşə bilər, müxtəlif planlar qurarlar. Amma bütün bunlar hər hansı formada cəmiyyətə söykənməsə, mənasız işdir...

İndi Rusiya mətbuatını izlədikdə, telekanallara ötəri də olsa baxanda görürsən ki, vəziyyət ən azı birmənalı deyil. Kifayət qədər narahatlıq keçirən, hökumətin bu anlaşılmaz anti-Qərb siyasətinin harada lövbər salacağını təşviş içində izləyən insanlar da var...

Məsələn, o gün bir müəllif yazmışdı ki, Rusiyanın Qərblə savaşı onun özünün özünə qarşı savaş açması kimi bir şeydir, çünki bütün "yeni rusiyalılar" əslində qərbçidir və Qərb dəyərlərinə və həyat tərzinə böyük önəm verirlər...

Amma digər cinah - Qərbə qarşı "son və həlledici döyüş"də bütün qüvvələri səfərbər etməyə çağıranlar daha çoxdurlar. Bu da təbiidir, əgər yenilik və yeni siyasi ovqat ölkədə həlledici olsaydı, bəlkə də bütün bu son proseslər yaşanmazdı da...

Ziyalıların böyük qismi özünü hakimiyyətin tərəfində hiss edir. Yazan-pozan, ictimai disputlarda iştirak edən də elə həmin bu ziyalılardır...

Onlar Qərbə qarşı acıqlıdırlar. Ona görə ki, Qərb onları imtiyazlarından məhrum edib. Bir dəfə oxumuşdum ki, indi Rusiyada hər hansı bir gənc desə ki, gələcəkdə akademik olmaq istəyirəm, ona, sadəcə, gülərlər. Ona görə ki, bir-iki min dollarlıq maaş üçün bütün ömrünü həsr etmək gülünclükdür, çünki başqa bir işdə bundan daha əziyyətsiz, daha asan və daha tez qat-qat çox qazanmaq mümkündür...

Bəs mətbuatda, ictimai disputlarda çıxış edənlər kimdir? Həmin professorlar, akademiklər. Elə bu səbəbdən də onların Qərbə qarşı niyə acıqlı olması elə də anlaşılmaz məsələ deyil...

Sovetlərin vaxtında ziyalılar imtiyazlı təbəqə idi. Hətta cəmiyyətin elitası hesab olunurdular. İndiki Rusiyada isə bunu demək olmur. Siyasətçilər, siyasi mühit, iş adamları onları daim pressinq altında saxlayır...

Yadıma gəlir, hələ B.Yeltsinin vaxtında Dumaya bir iqtisadçı professor dəvət etmişdilər. O, azacıq danışandan sonra A.Çubays ona dedi ki, bura sizin üçün tələbə auditoriyası deyil...

Ona görə də bu gün Rusiyada professor, dünyanın ən az tanınan universitetində tələbələr qarşısında mücərrəd, hətta özünün də başa düşmədiyi mətləbləri çözən bir adam deməkdir...

Bugünkü cəmiyyət də, bugünkü iqtisadiyyat da onlar elə bir ehtiyac duymur, bu adamları artıq hesab edirlər. Amma eyni zamanda da ölkədən intellekt axını ilə bağlı gileylənməyi hamı patriotluğun vacib bir şərti hesab edir...

Ona görə də bu insanlar Qərbə qarşıdırlar. Ona görə ki, Qərbin ucbatından onlar vətəndaşları olduqları böyük ölkəni itiriblər, böyük dövlət kimi haminin qayğısından məhrum olublar...

Elə bu səbəbdən də görəndə ki, rusiyalı professor Qərbə qarşı ikinci savaşı udmaq üçün nələr etmək lazım gəldiyi haqda yazır, buna elə də təəccüblənmirəm, bu günün Rusiyası üçün bunu tamamilə təbii hesab edirəm.

Əslində bu, heç ictimai aqressiya da deyil. Bilirsiniz, bu, nəyə daha çox bənzəyir? Bir az incidilmiş, bir az da təhqir edilmiş insanın iztirablı davranışına. Bir daha qeyd etməyə məcburam ki, Qərb onların dünyasını əllərindən alıb, onları ikinci dərəcəli, hətta üçüncü dərəcəli təbəqəyə çevirib...

Qərbdə intellekt adamlarının özlərinin heç vaxt kultu olmayıb. Əvvəllər varlıların, daha sonra isə dövlətin və işgüzar adamların kölgəsində keçinən intellekt adamları orada heç vaxt cəmiyyətin elitası hesab edilməyiblər. Bəli, Napoleon kimi alimləri, elm və sənət adamlarını himayə edən hökmdarlar da olub. Fəqət, bu, heç vaxt norma halında olmayıb. Dünyanın bir çox ədibləri kübar məclislərini, kübar ziyafətlərini çox ətraflı şəkildə təsvir ediblər. Amma siz bu təsvirlərdə elm və sənət adamlarına rast gəlmisinizmi? Özünüzü yormayın, hətta rus ədəbiyyatında da onlar yoxdur...

Amma sovetlərin vaxtında onlar ictimai kumirlər idilər. İndi bildinizmi nədən Rusiya ziyalıları Qərbə qarşı "son və həlledici həmlə"yə hazırlaşır?..

---

**AXCP-nin sentyabrın 27-də keçiriləcək qurultayında sədr Əli Kərimliyə ən yaxın adamının, partiyanın Rəyasət Heyətinin üzvü Sahib Kərimlinin rəqib olması partiyadakı gərgin durumu kritik həddə çatdırıb. S.Kərimli sosial şəbəkələrdə paylaşdığı statusda cəmiyyətə, AXCP üzvlərinə mesajlarını facebook üzərindən çatdıracağını qeyd edib. Namizədlik statusundan sonrakı ikinci paylaşımında AXCP sədrliyinə iddiaçı bəzi açıqlamalar verib:**

# AXCP sədrliyinə iddiaçıya "satqın" damğası vuruldu

## Sahib Kərimli ilə Əli Kərimlinin sürücüsü arasında qalmaqal yarandı; cəbhəçilər sabiq vicdan məhbusunun üzərinə hücuma keçiblər



### Ağaşirin Tanrıverdioğlu: "Eldar Namazov prezident köməkçisi olanda, Əli Kərimli ilə hər axşam çörək yeyirdilər"

"...İctimai müzakirəyə çıxaracağım fikirlər bütövlükdə vətəndaş cəmiyyətini narahat edən məsələlər olacaq. Bu daha çox ictimai legitimlik üçündür. Partiyadaxili məsələlər, idarəetmədəki səhvlər, kadrların seçilməsi, hesabatlılığın yoxluğu, kollegiallığın olmaması kimi məsələlər, ilkin olaraq facebookdakı daxili qruplarda müzakirəyə çıxarılacaq. Səsvermə partiya üzvlərinin iştirakı ilə olduğundan, əsas hədəfimiz onlardır. Nizamnamənin, demokratiya prinsiplərinin tələbləri əsas tələbimizdir. Onlardan sistemli şəkildə faydalanmağa çalışacağıq. Partiyadaxili müzakirələr o halda ictimailəşə bilər ki, prinsiplərdən imtina olunur, son çarə kimi ictimai basqıya ehtiyac var. Amma bütün hallarda biz siyasi yarışmanı mədəni idarə etməyə borcluyuq".

S.Kərimli namizədliyini elan etdikdən sonra ona partiya daxilindən, eləcə də qurumdan çıxarılan keçmiş əqidədaşları tərəfindən dəstək gəlməyə başlayıb. Həmçinin ona qarşı "xain", "satqın" ittihamları havada uçur. Əli Kərimlini və onun çevrəsinə yaxın insanları tənqid edənlər bir anda düşmən olurlar.

**S.Kərimli bu barədə sosial şəbəkələrdə status paylaşıb. Statusda AXCP-də keçdiyi həyat yolundan, apardığı mübarizədən, Şəkidə qurduğu təşkilatdan geniş bəhs edən S.Kərimli satqın çıxarılmasına belə aydınlıq gətirib:** "Yenə satqın deyirlər mənə. İddia qoydum, AXCP sədrliyi üçün yarışmaq istəyirəm, buna haqqım çatır, altında niyyət axtarılır. Nədən sataraq iddialı olum? Bəlkə inanaraq oluram? Özünə güvənərək? Yarışaq, özümüzü təqdim edək, fayda verək. Uduzduqca əl sıxaq, öyrənək, öyrədək... Milli olan, ölkəsinə fayda vermək istəyən iddialı adamlar, lider keyfiyyətləri olanlar satılmazlar, satın almazlar, dözümlü olarlar".

**S.Kərimlinin yazdığı statusun altındakı şərhlərdə cəbhəçilər açıq şəkildə onun üzərinə hücuma keçiblər. Təqdiddən başlayıb, təhqirlə bitən rəylərdə diqqət çəkən nüanslar var. Xüsusilə Əli Kərimlinin sürücüsü Kərim Mehdiyevin S.Kərimlini həbsdən çıxdıqdan sonra partiya quruculuğunda iştirak etməməkdə, eləcə də mitinqlərdə aparıcılıq üstündə dava salmaqda ittiham etməsi bir çox mətləblərdən xəbər verir:** «Sahib bəy, siz elə təqdim edirsiniz ki, sədrliyə namizəd olduğunuzdan guya sizi satqın adlandırırlar. Zəhmət olmasa , ictimaiyyəti çaşdırmayın. Cəbhəçilər də soruşurlar ki , nə məqsədlə siz partiyadaxili intriqalar yaratmağa cəhdlər edirsiniz. Sizdən tələb edirlər ki, Rəyasət Heyətinin üzvüsünüz, hesabat verin, həbsdən çıxdıqdan sonra partiyada hansı quruculuq işində iştirak etmisiniz, keçirilən mitinqlərdə niyə cüzi də olsa əməyiniz olmayıb, ancaq aparıcılıq davası eləmisiniz... Cəbhəçilər öz təşkilatlarını qoruyacaqlar".

**S.Kərimli AXCP sədrinin sürücüsünün fikirlərinə cavabsız qalmayıb:** "Heç kimi çaşdırmıram, yazdıqlarımın yüzlərlə şahidi var. Partiya sədrliyinə namizəd olaraq gördüyüm işləri açıqlayacam".

Bir partiya sədrinin şəxsi sürücüsünün bu qədər cənfəşanlıq etməsi, insanları aşağılaması qurumun nə vəziyyətdə olduğunu çılpaqlığı ilə ortaya qoyur.

**AXCP sədrliyinə iddiaçının statusunda partiyanın Təşkilat Şöbəsinin əməkdaşı Təzəxan Mirələmli özü də bilmədən bir sıra sirli mətləblərin üstünü açıb. O, açıq şəkildə S.Kərimliyə partiya daxilində satqın damğası vurulduğunu etiraf edib. AXCP daxilində yaşanan sirli müəmmaların üstünü açan şərhi olduğu kimi təqdim edirik:** "Sahib bəy, hələ ki sizə açıq - rəsmi polemikalarda satqın deyilmir. Daxili müzakirələrdə belə fikirlər səslənir bəzi cəbhəçilər tərəfindən».

**S.Kərimli onun statusunda barəsində səslənən iddialara cavab verib:** "Siz Təşkilat Şöbəsinin əməkdaşı olaraq, demokratik seçki keçirilməsinin təmin olunmasında fəal olun. Prosedurlara riayət edərək, medianın gözü qarşısında gizli səsvermənin nəticələri açıqlanandan sonra mən hökumətin adamı olsam belə, partiyaya zərbə vura bilmərəm. Müsavat Partiyasında olduğu kimi. Kimsə Arif Hacılının legitimliyini şübhə altına ala bildimi? Ədliyyə Nazirliyinə bir yox, bir neçə şikayət var halbuki. Partiyadan gedənlər oldu vəssalam. İndi gedən də yoxdur, tərəfdarlarım da, mən də Cəbhədə qalacağıq. Razi böylə də partiyadan gedənlər itkidir. Zatən milli qüvvələr 20 ildir itirə-itirə gedir. Elə bu proses də durmalıdır, xalq hərəkatında iştirak etmiş fədakar insanlar bu illər ərzində əzilib. İstəmirəm insanlar bir-birini əzsin. Axı onlar Azərbaycan üçün ikinci ən böyük işi görüblər. Müstəqilliyin qazanılmasında iştirak ediblər. Onları parçalanmağa, yox olmağa qoymaq olmaz. Onları birləşdirmək, partiyaya güc qoymaq iddiasındayam. Sizə düşən dostcasına, demokratcasına xeyir-dua etmək olar. Şübhələnirsiniz? O zaman qurultayda səs verməyin. Bu qədər sadədir bu məsələ".

Aylar öncədən qeyd etmişdik ki, AXCP-də sədr və çevrəsini haqlı olaraq tənqid edən insanlar bir anda satqın olurlar. Qurultayqabağı dediklərimiz nöqtə-vergülünə qədər təsdiqini tapmaqdadır. Hələ qarşıdakı günlərdə çox çirkli sular durulacaq...

**Aylar öncə S.Kərimli ilə aralarında olan əlbəyaxa davadan sonra onu məhkəməyə verən, sonradan ərizəsini geri götürən AXCP-nin Nərimanov təşkilatının sabiq şöbə müdiri Ağaşirin Tanrıverdioğlu "Yeni Müsavat"a açıqlamasında cəbhədəki bütün dostlarını ona səs verməyə çağırdı:** "Düşmən olsan da, gərək namərd olmayasan. Mənim Sahib Kərimli ilə konfliktim olub. Amma onun namizədliyini bu gün məqsədəuyğun hesab edirəm. Partiyadan çıxarılsam da, orada kifayət qədər dostlarım var. Sahib bəy düz edib. Əli Kərimli İsa Qəmbər nümunəsi göstərməli idi. Qurultaydan sonra Müsavat laboratoriya oldu. AXCP-ni daha pis günlər gözləyir. Əli Kərimlinin vətənə, cəbhəçilərə sevgisi olsaydı, bu addımı atmazdı. O, Elçibəy, Nəcəf Nəcəfli və başqalarının qarşısında günahını yumalı idi. Deməli idi ki, əziz cəbhəçilər, sədrliyim sizə uğur gətirmədi, mən gedirəm. Bu insan vətəni, torpağı, milləti, cəbhəçiləri bir kresloya qurban verdi. Nə cəbhəçilər, nə Allah, nə də xalq onu heç vaxt bağışlamayacaq. Sahib Kərimlini dəstəkləyirəm. Bütün qurultay üzvlərini ona səs verməyə çağırıram. Onunla xüsusi münasibətim yoxdur. Soyuq münasibətlərimiz davam edir. İnsan haqlıdırsa, AXCP-ni diktatorun əlindən xilas etmək istəyirsə, buna dəstək olmamaq, ən azından nadanlıq olar. Hər kəs mənim kimi düşünsə, onun qələbəsi 100 faiz olar. AXCP nizamnamə ilə yox, bir qrup insanın fanatikliyi ilə idarə olunur. Dünənə qədər Sahiblə çiyin-çiyinə gedənlər bu gün onu satqın çıxaracaqlar. Əgər dəvə bilsəydi ki, Əli Kərimli kimi bir kinlisi var, bu dünyaya heç gəlməzdi. Sahib Kərimli seçilməsə, "zombi"lər tərəfindən küçə söyüşləri ilə təhqir olunacaq. Ona partiyada Əli Kərimli heç vaxt yüksək post verməyəcək. Hətta Sahib sıravi üzv qalsa, bu onun qələbəsi olacaq. Əli Kərimlinin xislətini uzun illər görmüşəm. Onun bir məqsədi var. Kim məni tərifləmirsə, düşmənimdir. Kim buna qarşı demokratiya, haqq savaşı açıbsa, dərhal "zombi"lərinə xəbər verir ki, bu şəxs hökumətə işləyir. Adama deyərlər ki, Sahib parlamentdə oturmayıb. Eldar Namazov Heydər Əliyevin köməkçisi olanda, Əli Kərimli ilə hər axşam çörək yeyirdilər. Sahib belə bir şəxslə oturmayıb. O, uşaqlarını məktəbə göndərməyə çətinlik çəkir, amma Əli Kərimlinin oğlu Londonda böyük iqamətgahın sahibidir. Kərimlinin paltosunun qiyməti Sahib Kərimlinin mülkünə bərabərdir. Bunların hamısı qara, çirkli pullardır. Zaman-zaman hakimiyyətlə əlbir olub, 10 il hakimiyyətlə işbirliyində olub, indi özünü doğruya çıxarmağa çalışır. Əgər səsvermə qapalı olsa, Sahib Kərimlinin səsi yetərincə olacaq. Amma buna "zombi"lər imkan verməyəcək".

❑ **Cavanşir ABBASLI**

**Ümid Partiyası Ali Məclis sədrinin müavini, Binəqədi Şəhər Bələdiyyəsinin üzvü Tamilla Qulami xəbər24.az saytının suallarını cavablandırıb. Partiyanın mətbuat xidməti müsahibəni oxuculara təqdim edir.**

# “Əhalinin 90 faizi öz deputatının kim olduğunu bilmir”

## Tamilla Qulami: “Yalan vədlər verib, insanları inandırmaq, onların bütün ümidlərini puç etmək heç xoş hal deyil. İmza toplayarkən onların verdiyi vədləri necə “yerinə yetirdikləri” başımıza qaxınc oldu”



***- Tamilla xanım, əvvəlcə sizi xəbər24.az saytı adından salamlayır və gələcək seçimlərdə güclü və qalib olmağınızı arzulayırıq.***

- Çox sağ olun. Öncə saytınıza uğurlar diləyir, ən gözəl xəbərləri sizin saytınızdan oxumağı diləyir, məni saytınızda qonaq etdiyiniz üçün təşəkkür edirəm.

***- İstərdik əvvəlcə sizi oxucularımıza tanıdaq. Zəhmət olmazsa, özünüzü oxucularımıza təqdim edin.***

- Mən Tamilla Famil qızı Qulami 1983-cü il oktyabrın 1-ində Tərtər şəhərində ziyalı ailəsində dünyaya göz açmışam. Orta məktəbi Tərtər şəhəri 6 saylı məktəbdə başlayıb, Bakı şəhəri Xətai rayonu 88 saylı orta məktəbdə davam etmişəm. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti “Kulturologiya” fakültəsinin bakalavr və magistratura pilləsini fərqlənmə diplomu ilə bitirmişəm. Ailəliyəm, iki övladım var.

Tələbəlik illərindən ictimai-siyasi yazılarım dövri mətbuatda dərc olunur. Güney Azərbaycan Televiziyasında, Kanal13-də Güney Azərbaycanla bağlı proqramların aparıcısı olmuşam. Hazırda siyasi fəaliyyətimlə bağlı Kanal13-də yayımlanan müəllifi olduğum “Güneydən Tamilla Qulami ilə” proqramıma qısa bir ara vermişdim, inşallah, tezliklə izləyicilərimin hüzurunda olacağam. Xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə iştirak edib, dövlətçiliyimiz, Qarabağ problemi ətrafında gedən seminarlarda Avropa Birliyi Şərq Tərəfdaşlığı çərçivəsində mühazirələr demişik. Azərbaycan Ümid Partiyası Ali Məclis sədrinin müavini, “125-lər” Siyasi Klubunda sədr müavini səlahiyyətlərini daşıyıram. 2014-cü ilin dekabr ayında keçirilən bələdiyyə seçkilərində Ümid Partiyasından namizədliyim irəli sürüldü, Binəqədi Şəhər Bələdiyyəsində seçilən 17 üzvdən biri də mən oldum.

Təhsil bilirsiniz ki, bir millətin bu günü, gələcəyidir, təhsildə axsayan cəmiyyət gələcək nəsillərə də mənfi təsir edir. Məktəb illərində müəllim olmaq arzusunda idim, sonradan millət üçün səlahiyyətli nümayəndə olub qanunverici orqanda olmaq istəyi daha ağır basdı. Atam Famil Qulami Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olub. Könüllü olaraq müharibəyə getmişdi, ixtisasca iqtisadçı olsa da hərbi savadı da var idi, peşəkar topçu olub. Artilleriya üzrə batareya komandiri idi. Mən də onun qızı olaraq vətən, millət yolunda çalışmaq üçün atamın yolunun davamçısı, ona layiq olmağa çalışıram.

***- Tamilla xanım, qeyd etdiyimiz kimi, Tərtər rayonu üzrə millət vəkili namizədliyinizi irəli sürmüsünüz. Bilmək istərdik, niyə məhz Tərtər?***

- Bəli, 95 saylı Tərtər seçki dairəsindən millət vəkilliyinə namizədliyimi irəli sürmüşəm. Artıq imzalar da toplanıb, təhvil verilib. Düşünürəm ki, ağrılı-acılı, xoş günlərini birgə bölüşdüyün insanların yanında olmaq, onlarla işləmək lazımdır. Əhalinin dərdlərinə şərik olmaq, problemlərinin həllinə çalışmaq, ərazinin hər qarışını tanımaq namizədin əsas vəzifələrindən biridir. Bütün hallarda iddialıyam ki, millətimin vəkili ola bilərəm.

***- Məlum məsələdir ki, Tərtər cəbhə bölgəsidir, bu sizi qorxutmur ki?***

- Yox, əlbəttə. Çünki Tərtərin ən ağır günlərində orda yaşamışıq. Cəbhə bölgəsi olmanın, müharibənin nə demək olduğunu bilirəm. Uşaq olsam da bugünkü kimi yadımdadır. Bir nəfər Tərtəri tərk etmədi. Hələ də indiyədək erməniyə ən yaxın, hər gün atışma olan kəndlərində insanlar yaşayır. Hər birinə canlı səngər desək, yanılmarıq. O insanlar üçün işləməyə dəyər! Düzdür, hər kəs bu sözü deyir amma boş vədlər vermirəm, namizədliyim qeydə alınsın, platformamız da açıqlanacaq, seçiləndən sonra səlahiyyətimiz üzrə işlərimizlə göstərəcəyik.

***- Rəqibləriniz haqda da fikirlərinizi bilmək istərdik.***

- Alternativ deyək. Hər birinə uğurlar diləyirəm. Demək olar ki, bütün partiyalardan da namizəd var, bitərəflərdən də. Bu bir yarışdır, udan da olacaq, uduzan da. Düşünürəm ki, xalqla işləyən kimsə uduzmayacaq. Zəfəri qazana bilməyən olsa belə bu yolda davam etməlidir. Vətən üçün, millət üçün. Hər kəs özünün qazanmasını istəyir, eləcə də mən. Sadəcə əminəm ki, mən qazansam, Tərtər də qazanacaq, Azərbaycan da.

***- Tamilla xanım, bilmək istərdik, seçimlərdən əvvəl xalqa vədlər verib sonra ümidlərini boşa çıxaran millət vəkilləri haqda nə düşünürsünüz? (hamısına aid deyil)***

- Onlar haqqında deyərdim ki, fərqi yoxdur necə seçiliblər, kim seçib, əsas bu idi ki, kaş, tutduqları postu boşuna məşğul etməzdilər. Bu gün bizim ən çox əziyyət çəkməmizin, insanları seçkiyə gətirə bilməməmizin, seçicilərdən pis yöndə eşitdiyimiz bütün sözlərin səbəbkarı onlardır. Yalan vədlər verib, insanları inandırmaq, onların bütün ümidlərini puç etmək heç xoş hal deyil. İmza toplayarkən onların verdiyi vədləri necə “yerinə yetirdikləri” başımıza qaxınc oldu rəsmən. Heç kim seçkiyə inanmır. Biz də bacardığımız qədər onlara millət vəkili səlahiyyətinin əslində nə olduğunu anlatdıq. Tərtər camaatı da millət vəkilindən çox şikayətçidir. Sizə deyim ki, Tərtərin kəndlərində millət vəkilinin kim olduğunu mən tanıtdım. Təəssüflər olsun ki, əhalinin 90 faizi öz millət vəkillərinin kim olduğunu bilmir.

***- Bəs siz nə vəd edirsiniz Tərtər camaatına? Ümumiyyətlə, Tərtərlə bağlı gələcək planlarınız, hədəfləriniz haqqında bilmək istərdik. Eyni zamanda ürəyinizdə çoxdan bəri Tərtərdə reallaşdırmaq istədiyiniz bir arzunuz varmı?***

- Yuxarıda qeyd etdiyim kimi, sadəcə, vədlər vermək yox, etmək lazımdır. Qazansam, mənimlə birgə onlar da qazanacaq. Seçki ərəfəsində imza verərkən, “məni işə düzəldin, sizə imza verim” deyənlər, “evdə xəstəmiz var, müalicə edin” deyənlər də oldu. Bunları istəmələri normaldı, çünki səslərinə səs verən yoxdur, düşünürlər ki, kim olursa-olsun, təki bizim problemləri yerindəcə həll etsin. Bir sözü deyə bilərəm ki, 3-5 nəfərə kömək lazımdırsa, ətrafdakı dostların, tanışların köməyi ilə bacardığımız qədər ehtiyacı olan bütün insanlara yardımda bulunmağa çalışırıq. Amma haqqında məlumatlı olduğumuz 3-5 ehtiyaclı insanlara yardım etməklə iş bitmir axı. Millət vəkilinin vəzifəsi ərazisinin bütün problemlərini dərindən öyrənib, parlamentdə səsləndirmək, davamlı olaraq millətin yanında olub, onun dərdlərindən xəbərdar olmaq, həllinə çalışmaqdır. Təbliğat öncəsi çağırış olmasın deyə reallaşdırmaq istədiyim arzular təbliğat zamanına qalsın. Bir sözü deyə bilərəm ki, dövlətçiliyimiz, səlahiyyətimizin izin verdiyi qədərilə millətimiz yolunda işləyəcəyik. Ümumiyyətlə, düşünürəm ki, hər bir vətəndaş millət vəkili oldu-olmadı, bacardığı qədər ölkəsi üçün yaxşı işlər görməyin alternativ yollarını araşdırıb həyata keçirməlidir. Çünki problemlərin həll edilməsi bütün hallarda birbaşa insanın özü üçün, dövləti üçün yaxşıdır. İnşallah, hər şeyin yaxşı olacağı ümidi ilə...

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 210 (6238) 22 sentyabr 2015



# Şadlıq aparın

Zamin HACI
zaminhaci@gmail.com

"Burada prinsipial olaraq heç nə dəyişmirdi, adama elə gəlirdi ki, real zaman çoxdan daşa dönüb, ya da dekretlə ləğv edilib, Spassk qülləsinin əqrəbləri isə oyuncaq mexanizmi kimi boşuna fırlanır. Ancaq ən dəhşətlisi adamlar özləri idilər, - gündəlik şərin, kasıbçılığın, qaçaqaçın çeynədiyi, əzdiyi adamlar... Onlar yavaş-yavaş Marinanın gözlərində blok evlər kimi eyniləşirdilər"

**(Vladimir Sorokin, "Marinanın otuzuncu məhəbbəti")**

**Təzəlikcə Tacikistanda bir general qiyam qaldırmışdı, hökumət qoşunları ilə savaşdılar, axırda generalı vurub öldürdülər. Mənim yadıma düşəndən, yəni azı son 25 ildə Tacikistanda vətəndaş savaşlarının arası kəsilməyib. Ölkənin "xilaskarı", "ümummilli lideri", həmçinin Azərbaycan yapistlərinin yaxın dostu İmomali Rahmon müəllim öz totalitar sistemini qorumaq üçün dəfələrlə xalqı qırğına verib. Sağ qalan taciklər də baş götürüb ölkədən qaçıblar, Moskvada küçə süpürüb başlarını girləyirlər. Tacikistan məhz o qastarbayterlərinin sayəsində dünyada bir antirekorda imza atmışdı: son illərin hansındasa (bəlkə də hamısında - dəqiqləşdirməyə həvəsim olmadı, rədd olsun bütün diktaturalar, həmçinin onlara aid rəqəmlər) ölkəyə həmin taciklərin Rusiyadan göndərdiyi pulun məbləği Tacikistanın Ümumi Daxili Məhsulundan çox olmuşdu. Yeri gəlmişkən, elə İmomalini hakimiyyətdə saxlayan da rusların dəstəyidir. Son dəfə üsyançı generalını öldürmək üçün Rusiyadan silahlı kömək istəmişdi.**

Amma İmomali müəllim 25 ildir ölkəni idarə edir, qətiyyən xəcalət çəkmir. Onun da leksikonu başqa diktatorlara bənzərdir. O da əhalini qızıl diş saxlamamağa səsləmişdi - kim bilir, bəlkə yağlı yeməklər haqda müraciəti var. Məsələn, bir-iki ay qabaq belə bir müraciət eləmişdi ki, qabaqdan böhran gəlir, taciklər ehtiyat görsünlər, iki illik ərzaq toplasınlar. Daha özünün nə üçün 25 il kreslodan yapışdığını açıqlamır. Bəlkə elə ehtiyat yığmaq əvəzinə səni dəyişib ağ günə çıxsınlar?

Hərçənd İmomali müəllim bəzi diktator dostlarına nisbətdə dəyişiklik tərəfdarıdır. Bir dəfə anladı ki, nəsə eləmək lazımdır, götürüb öz soyadını dəyişdi. Sovetdən qalma Rahmonovu Rahmon elədi. Fantastik islahat, fısqırıq mənəvi uğur idi! Tacik şairləri bu mövzuda çoxlu poema yazdılar. Axı əksər diktatorların "bizim mənəvi dəyərlərimiz var, biz xaricdən gələn ideologiyaları qəbul edə bilmərik" kimi arqumentlər səbəti olur. Nə olsun bu səbətin dalı adətən deşik olur. Əsas odur xalqa belə sözləri yedirtmək, xalqın içində belə alaq otu toxumlarını becərmək asan olur. Məsələn, insanlar insan kimi yaşamaq haqlarını qorumaq əvəzinə kiminsə şortik geyməsinə daha çox qıcıq olurlar. Bir azərbaycanlı və ya tacik öz uşağının normal təhsil, sağlamlıq hüququnu tələb eləməz, əvəzində uşağı oğru polis rəisi, quldur prokuror kimi böyütməyə çalışar. Bütün bu yaramazlıqların isə sistem halında "mənəvi dəyərlərimiz" tipli adı var.

Ümumiyyətlə, söz işçisi olduğumuzdan sözlərə çox fikir veririk. Təzəlikcə prezidentin Kürdəmirə səfəri olmuşdu, AzərTAc-ın ordan reportajında oxudum: "Parkdakı fəvvarə yenidən tikilib, burada oturacaqlar quraşdırılıb, yaşıllıq işləri görülüb. Parkda istər rayon sakinləri, istərsə də qonaqların mənalı istirahəti üçün bütün şərait yaradılıb". Sanki Kürdəmirin qonaqları, turizm sektoru aşıb-daşırmış. Mənalı istirahət nə deməkdir, görəsən? Mənasızı necə olur? Oturacaqların quraşdırılması prezident səviyyəsində xəbər verilməlidir? Yaşıllıq işləri görülməyən park da olurmu?

Təbii, bunlar sözgəlişi verilən suallardır, heç bir cavab ummuram. Qoy mənalı hakimiyyət davam eləsin. Yeri gəlib, bir şablon ifadəmiz haqda fikrimi bildirim.

Yas yerində işlənən "şadlıq aparın", "şadlıqda görüşək" tipli şablon ifadələr var. Bunları ilk dəfə fikirləşib dilə soxuşduran tipin başına yekə bir daş düşsün, çünki milləti böyük bir əzaba düçar edib. Necə yəni şadlıq aparın? Ölünün yanından necə şadlıq aparmaq olar? Bu qədər həyasız olmaq təklif edilir? "Son qəminiz olsun" başsağlığına cavab kimi düşünülmüş "şadlıq aparın" şablonu bəzən yas yerlərində səfeh durumlara səbəb olur. Örnək üçün, mən bir neçə dəfə kiminsə çaşıb "həmişə şadlıqda" dediyini eşitmişəm.

# Cavid Qurbanovun keçmiş rəqibindən fərqli mövqe

## İmamverdi Cəfərov: "Seçkidə iştirak etmək fikrindən daşındım"

**2010-cu il parlament seçkilərində 123 saylı Kəlbəcər seçki dairəsindən deputatlığa bitərəf namizəd olmuş Kəlbəcər Ziyalılar Cəmiyyətinin sədri İmamverdi Cəfərov budəfəki seçkilərdə iştirak edib-etməyəcəyi ilə bağlı qəti qərara gəlib. Qeyd edək ki, İmamverdi Cəfərov bir neçə həftə öncə "Yeni Müsavat"a açıqlamasında bildirmişdi ki, YAP-ın namizədlər siyahısı açıqlanandan sonra seçkidə iştirak edib-etməyəcəyi barədə qəti qərarını elan edəcək.**



İmamverdi Cəfərov

Artıq YAP-ın deputatlığa namizədlər siyahısı açıqlanıb və İmamverdi Cəfərov vədinə sadiq qalaraq "Yeni Müsavat"a seçkidə namizədliyini verib-verməyəcəyi barədə qəti qərarını açıqlayıb. İ.Cəfərov bildirib ki, o, hakim partiyanın siyahısında 123 saylı Kəlbəcər seçki dairəsindən hazırkı millət vəkili Cavid Qurbanovun namizədliyinin olub-olmayacağını gözləyirmiş. YAP-ın Cavid Qurbanovun namizədliyini irəli sürdüyü rəsmiləşdiyi üçün qərara gəlib ki, budəfəki seçkilərdə namizədliyini irəli sürməsin: "Mən nəzərimdə tutmuşdum ki, Cavid Qurbanovun namizədliyi olmayacağı halda seçki mübarizəsinə qoşulum və 2010-cu ildəkindən də güclü seçki mübarizəsi ortaya qoyum. Cavid Qurbanovun namizədliyinin irəli sürüldüyü bəlli olandan sonra seçkilərdə namizədliyimi verməmək qərarını özüm üçün qəbul etdim. Tam səmimi deyirəm ki, YAP 123 saylı dairədə başqa bir şəxsin namizədliyini irəli sürsəydi yüz faiz seçkilərdə namizədliyimi verəcəkdim. Bitərəf namizəd olaraq çox ciddi seçki mübarizəsi aparacaqdım. Cavid Qurbanova görə seçkidə iştirak etmək fikrindən daşınmama səbəb isə mənim 2010-cu ildən indiyə qədər daim kəlbəcərlilər arasında, necə deyərlər, rəy sorğusu keçirməyim və camaatın öz deputatlarından razılıq etməsinə əmin olmağımdır. Kəlbəcər əhalisinin, seçicilərin rəyi mənim üçün əsasdır. Mən bu rəyi düz 5 ildir ki, öyrənirəm və görürəm ki, əhali Cavid Qurbanovun millət vəkili olmasını istəyir. Mən də Kəlbəcər əhalisinin məhz bu istəyini, rəyini nəzərə alıram. İctimai rəyə hörmət etməsən, ictimaiyyət də sənə hörmət etməz. Mən də bir kəlbəcərli kimi camaatımıza real deputatlıq edən şəxsin 123 saylı dairədən mandat daşımasını istəyirəm. Cavid Qurbanova da seçkilərdə uğurlar arzulayıram".

Xatırladaq ki, əslən Kəlbəcər rayonundan olan İmamverdi Cəfərov Kəlbəcərin işğalı zamanı Xanlar şəhər xalq deputatları sovetinin icraiyyə komitəsinin sədri işləyib və həmyerlilərinin o dövrdə Xanlar rayonu və ətraf bölgələrdə yerləşdirilməsində rol oynayıb. 2010-cu il parlament seçkilərində 123 saylı Kəlbəcər seçki dairəsindən müstəqil namizəd olub. Hazırda Kəlbəcər Ziyalılar Cəmiyyətinin sədri olan İmamverdi Cəfərov 2010-cu il parlament seçkilərində 123 saylı dairədə iki favorit namizəddən biri olub və seçki kampaniyası zamanı tənqidi fikirləri ilə fərqlənib.

❑ **Etibar SEYİDAĞA**

# Qarabağ ermənilərı də Bakıya sığınsa...

## Qabil Hüseynli: "Azərbaycandan gedənlərin bura üçün burunlarının ucu göynəyir"

**Ötən həftənin ən səs-küylü hadisəsi Ermənistan "Milli Azadlıq Hərəkatı" təşkilatının rəhbəri Vaan Martirosyanın ailəsi ilə birlikdə Azərbaycana qaçması oldu. Keçən müddət ərzində gündəmin əsas müzakirə mövzusu bu oldu. Baş verən hadisə heç də cəmiyyət tərəfindən birmənalı qarşılanmadı.**



Qabil Hüseynli

Erməni ailəsinin gəlişini təqdir edənlər də oldu, tənqid edənlər də. Erməni ailəsinin ölkəmizə qaçması, onlara burada göstərilən münasibət əzəli torpaqlarımız olan Dağlıq Qarabağda məskunlaşan ermənilərə Azərbaycan təbəəliyini qəbul etdirmək məsələsini gündəmə gətirib. Ekspertlər hesab edirlər ki, bu yolla dünyaya bir daha humanizm siyasətimizi nümayiş etdirə bilərik. Vaan Martirosyanın 50 erməni ailəsinin Azərbaycana gəlmək istəyi ilə bağlı açıqlamaları, bu siyasət həyata keçirilərsə, doğru olacağının indidən işartılarını göstərir.

**Politoloq Qabil Hüseynli bildirdi ki, erməni ailəsinin özü könüllü Azərbaycana gəlib:** "O ailə öz istəyi ilə Azərbaycana gəlib. Sərkisyanın adamları Vaan Martirosyanı döyüblər. Hətta onun həyat yoldaşı uşağını itirib. O, öz ölkəsindən qaçıb, digər ölkəyə sığınmaq istəyirmiş. İlk arzusu Azərbaycana gəlmək olub. Sadəcə, QHT-lər ona yardımçı olublar. Azərbaycan tərəfi onun gəlişinə razılıq verib. Ermənini əməliyyatla Azərbaycana gətirmək elə də asan məsələ deyil. Əgər könlündə yoxdursa... Dağlıq Qarabağdan da erməni gətirmək mümkündür. Əgər həmin erməni Dağlıq Qarabağın sərhədlərini aşsa, on minlərlə erməni Azərbaycana gələr. Onun dedikləri tam həqiqəti əks etdirməsə də, həqiqətin bir hissəsini özündə əks etdirir. Dağlıq Qarabağda və başqa yerlərdə burdan köç etmiş ermənilər var. Vaxtilə Azərbaycanın tərkibində olmuş, Qarabağın erməni əhalisi bu addımı ata bilər. Çünki burada yaşayış səviyyəsi çox yüksəkdir. Bu işdə QHT-lər mühüm rol oynaya bilər. Əlaqə qurub, Dağlıq Qarabağdan ermənilərin gəlişini təmin etmək olar. Sadəcə, orada olan diktator, hərbi rejim əhali üzərində elə bir nəzarət qurub ki, gözləri qırpa da bilmirlər. Onları Rusiyadan da Azərbaycana gətirmək olar. Ermənilərin ölkəmizə gəlib, burada yaşamaq istəkləri güclüdür. Bu planı həyata keçirmək üçün Sərkisyan və Dağlıq Qarabağdakı qondarma rejimin kordonunu dəlmək lazımdır".

**Politoloq erməni ailəsinə ölkəmizdə göstərilən münasibəti tənqid edənlərə sərt təpki verdi:** "Erməni ailəsinə burada göstərilən münasibət doğrudur. Unutmaq olmaz ki, o ailənin burada saxlanılmasına cüzi vəsait xərclənir. Amma əvəzində dünya ictimai rəyinə təsir edəcək imkanları əldə edirik. Dünya ideoloji mübarizə meydanıdır. Bu mübarizədə dəyərlər yarışır. Təbliğat üçün, dünya ölkələrinə təsir baxımından, Ermənistanı müdafiə edənlərə tutarlı cavab üçün bu bir vasitədir. Müxalifət də belə bir faktı təqdir etmirsə, açığı, onları başa düşməkdə çətinlik çəkirəm. Söhbət burada ümummilli məsələlərdən gedir. Hesab edirəm ki, erməni ailəsi ilə bağlı həyata keçirilən kampaniya xüsusi bir əhəmiyyətə malikdir. Ölkə daxilindəki bəzi qüvvələrin bunu təqdir etməməsi, mənə elə gəlir ki, antimilli xarakter daşıyır".

**Q.Hüseynli ermənilərin Azərbaycana gəlişlərinin davam edəcəyini istisna etmir:** "Ermənilərin gəlişlərinin davam edəcəyi mümkündür. Xüsusilə Azərbaycandan gedənlərin bura üçün burunlarının ucu göynəyir. Azərbaycan hökuməti razılıq versə, onlar çox asanlıqla gələrlər. Onların çoxu dünyanın müxtəlif ölkələrində yaşayırlar. Azərbaycan hökuməti bu istiqamətdə düzgün siyasət qursa, gələnlərin sayı həddindən artıq çox ola bilər. Bu faktın özü Dağlıq Qarabağ probleminin həllinə kömək ola bilər".

**Müsavat Partiyasının İcra Aparatının rəhbəri Gülağa Aslanlı erməni ailəsinin ölkəmizə gətirilməsini uğurlu hadisə hesab etmir:** "Bunu uğurlu əməliyyat saymaram. Uğurlu əməliyyat o zaman sayardım ki, Qərb ölkələrindən birinin Azərbaycandakı səfiri belə fikirlər səsləndirir. Bəlkə də uğurlu anlardır. Azərbaycan və Ermənistandakı vəziyyət bütün dünyaya, o cümlədən cəmiyyətimizə bəllidir. Bura gəlib, Ermənistandakı vəziyyətin Azərbaycandakı vəziyyətdən qat-qat aşağı səviyyədə olduğunu söyləmək elə də uğurlu alınmır".

❑ **Cavanşir ABBASLI**

# Kreml heç də həmişə pis nümunə deyil...

**Bir neçə gündür ki, Rusiya televiziyaları Komi Respublikasının rəhbəri Vyaçeslav Qayzerin həbsinə geniş yer ayırır. Hakim Vahid Rusiya Partiyasının nüfuzlu simalarından biri olan, 2010-cu ildən Komiyə rəhbərlik edən qubernator cinayətkar qruplaşma yaratmaqda və dövlət əmlakını mənimsəməkdə ittiham olunur. Onunla bərabər daha 19 yüksək rütbəli vilayət rəhbəri də həbs edilib.**



# Bakıdakı yeni sensasion həbslərdə "Rusiya izi"

## Rusiya cəmiyyəti qubernatorun, Azərbaycan isə iri şirkət rəhbərlərinin həbsi ilə silkələndi; sabiq nazir Səfər Əbiyevə korrupsiya ittihamı niyə yenidən dövriyyəyə girib?; hədəfdə bir neçə icra başçısı da var; iqtidar texnoloqları prezident İlham Əliyevin "cinayət törətmisənsə, get cəzasını çək" tezisini niyə Putin kimi real reytinqə çevirmir...

Qayzerin kabinetində axtarış zamanı külli miqdarda pul, bahalı saat kolleksiyası, bir neçə offşor şirkətlərinə aid sənədlər, eləcə də "Bombardier" və "Hawker" təyyarələrinin alınması ilə bağlı layihələr götürülüb. Təkcə seyfdəki saatlardan birinin qiyməti 1 milyon dollar təşkil edir. Rəsmi məlumatda deyilir ki, qubernatorun həbsi Rusiya prezidenti ilə razılaşdırılıb.

Bu ilin aprelində Rusiyada daha bir qubernator -Saxalin vilayətinin rəhbəri Aleksandr Xoroşavin də eyni ittihamlarla həbs edilmişdi. Yüksək çinli məmurların həbs dalğası isə ötən ilin avqustunda Azərbaycanın yaxın qonşuluğunda - Mahaçqalada başlamışdı. Uzun illər Mahaçqalaya rəhbərlik edən Səid Əmirovu Moskvadan gətirilmiş xüsusi əməliyyat qrupu həbs etmişdi. S.Əmirov təkcə dövlət əmlakını mənimsəməkdə deyil, həm də serial qətllərin sifarişində günahlandırılırdı. Bir il davam edən məhkəmə prosesi bu ilin avqustunda yekunlaşdı və birinci qrup əlil *(o uzun illərdir əlil arabasında gəzir)* S.Əmirov ömürlük həbsə məhkum edildi.

Vladimir Putinin idarəçiliyi dövründə Rusiyada yüksək rütbəli məmurların həbsinə tez-tez rast gəlinir, sadaladığımız faktlardan da görünür ki, bu sırada qubernatorlar da var. Sirr deyil ki, bu cür qalmaqallı antikorrupsiya həbsləri dövlət rəhbərinin reytinqinə ciddi təsir edir. Putin müxalifəti loyallaşdırıb, "radikalları" ya həbsə salıb, ya ölkədən qovdurub. Son illər Putinin reytinqi daima artan xətt üzrə gedib. Levada sosioloji təhlil mərkəzinin apardığı son sorğunun nəticələrinə əsasən, Putinin reytinqi iyun ayında 90 faizə yaxınlaşıb.

Aprel və may aylarında Putinin prezident kimi fəaliyyətini rusiyalıların 86 faizi, yanvarda isə 85 faizi dəstəkləyirdi.

2014-cü ilin iyun ayında onun reytinqi 86 faiz, 2013-cü ilin iyununda 63 faiz, 2012-ci ilin iyununda isə 64 faiz təşkil edirdi. Aydındır ki, Krımın işğalı ilə yanaşı, bu cür antikorrupsiya həbsləri də Putinin reytinqini qaldırır. Dünənədək Kremldə prezidentlə üz-üzə oturan qubernatorların rüşvətxorluq və dövlət əmlakını mənimsəmək ittihamı ilə qandallanması sanksiyalar səbəbindən ağır iqtisadi durumda olan Rusiya vətəndaşları tərəfindən rəğbətlə qarşılanır. Bu həbslərin xüsusilə daha ağır iqtisadi şərtlər altında yaşayan regionlarda baş verməsi artan sosial gərginliyin qarşını almağa da hesablana bilər. Bu həbslər "sizin yaşayışınız ona görə pisdir ki, bu adamlar dövlət əmlaklını talayır", təəssürünü yaradır, əsas diqqəti Putinin sərt beynəlxalq siyasətindən yayındırır. Amma o da danılmaz faktdır ki, Rusiyada antikorrupsiya həbsləri Kremlin daxili siyasətində getdikcə daha çox özünə yer edir.

****

Azərbaycan hakimiyyətinin də daxili siyasətdə daha çox "Rusiya modelinə" yer verməsi sirr deyil. Bu, həm müxalifətlə bağlı sərt siyasətdə, həm də bəzi idarəetmə metodlarında özünü göstərir. Mümkündür ki, Kremlin daxili siyasətlə bağlı tətbiq etdiyi metodlar Azərbaycan üçün də cəlbedici və keçərli görünə bilər. Ən azı o səbəbdən ki, Azərbaycan 70 il Kremlin tabeçiliyində olub və bizi əhatə edən dövlətlər sırasında (Türkiyə istisna olmaqla) yenə də ən yaxın münasibət Rusiya ilədir. Təsadüfi deyil ki, Rusiyada baş verən siyasi proseslər, o cümlədən bu kimi həbslər Azərbaycanda da reaksiya doğurur.

**Azərbaycanda korrupsiya ilə sərt mübarizə tədbirləri 2013-cü il fevralından start götürüb. Prezident "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasına həsr olunmuş konfransdakı çıxışında məmurlara sərt xəbərdarlıq etmişdi:** "Özləri üçün təmtəraqlı toylar, yubileylər düzəldirlər. Vəzifəli şəxslərin uşaqları qudurğanlıq edirlər. İnsanları təhqir edirlər. Özlərini apara bilmirlər. Kim onlara bu statusu verib cəmiyyətdə? Onların güvəndikləri adamları mən təyin etmişəm vəzifəyə. Mən də çıxardacam, lazım bildikdə. Əgər bir də bilsəm ki, kiminsə ailə üzvü hardasa xuliqanlıq edib, nadanlıq edir, özünü apara bilmir, o adam həbs ediləcək, atası işdən qovulacaq".

**Prezidentin daha bir müşavirədə çıxışına diqqət edək:** "İstəyirəm ki, məni bütün məmurlar bir daha eşitsinlər. Azərbaycan dövləti korrupsiyaya, rüşvətxorluğa qarşı bundan sonra da çox ciddi və güzəştsiz, amansız mübarizə aparacaq. Ədalət prinsipləri hər yerdə bərqərar olmalıdır".

**Bu il keçirilən müşavirədə də prezident çıxışlarında məmurlara xəbərdarlıqlarını davam etdirib. Mayın 20-da keçirdiyi müşavirədən sitat:** "Vəzifəli şəxslərin ailə üzvləri cinayət törədirlər. Ondan sonra məsuliyyətdən yayınmaq istəyirlər. Əfsuslar olsun, belələrinə himayədarlıq edən dövlət məmurları da var ki, onları məsuliyyətdən yayındırmaq üçün min cür əməllərdən çıxırlar. Mən demişəm, bir adam da məsuliyyətdən qaça bilməz, xüsusilə dövlət məmuru. Cinayət törətmisənsə, get cəzasını çək, vəssalam."

***

Qeyd edək ki, son iki il ərzində Azərbaycanda bir sıra həbslər həyata keçirilib ki, bunların böyük əksəriyyəti rüşvətxorluq və dövlət əmlakını mənimsəməklə bağlıdır. Doğrudur, bu həbslərin əhatə dairəsi geniş deyil və icra başçısı və ya nazirlər səviyyəsində deyil. Amma məlumatlara görə, yaxın günlərdə cəmiyyət antikorrupsiya tədbirləri çərçivəsində bir sıra sensasion həbslərə şahidlik edə bilər. Onların sırasında icra başçılarının olacağı da iddia edilir.

Son günlər sabiq nazir Səfər Əbiyevin adı yenidən gündəmə gəlib. Belə ki, mənimsəmə və vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə təqsirləndirilən Səfər Əbiyevin müavini olmuş polkovnik Mehman Səlimov cinayət işi üzrə məhkəmədə sensasion sayıla biləcək ifadə verib. O deyib ki, verilən ittihamlarla razı deyil: "Bütün işləri Səfər Əbiyevin göstərişi ilə etmişəm" deyə, o bildirib.

Əbiyevin həbs ediləcəyi ilə bağlı iddialar onun vəzifədən çıxarılmasından dərhal sonra *(2013-cü ilin oktyabrı)* gündəmə gəlmişdi. Əbiyevin ən yaxın adamlarının həbsi sabiq nazirin də başı üzərində təhlükəyə çevrilmişdi. Amma məhkəmələrdə Əbiyevə bu cür ittiham irəli sürülməmişdi və ilk dəfədir ki, bu cür açıq şəkildə səslənir. Məhz bu səbəbdən Əbiyevin korrupsiya ittihamı ilə həbs ediləcəyi iddiaları yenidən dövriyyəyə girib. Yeri gəlmişkən, Rusiyanın sabiq müdafiə naziri Anatoli Serdyukov yaxın adamının bir neçə ay davam edən məhkəməsindən "sağ çıxa" bilmişdi. Amma Rusiya İstintaq Komitəsi və KİV-lər onu da hələ "dinc buraxmır"...

***

Sentyabrın 21-də Beynəlxalq Bankın sabiq məsul vəzifəli əməkdaşları və iş adamlarının həbsi xəbəri yayılıb. Bu barədə APA-ya hüquq-mühafizə orqanlarından məlumat verilib.

Məlumatda deyilir ki, Beynəlxalq Bankdan yüksək məbləğdə kredit götürərək vəsaitləri qaytarmayan bankın sabiq məsul vəzifəli əməkdaşları və iş adamları - Beynəlxalq Bankın mərkəzi filialının direktoru olmuş İlqar Abdullayev, Beynəlxalq Bankın Nəqliyyat filialının direktoru vəzifəsində işləmiş Kənan Orucov, Beynəlxalq Bankın inzibati binalarının mühafizəsini həyata keçirən "İnter Security" MMC-nin baş direktoru İbrahim Hüseynov, "Azərinşaatservis" MMC-nin Müşahidə Şurasının sədri Arif Həsənov, "Azərinşaatservis" MMC-nin təsisçisi olduğu "Trek İnvest" SC-nin direktor əvəzi Əli Əlişov və "İnter Glass" ASC-nin direktoru Fariz Muradov həbs olunublar.

Məlumata görə, Beynəlxalq Bankın vəsaitlərini mənimsəməkdə şübhəli bilinən şəxslərə qarşı da müvafiq tədbirlər görülməsi bundan sonra da davam etdiriləcək.

Beynəlxalq Bank işi ilə bağlı həbslər bu ilin may ayında başlayıb və davam edəcəyi gözlənilən idi. İş üzrə indiyədək həbs edilənlər sırasında baş nazirin keçmiş 1-ci müavini Abbas Abbasovun qardaşı Nadir Abbasov, "Qara polkovnik" kimi tanınan mərhum Fətulla Hüseynovun oğlu Adil Hüseynov, bankın İdarə Heyətinin sabiq rəhbəri Cahangir Hacıyevin bacanağı, "İntertabakko" Zaqatala Tütün Emalı Zavodunun direktoru İsmayıl Hidayətzadə kimi tanınmışlar da var. Gözlənilir ki, bu iş çərçivəsində kredit götürən bəzi iş adamlarını himayə edən məmurlara da artıq növbə çatıb və son həbslər də bunun sübutu sayıla bilər. Çünki iddialara görə, tutulan şirkət rəhbərli sıradan iş adamları deyil və hakimiyyətdə ciddi dayaqları var.

***

Azərbaycanda obyektiv sosioloji sorğular keçirilməsə belə, ictimaiyyət harınların həbsinə, məmurların prezident səviyyəsində xəbərdarlıqlarına və cəzalandırılmasına həmişə müsbət yanaşıb. Daxili auditoriya məmurların bu cür açıq şəkildə tənqidini böyük maraqla izləyir, ictimai yerlərdə müzakirəyə çıxarır və açıq dəstəkləyir də. Amma iqtidarın piar-texnoloqları bu kimi tənqidləri "qara rəngə" boyadıqları televiziyada ictimai müzakirələrdə lazımınca istifadə edə bilmirlər, ya da bayağı təbliğata çevirirlər. Rusiya televiziyaları isə Komi qubernatorunun prezidentlə Kremldəki görüşünün fonunda bu xəbəri yayır və hakimiyyətin hədəflədiyi effekti ala bilir. Rusiya heç də həmişə pis nümunə deyil...

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 210 (6238) 22 sentyabr 2015



# Bitmiş seçkiyə sözardı

Xalid KAZIMLI

**Dünən axşam 1 noyabr parlament seçkilərində namizədliyini verməyi düşünən bir yaxın adamdan soruşdum: "Nə oldu, seçkilərə qatılırsızmı, DSK-ya müraciət etdinizmi?"**

Həmsöhbətimin ilk cavabı konkret və birmənalı oldu: "Seçki bitdi".

Daha sonra anlaşıldı ki, o, seçki kampaniyasına start veriləndən bu günə qədər müşahidə aparıb, durumu dəyərləndirib, əldə olan informasiyaları analiz edib və bu qərara gəlib ki, əvvəlki seçki illəri ilə müqayisədə hazırda heç bir irəliləyiş yoxdur, namizəd olmaq, bir ətək vəsait xərcləmək mənasızdır.

Bir o deyil, artıq seçkiyə qatılmış, DSK-dan imza vərəqləri götürərək lazımi sayda imza toplamış bir çox başqa tanış adamlar da əminliklə deyirlər ki, hər şey ötən seçkilərdəki kimidir, yaxşılığa doğru heç bir dəyişiklik yoxdur, əksinə, hər şey daha da pisləşib.

Onların çoxu yerli məmurların YAP üzvü olmayan, "doğma" hesab edilməyən namizədlərə münasibətindən çıxış edirlər. Ali mənsəbli məmurlardan fərqli olaraq, orta və kiçik ranqlı məmurlar yuxarıdan verilən tapşırığa hərfbəhərf riayət edərkən, bunu canfəşanlıqla etməyə çalışarkən özlərini ələ verirlər, heç bir riyakarlıqla əsl mövqelərini gizlədə bilmirlər.

Nəticədə ortada çox acı mənzərə var. Onsuz da bu il seçkiyə qatılmaq istəməyənlər, tərəddüd edənlər, boykot yolu tutanlar vardı, indi onlara 2015 seçkilərinə öləzik də olsa ümid bəsləyənlər qoşulmaqdadır.

Belə görünür ki, seçkinin taleyi bəri başdan məlumdur. Hətta seçiləcək şəxslər mandatlarını indidən ciblərində hesab edir, bu barədə yaxın ətraflarına danışır, opponentlərə acıq getsin deyə üstüörtülü işarələr edirlər.

Seçki intriqası sıfırın üstündədir. Seçiləcək şəxslər bəllidirsə, daha hansı seçici fəallığından söhbət gedə bilər? İnsanlar səsvermə məntəqəsinə nəyə gəlsinlər? Bir halda ki, onların səsi, iradəsi heç nəyi həll etməyəcək, 1 noyabrda seçki məntəqələrinə axışmalarının elə bir mənası yoxdur.

Seçki kampaniyasına start verilməsindən keçən bu 22 gündə seçkiyə qatılıb-qatılmamaq dilemması qarşısında qalanlar artıq öz mövqelərini aydınlaşdırır, məyus halda bir kənara çəkilirlər.

Bu cür hallar təkcə parlamentin gələcək heyətinin legitimliyini şübhə altına almır, eləcə də insanların ölkənin gələcəyi ilə bağlı pessimist ovqata kökləyir.

Adam oturub düşünür ki, 25 ildir siyasi arenanın təlatümləri arasında ömür sürürük, 15-ə yaxın seçki görmüşük, amma bir dəfə də olsun əsl seçki görməmişik. Gürcüstan azad seçki keçirir, baxırıq, Türkiyə dürüst seçki təşkil edir, tamaşa edirik, Ukraynada vaxtaşırı qanuni seçkilər olur, izləyirik, müşahidə edirik, amma hələ də qanuni, azad, şəffaf seçkilərin necə olduğunu bilmirik.

Təsəllimiz odur ki, qonşu Rusiya və Ermənistan da bizim günümüzdədir. İndiyə qədər daha bir təsəllimiz o idi ki, hər halda, ölkədə müxalif qüvvələr var, fəaliyyət göstərirlər, uğur qazanmasalar da seçkilərdə iştirak edirlər, xalqın arasına çıxırlar, beləliklə, ölkə Özbəkistan və Türkmənistana dönməkdən qurtulur.

Artıq o təsəlli də əlimizdən çıxmaq üzrədir. Çünki ölkə məhz Özbəkistana dönmək ərəfəsindədir. Əgər ölkənin aparıcı siyasi qüvvələri seçkiyə qatılmırlarsa, qatılanlar da olduqca pessimist ovqatdadırsa və mandat qazana bilməyəcəklərini öncədən yüzdəyüz dəqiqliklə bilirlərsə, deməli, ölkədə Özbəkistan havası var.

Zatən, Özbəkistanda da yarıleqal müxalifət təşkilatları, gizli dərnəklər şəklində narazı qruplar var, amma onlar da ya seçkiyə qatılmırlar, ya da seçkidə fağır-fağır, əzik-əzik iştirak edir, seçkilərin onlar üçün acı nəticələri elan olunduqda isə müticəsinə razılaşırlar.

Ola bilər, noyabrın 2-də, 3-də ölkəmizdə seçkiyə qatılanlar daha sərt bəyanatlar verəcəklər, ancaq bu açıqlamaları nəzərə alan olmayacaq.

Builki seçki kampaniyasının ən pis yeniliyi odur ki, bu dəfə müstəqil, bitərəf namizədlərin də ümidi vurulur. İndiyədək radikal müxalifətlə müqayisədə loyal müxalifətə üz görülürdüsə, psevdomüxalifət hər ikisindən üstün tutulurdusa, özünü müstəqil namizəd elan edərək hakimiyyətin təbliğatını aparanlar daha əziz sayılırdısa, bu dəfə bitərəf, partiyasız namizədlər də ögey münasibət görürlər. Onları hətta yaşayış binalarına buraxmırlar.

Bu gün yaşayış məntəqələrinin binalarına buraxılmayan namizədlər, sizcə, parlamentin binasına buraxılacaqlarmı?

---

**Milli Məclisin deputatı Hacı Qalib Salahzadənin Həcc ziyarətini parlament seçkilərinə görə yarımçıq qoyub Azərbaycana qayıtdığı barədə xəbər xeyli maraq doğurdu. Əvvəlcə təmsil olunduğu partiyanın əsgəri olduğunu deyən və seçkilərlə bağlı qərarını açıqlamayan Hacı Qalibin adı sonradan hakim partiyanın namizədlər siyahısında olmadı.**

# "Mən türmələr, güllələr görmüşəm"

## Hacı Qalib Salahzadə: "Onsuz da Azərbaycanın tarixinə düşmüşəm"

*Odur ki, bəzi mənbələr onun 27-ci dəfə getdiyi müqəddəs Həcc ziyarətini yarımçıq qoymasını seçkilərdə iştirak niyyəti ilə izah etdilər. "Yeni Müsavat"a müsahibəsində isə kifayət qədər maraqlı açıqlamalar verdi. Yeri gəlmişkən, YAP 27 saylı Sabunçu ikinci seçki dairəsindən bu dəfə Q.Salahzadəni deyil, Cəbrayılova Dilarə Məmmədağa qızını dəstəkləyib və adını siyahıya daxil edib.*

***- Hacı, ziyarətinizi yarımçıq saxlayıb Bakıya dönməyinizin əsas səbəbi nə oldu?***

- Əvvəla, ziyarətimi yarımçıq saxlamamışam. Mən Həcc ziyarətinə başlamamışdım, Mədinədəydim. Orda özümçün naib tutdum. Yəni şəriətdə belə şey var. İstəsəydim o adamı burdan aparardım. Amma hadisələr ki, belə cərəyan etdi, gördüm ki, orda imkan var və mənim yerimə əməlləri edir. Mən ömrümdə Həcc ziyarətimi yarımçıq qoymaram. Şəriətdə var ki, əgər zəruri iş olsa, naib tutmaq olar. Gördüm Bakıda aləm bir-birinə qarışıb, mənim ünvanıma cürbəcür sözlər deyilir, qayıtdım gəldim. Bir də düşündüm ki, mənim dostlarıma pis təsir edə bilər, xəstə adamlardır, səhhətlərinə mənfi təsir göstərər, ona görə gəldim. Yoxsa burda heç bir problem yoxdur, ola da bilər, olmaya da, nə olsun ki, bu, Allahın işidir.

***- Naib tutduğunuz adam ərəbdir, yoxsa azərbaycanlı?***

- Yox, azərbaycanlıdır, özü də tanınmış din xadimidir. Gəlin ad çəkməyək, ancaq tanınmış adamdır, siz də tanıyırsınız. Hacı olmayan adam mənim yerimə naib ola bilməz. Biz də adamlardan sorğu-sual etdik ki, sən öz yerinə gəlmisən, yoxsa başqasının əvəzinə? Yəni Həccə getmiş istənilən adam başqasının yerinə ziyarətə gedə bilər. O adam da ehramı mənim adımdan bağladı.

***- Naiblə ikilikdə razılaşdınız, yoxsa dini qaydalar əsasında şahidlər də oldu?***

- Yox, biz bu söhbəti 5 nəfərin iştirakı ilə etdik. Yəni 5 adam şahiddir. Əminəm ki, həmin adam mənim özümdən də artıq şəkildə o əməlləri yerinə yetirəcək.

***- Bakıda çoxmu ciddi proseslər oldu ki, siz Allahın vacib buyurduğu Həcc ziyarətini başqasına həvalə edib geri dönməyə qərar verdiniz?***

- Mən gördüm ki, burda müxtəlif şayiələr yayılır, cürbəcür söhbətlər gedir. Bunun qarşısını almaqdan ötrü qayıtdım. Yaşlı adamlar var, hərəsi bir cür fikirləşir ki, görəsən, niyə belə oldu. Onların səhhətinə pis təsir etməsin deyə, şəxsən özüm qayıtdım ki, heç bir problem yoxdur.

***- Ordan Bakıya telefon açmaq, yaxud mətbuatda bəyanatla çıxış eləmək mümkün deyildi?***

- Yox, bir var ki, özün burda olasan, bir də var bəyanat verəsən.

***- Ancaq belə bir fikir var ki, siz YAP-ın namizədlər siyahısında adınızın olacağına arxayın olduğunuz üçün Həccə yollanıbsınız, sonrakı gedişatda isə başqa mənzərə ilə üzləşdiyiniz üçün ziyarəti yarımçıq qoyub geri dönmüsünüz. Deyilənlərdə həqiqət yükü nə qədərdir?***

- Mən nə siyahıya arxayındım, nə də başqa fikrim var idi. Mən Allahın dərgahına getmişdim. Bu dünyada mənim yeganə arzum budur ki, Allah qismət eləsin, ikinci dəfə Kəbə evinin içərisində olum. Artıq bir dəfə Kəbə evinin içində olmuşam. Kəbə evində Peyğəmbər övladlarının, Həzrəti Əlinin, Həzrəti Fatimənin izləri var. Böyük Allah o evi ziyarət etməyi mənə də qismət edib. İkinci ziyarəti də arzulayıram. Deputatlıqdır, vəzifədir, bunlar hamısı gəldi-gedərdir, boş şeylərdir.

***- Bəlkə Bakıya tələsik dönməsəydiniz, arzunuza çata bilərdiniz...***

- Yox, elə deyil. Kəbə evinin içərisində olmaq pulla, ya adamla deyil, gərək Allah istəsin. Mən sizə bir şeyi danışım. 1990-cı ildə Vəzirovun bir dostu vardı, Cəmil Əlibəyov...

***- Yazıçı?***

- Bəli. Xalq Cəbhəsi iş başına gələndə Cəmil Əlibəyov həyat yoldaşı Təkbir xanımı da gətirdi, bizim evdə gizləndi. Mən ona dedim ki, Cəmil müəllim, siz Heydər Əliyevə qarşı düz eləmirsiniz, o kişi hakimiyyətə gələcək. Onda rəhmətlik qayıtdı ki, sən çox cavan olsan da, düz deyirsən. Mən onda da Heydər Əliyevin hakimiyyətə gələcəyini bildirdim.

***- Hakim partiyanın sizi siyahıdan kənarda qoymasını parlamentdə və mətbuatdakı bəzi çıxışlarınızla izah edənlər tapıldı. Bunun təsiri oldumu?***

- Yox, bunlar boş söhbətlərdir. Mən partiyanı sevən adamam.

***- Elə isə özünüzə sual verdinizmi ki, niyə YAP-ın siyahısından kənarda qalan 13 nəfərdən biri oldunuz? Hər halda, yaşınız çox deyildi, əlavə vəzifəniz yox idi...***

- Mən bir şey bilirəm, yəqin ki, Allah belə istəyib.

***- Müstəqil qaydada namizədliyinizi vermək istərdinizmi?***

- Yox, mən partiyanın nə tapşırığı olsa, onu yerinə yetirən adamam. Heç vaxt partiyanın mövqeyindən çıxan adam deyiləm.

***- Bundan sonra nə işlə məşğul olacaqsınız?***

- Bundan sonra Allah nə desə, o olacaq. Hamısı Allahın əlindədir. Sizə bir şeyi də deyim. Ayaz Mütəllibovun vaxtında məni öldürmək istəyiblər, 6 güllə dəyib. 1992-ci il sentyabrın 15-də Xalq Cəbhəsi məni 7 ay yarım türmədə istintaqsız saxlayıb. Onda da ölməmişəm, çıxmışam. Mənim boynuma 8 ölüm işini qoymuşdular ki, guya onları mən öldürmüşəm. Bir dəfə rəhmətlik Heydər Əliyev çağırıb soruşmuşdu ki, bu Hacı Qalib nə edib? Ona izahat veriblər, deyiblər Hacı Qalib bir milisə sillə çəkib. Rəhmətlik də qayıdıb ki, Nardaranda gündə 30 milisi döyürlər, heç kəsi tutmursunuz, necə olur Hacı Qalibi tutursunuz. 3 ay yarım saxladılar boynuma qoysunlar ki, 8 nəfər öldürmüşəm. Heydər Əliyev xəbər tutan kimi məni buraxdırdı. Məni iki dəfə türmədən Heydər Əliyev buraxıb, 1993-cü və 2000-ci illərdə. İndi o qədər mənim paxıllığımı çəkən var ki. Ancaq nə edə bilərəm? Ömrüm boyu Bilgəhdə sakit yaşamışam, heç kəsə sataşmamışam. Mən türmələr, güllələr görmüşəm, həyatım boyu Heydər Əliyevə, sonra da İlham Əliyevə borcluyam. Təkcə mən yox, bütün nəslim...



**"Şeyxin nəyinə lazımdır mən deputat seçilim, ya seçilməyim"**

***- 28-ci Həcc ziyarətini reallaşdırmaq istəyirsiniz?***

- Ömrümün axırınadək Həccə getmək niyyətim var. Allah izn versin, bu dünyada nə qədər yaşayıramsa, ömrümün axırına qədər Həccə getmək istəyirəm. Bu məsələdə konkret rəqəm yoxdur. Onsuz da mən Azərbaycanın tarixinə düşmüşəm. Bundan sonra nə 27 dəfə Həccə gedən deputat olacaq, nə də elə bir deputat olacaq ki, Kəbə evinin içərisində olsun. Bizim möhtərəm prezidentimiz İlham Əliyev yeganə müsəlman dövlətinin başçısıdır ki, 3 dəfə Kəbə evinin içərisində olub. Türkiyə, Əfqanıstan, Pakistan, Tacikistan, İran və digər dövlətlərin rəhbərləri 3 dəfə Kəbə evinin içərisində olmayıb. Bu, bizim fəxrimizdir. Allah eləsin bundan sonra 10 dəfə, 20 dəfə də olsun.

***- Bəs müsəlman dünyasında sizin qədər Həcc ziyarətində olan deputat tanıyırsınızmı?***

- Yox. Mən belə deputat tanımıram. Ancaq bir bunu bilirəm ki, Azərbaycan parlamentində bundan sonra 27 dəfə Həccdə, bir dəfə də Kəbə evinin içərisində olacaq deputat olmayacaq, necə ki, məndən başqası olmayıb.

***- Bu mənada siz Ginnesin Rekordlar Kitabına düşmüş sayılırsınız...***

- (Gülür) Vallah, bilmirəm adım Ginnesin Rekordlar Kitabında var, ya yoxdur. Amma hazırda fakt budur. Mən 1990-cı ildən Həcc ziyarətinə gedirəm. Əslində mən 27 desəm də, 27 ziyarətdən çoxdur, il olub iki dəfə ümrə eləmişəm. 3-4 dəfə də Ümrə ziyarətində olmuşam. Ancaq məndən yüksək səviyyədə ziyarəti cənab prezidentimiz İlham Əliyev edib.

***- Hacı, YAP-ın siyahısında sizin deputatı olduğunuz dairədən namizəd göstərilən xanımı tanıyırsınızmı?***

- Vallah, deyirlər Nardaranda məktəb direktorudur. Qadın xeylağıdır, şəxsən tanımıram, heç bir əlaqəm də yoxdur.

***- Seçki ilə bağlı Şeyxlə söhbət edibsiniz? O nə məsləhət gördü?***

- Şeyx Amerikadadır e. Şeyxin nəyinə lazımdır mən deputat seçilim, ya seçilməyim. (gülür)

**"Gördüm Bakıda aləm bir-birinə qarışıb, mənim ünvanıma cürbəcür sözlər deyilir, qayıtdım gəldim"**

❑ Elşad PAŞASOY

# Bakıda həbs olunan “nurçular” fətullahçılar olmayıb... - hadisə şahidi danışdı

## DİN 85 təriqət üzvünü həbs etdiyini açıqladı, saxlanılanlar arasında cərəyan lideri Mustafa Sunqurun oğlu və daha bir neçə Türkiyə vətəndaşı olub: “79 nəfər idik...”

**Ötən həftənin şənbə günü DİN və MTN əməkdaşlarının Bakıda əməliyyat keçirərək 30-dan artıq insanı həbs etməsi ilə bağlı məlumat verilmişdi. Məlumatda qeyd olunurdu ki, şənbə günü saat 22.00 radələrində Bakının Yasamal rayonunda “İnşaatçılar” metrosu olan ərazidə, Şərifzadə-Talıblı, Xıdır Mustafayev küçələrinin kəsişməsində, “Capsella” mağazasının yaxınlığında 2 mərtəbəli yaşayış evində Yasamal rayon polis əməkdaşlarının apardığı əməliyyat nəticəsində 30 nəfərdən çox insan tutularaq polis maşınları ilə naməlum istiqamətlərə aparılıb.**

Türkiyənin Haber7 saytında isə saxlanılanlar arasında nurçu cərəyanının lideri Səid Nursinin tələbəsi, “Sunqurlar” camaatının lideri Mustafa Sunqurun oğlu Nurullah Sunqurun da olduğu verilib. Eyni zamanda sayt əməliyyatda Fətullah Gülən camaatı ilə əlaqə olmadığı, hətta bu məsələ ilə bağlı Ankaradan Bakıya “yanlışlığın aradan qaldırılması” tələbinin irəli sürüldüyü qeyd olunur.

Ötən gün isə Daxili İşlər Nazirliyi (DİN) Bakıda “nurçu”lara qarşı keçirilən əməliyyatla bağlı rəsmi məlumat yayıb. Rəsmi məlumatda qeyd olunur ki, sentyabrın 19-da Yasamal Rayon Polis İdarəsinin (RPİ) 29-cu polis bölməsi (PB) və MTN-in Yasamal rayon şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Mübariz Əsədovun X.Mustafayev küçəsindəki evində “Nurçu” dini təriqətini təbliğ etdikləri üçün 85 nəfər saxlanılıb.

Evə baxış zamanı 3000 ədəd yayılması və təbliği qanunla qadağan edilmiş dini ədəbiyyat aşkar edilərək götürülüb. Onlardan 2 nəfər barəsində İnzibati Xətalar Məcəlləsinin 300-cü, 5 nəfər barəsində isə 299.0.2-ci maddələri ilə protokol tərtib edilərək buraxılıblar.

Xatırladaq ki, ilk dəfə ötən il aprelin 12-də DİN əməkdaşlarının Yasamal Rayon Xıdır Mustafayev küçəsində yaşayan Eldəniz Hacıyevin evində əməliyyat keçirməsi haqda məlumat yayılmışdı. Həmin hadisə ilə bağlı yayılmış DİN rəsmi məlumatında bildirilirdi ki, qeyd olunan ünvanda “nurçuluq” dini təriqətinin “sunqurçular” cərəyanı adı altında 41 nəfərin *(onlardan 2-si azyaşlıdır)* iştirakı ilə yığıncaq keçirilməsi müəyyən edilib. E.Hacıyevin evinə baxış zamanı təbliği və yayılması qanunla qadağan olunmuş dini ədəbiyyat, kompüter avadanlıqları, mobil telefonlar, 2200 ABŞ dolları, 286 manat və orada olan şəxslərə məxsus ümumvətəndaş pasportları aşkar edilərək götürülüb.

“Anspress” isə həmin vaxt polisin xüsusi əməliyyat keçirdiyi X.Mustafayev 216 saylı evdə 17 nəfərin qeydiyyatda olduğu, 2 mərtəbəli binanın yaşayış evindən çox dini ocaq kimi fəaliyyət göstərdiyini yazmışdı. Şahidlər ANS-ə iki mərtəbəli binanın mədrəsə kimi fəaliyyət göstərdiyini deyiblər.

**Ötən gün redaksiyamıza müraciət edən Zəka Mirağayev isə məlum hadisənin şahidi olduğunu bildirdi. Z.Mirağayev deyir ki, saxlanıldıqları həmin evə bir qayda olaraq dua və kitab oxumaq üçün yığışırlar. Hadisə baş verən gün, yəni ötən şənbə Türkiyədən də bir neçə nəfər, o cümlədən Mustafa Sunqurun oğlu da qonaq gəlibmiş. Axşam saat 10 radələrində evdə olduqları zaman polis və MTN əməkdaşları gəlir:** “Biz içəridə olanda polis və MTN əməkdaşları gəldi. Bizim üzvlərdən biri qapını gec açdığı üçün ona zor tətbiq edərək, qapını açıb içəri daxil oldular. İçəridə olanların hamısı saxlandı və kitablar da müsadirə olundu. Bundan sonra bizi 2 avtobusa doldurub Yasamal Rayon Polis İdarəsinə apardılar”.

Z.Mirağayev deyir ki, saxlanılan zaman 79 nəfər olublar. Onları polisdə saxlayıb şəxsiyyət dəqiqləşdirməsi aparıb, ifadələri alındıqdan sonra azad ediblər. Yalnız bir neçə nəfərə bir gün sonra cərimə kəsilib. Z.Mirağayev deyir ki, onlardan əsasən nə zaman ibadət etdikləri, camaata nə zaman qoşulduqlarını soruşublar.

Həmsöhbətimiz deyir ki, onların arasında F.Gülən camaatı ilə hər hansı münaqişə və ya yaxın əlaqə yoxdur. Onlar əsasən bəlli yerlərdə toplaşıb “Nur risalələri” oxuyur, dua və ibadətlə məşğul olurlar. Siyasətə qarışmaq isə haramdır. Kitabların ekspertizasına gəlincə, Z.Mirağayev deyir ki, ötən il və daha əvvəl "Gənclik" metro stansiyası yaxınlığındakı evlərinə polis gəlib və kitabları müsadirə olunub. Ancaq hər dəfəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi onların oxuduqları ədəbiyyatlarla bağlı mənfi rəy verməyib. Eyni zamanda ötən il Yasamalda polis əməliyyatından sonra müsadirə olunan kitablarına da Ədliyyə Nazirliyi müsbət rəy verib. Z.Mirağayev onu da bildirdi ki, hazırda ötənilki həbslərlə bağlı Eldəniz Hacıyev və İsmayıl adlı şəxsin hələ də məhkəməsi davam edir. Artıq bu adamların şikayəti ilə bağlı iş Avropa Məhkəməsinə göndərilib. Z.Mirağayev vəkilləri İntiqam Əliyevin həbs olunmasından sonra Avropa Məhkəməsindəki işin də zəiflədiyini deyir.

Qeyd edək ki, Azərbaycan mediasında son illərdə tez-tez çəkilən “nurçuluq” kəlməsi Türkiyədə ötən əsrin 60-cı illərində yaranıb və ruhani lider Səid Nursinin adı ilə bağlıdır. Hələ sağlığında S.Nursinin tələbələri onun 130 məktubu (“Nur risalələri”) üzərində cərəyan qurublar. Ancaq S.Nursinin ölümündən sonra cərəyan daxilində bölünmə yaranıb və tələbələri müxtəlif adlarla ayrıca camaatlar yaradıblar. Ancaq bütün bu camaatlar fərqli adlarla tanınsa da, hər birinin üzərində “nurçu” adı qalıb. Yasamalda həbs olunan “sunqurçular” Səid Nursinin yaxın adamlarından və şagirdlərindən biri olan Mustafa Sunqur camaatıdır.

1929-cu ildə Türkiyənin Eflani bölgəsində dünyaya gələn Mustafa Sunqur Kastamonu Gölköy İnstitutunda müəllimlik ixtisasına yiyələnib və bir müddət dərs deyib. Daha sonra Səid Nursi ilə tanış olan M.Sunqur onun ən yaxın köməkçisi və silahdaşı olub. Səid Nursinin öldüyü günə qədər (S.Nursi 1960-cı ildə dünyadan köçüb - K.R.) Mustafa Sunqur onun ən yaxın köməkçisi olub və hərəkata xidmət edib. Səid Nursinin ölümündən sonra “nur tələbələri” arasında baş verən bölünmədən sonra Mustafa Sunqurun rəhbərlik etdiyi “Sözlər” qrupu yaranıb. Ayrıca bir camaat kimi formalaşan “Sözlər” qrupu eyni zamanda “Mustafa Sunqur camaatı” və ya sadəcə “sunqurçular” kimi də tanınır. Mustafa Sunqur bir neçə dəfə Azərbaycana da gəlib. Paytaxt Bakıda olub və şimal bölgələrinə səfər edib. Mustafa Sunqurun Bakıda, eləcə də Azərbaycanın bəzi şimal bölgələrində tərəfdarlarının olduğu haqda məlumatlar daha əvvəl də mediada yayılıb. “Sunqurçular” daha çox evlərdə toplaşır, bəzi məlumatlara görə, əsasən Səid Nursinin əsərlərini - “Risaleyi Nur”u oxuyur, birgə ibadətlər təşkil edirlər. Mustafa Sunqur 2012-ci il dekabrın 1-də İstanbulda vəfat edib.

Qeyd edək ki, məsələ ilə bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən hər hansı açıqlama ala bilmədik.

❑ **Kənan RÖVŞƏNOĞLU**



Mustafa Sunqur

# Bir əli Qərbdən yapışan işğalçı



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Ermənilər amerikalılar üçün də, deyəsən, əziz-xələf millət imişlər. Fransanın aşkar erməniпərəst dövlət olduğu bəlli idi, belə görünür, dünyanın superdövləti ABŞ da erməni üçün altdan-altdan əldən gedirmiş, hətta latent (gizli) erməniрərəst imiş. Bu da yeni fakt.**

Sentyabrın 21-də Allah qoymasa, düşmən Ermənistanın “Müstəqillik günü” idi. Bu münasibətlə, sizcə, Amerikadan rəsmi İrəvanın ünvanına ən yüksək səviyyədə neçə təbrik gəlsə yaxşıdır? Düz - iki: biri dövlət katibi Con Kerridən, az sonra (üç gün fasilə ilə) isə ABŞ prezidenti Barak Obamadan (Bakıya münasibətdə indiyədək belə şey olmayıb).

Bu yerdə öncə kiçik bir haşiyə çıxıb qeyd edək ki, hiyləgər ermənilər müstəqillik məsələsində bir əsrdə iki dəfə bizi qabaqlayıb. İş ondadır ki, 1991-ci ilin avqustunda, uğursuz QKÇP qiyamından sonra artıq müttəfiq respublikaların müstəqillik paradı başlamış, Moskva üç Baltikyanı ölkənin müstəqilliyini tanımışdı. QKÇP-dən sonra Sovet İttifaqı labüd çöküşə, “tikişlər üzrə” sökülməyə üz tutmuşdu.

Di gəl, SSRİ məkanında ilk milli-azadlıq hərəkatını baş qaldırdığı Azərbaycanın parlamentindəki kommunist-nomenklatur çoxluq *(onların bəzi nümayəndələri indi də yüksək dövlət postları tutur)* “bəlkə də qaytardılar” ümidi ilə müstəqilliyimizin elan olunmasını hər vəchlə ləngidirdilər. Nəticədə rusun forpostu Ermənistan da bizdən önə keçdi - sentyabrın 21-də onlar, oktyabrın 18-də (27 gün sonra!) isə biz Müstəqillik Bəyannaməsi qəbul elədik. Ötən əsrin əvvəlində (1918, may) də erməni bizi qabaqlamışdı, düzdü, kiçik zaman kəsiyi ilə - 1 gün.

Söz yox, həm də belə xroniki astagelliyin sonucudur ki, bu gün işğalçı Ermənistan bir əllə Moskvadan, digər əllə isə Qərbdən tutmağı bacarıb. Elə olmasaydı, Kerri təbrik məktubunda “Ermənistan-Amerika dostluğu heç vaxt indiki kimi möhkəm olmayıb”, Obama isə “ABŞ-Ermənistan əlaqələri möhkəm və uzunömürlüdür”, “Erməni xalqı dünyada çoxunun, o cümlədən ABŞ-ın rəğbətini qazanıb” kimi yüksək fikirlər yazmazdılar.

Diqqət edin, dünyanın 1 nömrəli dövlətinin ali şəxslərinin dilindən çıxan bu tərifli sözlər öz qonşusunun 20%-lik torpaqlarını işğal eləmiş erməni toplumu haqdadır. Halbuki, həmin Amerika işğalçı Rusiyaya qarşı dərhal ən sərt sanksiyalar tətbiq edib. Yəni məntiqlə məsələdə xristian təəssübkeşliyi həlledici rol oynasaydı, o zaman ABŞ təcavüzkar Rusiya ilə də Ermənistan kimi əlaqələri pozmamalı idi...

Qayıdaq indi Azərbaycana.

Biz Qərbin Ermənistana, ümumən erməni toplumuna və dünya erməniliyinə yanaşmasında illərdir özünü göstərən bu konyukturu, onun motivini gec də olsa, nəhayət, ciddiyə almalıyıq. Necə? Çox sadə - Qərblə ermənidən də yaxşı dost olmaqla. Amma təbii ki, Rusiyanın hesabına yox. Mümkünmü?

Əlbəttə ki, mümkün. Əgər heç bir dəyərli təbii sərvəti, geosiyasi əhəmiyyəti və dünya okeanına çıxışı olmayan Ermənistan Kremlin Güney Qafqazda forpostu ola-ola bunu bacarırsa, Azərbaycan dünəndən bacarar - təbii ki, hakimiyyət istəsə.

Fəqət, hakimiyyətlər istəsə də, istəməsə də Azərbaycan dövləti buna məhkumdur. Təkcə Dağlıq Qarabağ məsələsinə görə yox, həm də Azərbaycanın bir dövlət olaraq təhlükəsiz varlığı naminə. Dünyada gedən proseslərin qayəsi zatən, bunu diktə edir.

Ruslara etibar yoxdur - bunu kim bilməsə də erməni yaxşı bilir, zaman-zaman öz “dərimizdə” biz də bunu hiss eləmişik. Əgər ruslar qan-din qardaşları olan ukraynalıları o vəziyyətə saldılarsa, imza atdıqları və Ukraynanın ərazi bütövlüyünə təminat verən 19 illik Budapeşt anlaşmasına tüpürüb Krımı işğal etdilərsə, müsəlman Azərbaycana nə baxırlar?..

***

Müstəqilliyin elanı məsələsində ermənilər ötən əsrin əvvəlində bizi 1, sonunda isə 27 gün qabaqladılar. Barı üçüncü dəfə dala qalmayaq, Qərblə, ABŞ-la dost-müttəfiqlik məsələsində gecikməyək. Yenə heç olmasa, Qarabağ naminə.

YENİ MÜSAVAT
N 210 (6238) 22 sentyabr 2015

**Ölkədə pambıq yığımında ciddi problemlər yaranıb. Fermerlərə pul ayrılmaması səbəbindən tonlarla pambıq tarlada qalıb, məhsul batır, sahibkarlar ziyandadır, aidiyyəti qurumlar isə məsələyə etinasız yanaşır...**

# Beynəlxalq Bank əməliyyatı fermerləri vurdu - pambıq sahələrdə batır...

## Cahangir Hacıyevin şirkəti fermerlərlə müqaviləni birtərəfli qaydada pozaraq pul ödəməkdən imtina edir, sahibkarlar ziyanda...

Problem odur ki, pambıq yetişib, sahələrdə tökülüb qalıb, ancaq fermerlərin məhsulu yığıb təhvil vermək üçün imkanı yoxdur. Çünki pambıq əkilən zaman onlara verilməli olan pullar hələ də ödənilməyib, nəticədə fermerlər xeyli borclanıblar. Hazırda məhsul yığan işçilərə, həmçinin maşınlara verməyə pul qalmayıb. Vəziyyətsə çox ciddidir, bir dəfə yağan yağış bütün məhsulu zay edə bilər.

**Sabirabaddan olan sahibkar Əfras Əsgərov musavat.com-a açıqlamasında bildirib ki, 15 il ərzində pambıqçılıqla məşğul olan fermerlərin işlədiyi "CTZ- Aqro" şirkəti onlarla bağladığı müqaviləni pozub. Bundan sonra da fermerlərin çoxsaylı problemləri yaranıb:** "Bu il şirkət öz üzərinə düşən müqavilə öhdəliklərini yerinə yetirə bilmədi. Pambığın becərilməsi üçün maliyyə dəstəyi verə bilmədi. Çünki bu il Beynəlxalq Bankla bağlı hadisələr, həbslər oldu. "CTZ- Aqro" şirkətinin pulu olmadı və bizə pambıq əkininə, becərilməsinə pul vermədi. Biz də məcbur olub kredit götürdük, mal-qaramızı satdıq, pambığı yetişdirdik. O vaxt bizə deyirdilər ki, Avropa Oyunlarından sonra pullarımızı verəcəklər, borclarımızı ödəyəcəklər, amma bu da olmadı".

**Bildirilir ki, "CTZ- Aqro" MMC-nin əsas təsisçisi Cahangir Hacıyevdir, şirkətin səhmlərinin 52 faizi ondadır. Bir müddət əvvəl Beynəlxalq Bankla bağlı baş verən həbslər, həmçinin Cahangir Hacıyevin bankdan uzaqlaşdırılması pambıq becərən fermerlərə iflas təhlükəsi yaradıb.**

"Problem odur ki, sahələrdə pambıq yetişib. Yığıb qəbul məntəqəsinə vermək lazımdır. Ancaq bunun üçün vəsait yoxdur. Məntəqələr bildirirlər ki, yığın verin, pulunu olanda verəcəyik. Ancaq pambığı təhvil vermək üçün sahədə işləyən qadınlara verməyə pulumuz yoxdur",- deyə sahibkarlardan biri bildirir.



**Əfras Əsgərov deyir ki, 225 hektar pambıq əkib:** "110 min manat mayasıdır. 38 minini şirkət ödəyib. 27 minini mən qoymuşam. Traktorçuya, pambıq becərən qadınlara, işçilərə də borcluyam. Hazırda becərmədə iştirak edən qadınlar gəlib pullarını istəyirlər. Bütün instansiyalara müraciət etmişik. Prezidentdən tutmuş üzüaşağı aidiyyəti orqanlara yazmışıq, nəticə gözləyirik".

**O bildirir ki, sözügedən şirkət 18 rayonda pambıq əkdirib:** "Vaxtımız artıq qurtarıb. Ziyana gedirik. Sabirabadda 827 nəfər pambıq əkib. 18 rayonun hər birində bu problem var".

**Əmiraslan Mirəliyev də bildirir ki, şirkət bağlanan müaviləni birtərəfli pozub:** "Şirkət bizim istifadə etdiyimiz traktorları yanacaqla təmin etməli idi, amma etmədi. Beynəlxalq Bank məsələsidir. Şirkətin rəhbəri də tutuqlanmışdı. Biz pulu Beynəlxalq Bankdan götürürük. İndi də məhsul sahədə qalıb, pambıqyığan maşınlar gəlməyib, onlara yanacaq almağa pulumuz yoxdur".

Qeyd edək ki, sahibkarlar vəziyyətin kritik olduğunu vurğulayırlar. Bildirilir ki, onlara nə azot veriblər, nə yanacaq, nə də müqavilədə əksini tapan digər texniki yardımlar olunub. "Qalmışıq çətin vəziyyətdə",- deyə fermerlərdən biri vurğulayır. Fermerlərin özəl texnika sahiblərinə və dizel yanacağı satan stansiyalara xeyli borcları yaranıb. Nəticədə pambıq tədarük edilməyib, heç kimin pambığı yığdırmağa pulu yoxdur. Fermerlər isə becərməyə külli miqdarda vəsait qoyublar.

Qeyd edək ki, bir müddət əvvəl bununla bağlı fermerlərin Cahangir Hacıyevi məhkəməyə verəcəyi də bildirilirdi. Həmçinin bir müddət əvvəl "CTZ- Aqro"nun rəhbəri Cavid Muxtarov həbs olunmuşdu və fermerlərə bu səbəbdən pulun verilmədiyi bildirilmişdi.

**Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətindən isə məsələ ilə bağlı musavat.com-a bildirilib ki, problemdən nazirlik xəbərdardır:** "Xəbərimiz var. Ancaq narahatçılığa əsas yoxdur. Bugünlərdə bu məsələ barədə açıqlama verəcəyik".

❑ **Röya RƏFİYEVA**

# "Tornado"nun qoçuları "Yeni Müsavat"çılara hücum etdi

## Şikayətçi ev sahibini və onun oğlunu döydülər, çəkiliş edən jurnalistlərə isə hücum çəkdilər







**Sabunçu qəsəbəsində Qəmbər Vəzirov küçəsi, ev 32 A ünvanında yaşayan Elxan Qaraxanov yaşadığı evində söküntü işləri aparılmasına etiraz edərək "Yeni Müsavat"dan kömək istəyib. Şikayətçi redaksiyamıza zəng vuraraq, bunları deyib: "Bura mənim şəxsi evimdir. 20 ildir mən ailəmlə burada yaşayıram. Həyətimdə olan anamın və atamın yaşadığı evi təmir etdirməyə imkan vermirlər. Bir müddət əvvəl gəldilər, tikintini saxladılar. Mənə vaxt verdilər ki, onlara 8 min manat rüşvət verim. Verə bilmədim deyə, indi gəlib evi sökürlər".**



Şikayət əsasında hadisə yerinə yollandıq. Elxan Qaraxanovun həyətinə daxil olan kimi söküntü işlərinə rəhbərlik edən "Tornado" şirkətinin qoçuları üstümüzə hücum çəkdilər. Jurnalist olduğumuzu deyib vəsiqəmizi təqdim etsək də, heç nə dəyişmədi. Şirkətin 10-15 nəfər mühafizəçisi bizə hücum çəkdi. Kameramızı sındırmaq və əlimizdən almağa cəhd etdilər. Təhqir və nalayiq ifadələrlə həyətdən çıxardılar.

Fiziki təzyiqlərdən qurtulmaq üçün qonşu həyətə girməli olduq. Amma burada da qoçular qapını qırıb içəri girməyə çalışdılar. Tək məqsədləri isə çəkdiyimiz görüntüləri silmək idi ki, onu da bacara bilmədilər. Bir müddət sonra köməyimizə yetən əməkdaşlarımızın sayəsində qonşu həyətdən çıxa bildik. Ev sahibi, şikayətçi E.Qaraxanov qapını açaraq, bizi həyətə buraxdı. Bundan sonra "Tornado" şirkətinin əməkdaşları ərazini tərk etdilər.

**Öyrəndik ki, şirkətin qoçuları ev sahibini və oğlunu da döyüblər. E.Qaraxanovun oğlu Aqil Qaraxanova 4 nəfər hücum çəkərək, döyüb:** "Qapını bağladılar. Sanki türmədəyik. Mənə 4 nəfər hücum çəkdi. Boğazımdan tutdular, yıxdılar yerə. Qolum əzildi. Bədənimdə xəsarətlər var".

**Elxan Qaraxanov ondan rüşvət istədikləri barədə ittihamı yenə təkrar etdi:** "Neftləri başlarına dəysin. Mənim əsgərlikdən təzə gələn oğlumu yerdə sürüyürlər. Sizə cumurlar. Belə haqsızlıq olar? Lotuluq edirlər. Zəhmət çəkib oğul böyütmüşəm, onu döyürlər. Zəhmət çəkib, evimi təmir edirəm, onu sökürlər. Qanun tanımırlar. Hər şeyin səbəbi 8 min manatdır. Məndən icra nümayəndəsi 8 min manat istədi. Dedi ki, "pulu ver, evini tik". Mən də vermədim. Ona görə də sökürlər".

SOCAR-dan bildirdilər ki, "Tornado" şirkətinin onlarla heç bir əlaqəsi yoxdur.

**Məsələ ilə bağlı Sabunçu Rayon İcra Hakimiyyəti başçısının köməkçisi Müslüm Mahmudovla danışdıq. M.Mahmudov deyilənləri təkzib etdi:** "Həmin şəxs bizə şər və böhtan atır. Heç kim ondan heç bir pul tələb etməyib. Belə şey mümkün deyil. Onun yaşadığı ərazi Sabunçu Rayon İcra Hakimiyyətinə aid deyil. Çünki həmin torpaqlar neft şirkətinə aiddir. Və tikinti qanunsuzdur".

"Tornado" şirkətinin rəsmi internet səhifəsində "PARTNYORLAR" bölməsində əməkdaşlıq etdikləri şirkətlərin siyahısı yer alır. Onların arasında, Balaxanı Neft Əməliyyat Şirkəti və Mədən Əraziləri ilə yanaşı, AzGerNeft Şirkəti və Mədən Əraziləri də yer alır.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 210 (6238) 22 sentyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ uğrunda mübarizə - həm də beynəlxalq rəy uğrunda mübarizədir

## Rusiyalıların 42 faizinin (!) separatçı rejimə müstəqillik istəməsinin səbəbi; Azərbaycan diaspor qurumları nədən təbliğatda erməni lobbi təşkilatlarına uduzur? Ermənının bir əli rusdan yapışıb, o biri əli isə Qərbə uzanılıdır, bəs biz...

**Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, heç şübhəsiz, xeyli dərəcədə məsələ ilə bağlı formalaşan beynəlxalq ictimai rəydən asılı olacaq. Bunun belə olduğunu kim bilməsə də, ərazisi işğala məruz qalan Azərbaycan xalqı illərdir öz üzərində hiss edir, əyani görür.**



Elə olmasaydı, Qarabağa dair qəbul edilmiş neçə-neçə obyektiv xarakterli sənəd, ən əvvəl də BMT Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsi, Avropa Şurası Parlament Assambleyasının (AŞ PA), Avropa Parlamentinin, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri indiyədək kağız üzərində qalmazdı və Ermənistanla təcavüzkar kimi davranılardı - necə ki, Krımın işğalı üzündən Rusiyaya məhz bu cür də münasibət bəslənilir.

Əlbəttə ki, vəziyyətin belə alınmasında dünya erməni lobbisinin "xidmətləri" danılmazdır. Xüsusən də qlobal siyasəti müəyyən edən aparıcı dövlətlər kimi ABŞ, Rusiya, Fransa, digər iri Avropa ölkələrində ermənilərin illərdir apardığı anti-Azərbaycan təbliğatı öz işini görüb və görməkdədir.

Ancaq Azərbaycan diasporunun dişsiz fəaliyyəti də burada insaf naminə, vurğulanmalıdır. Axı məsələn, Rusiyanın özündə azərbaycanlılar ermənilərdən sayca heç də az deyil, hətta çoxdur. Di gəl, Rusiya ictimai rəyində Dağlıq Qarabağ həqiqətləri yetərincə oturuşmayıb.

Düşünmürük ki, burada yalnız xristian amili rol oynayır. Dini təəssübkeşlik öz yerində, amma erməni lobbisinin sistemli fəaliyyəti, onun Rusiyanın ictimai-siyasi və iqtisadi dairələrində kök ata bilməsi, həmin dairələrin nüfuzlu şəxslərinə təsir imkanı əldə eləməsi də ciddi rol oynayıb və oynayır.

***

Bunun nəticəsidir ki, bu gün rusiyalı politoloq Vadim Dubnov öz məqaləsində yazır ki, "artıq Dağlıq Qarabağı Azərbaycanın tərkibində təsəvvür eləmək çətindir". Əfsuslar olsun ki, Dubnov bu düşüncədə tək deyil, Rusiyada onun kimi düşünənlər var və çoxalmaqdadır. Bu da ən isti nümunə.

Rusiyanın tanınmış "Levada Sentr" sorğu mərkəzinin keçirdiyi son rəy sorğularına görə, rusiyalıların 42%-i hesab edir ki, Dağlıq Qarabağ müstəqillik almalıdır. "Respondentlrin hər on nəfərindən biri (10%) hesab edir ki, region Azərbaycana qaytarılmalıdır, 9% əmindir ki, o, Ermənistanın olmalıdır. 39% isə konkret cavab verməkdə çətinlik çəkib" - məlumatda deyilir.

**Nəticələri vesti.az-a şərh edən "Cənubi Qafqaz" siyasi klubunun rəhbəri İlqar Vəlizadəyə görə, bu - ilk öncə ermənilərin Rusiyada ictimai rəyi formalaşdırmaq üçün illərdir apardıqları işin parlaq sübutudur:** "Özü də prosesdə həm formal, həm də qeyri-formal KİV-lər iştirak edir. Bu KİV-lər vasitəsilə də praktik olaraq gündəlik rejimdə regionlar haqda yönləndirici bilgilər təqdim olunur".

**Onun sözlərinə görə, rusiyalı obıvatel adətən bu kimi informasiyalardakı geosiyasi hiyləgərliklərdən bixəbər olur:** "Deyək ki, əgər bir sıra KİV-lərdə qibtəedilməsi dövrülüklə Dağlıq Qarabağ ətrafında baş verənlər işıqlandırılır və bu zaman Ermənistanın işğal elədiyi Azərbaycan torpaqları barədə heç nə deyilmirsə, o halda belə bir informasiyanı alan oxucu, dinləyici və ya tamaşaçıda çətin ki, Güney Qafqazla bağı obyektiv rəy yaransın. İnsanlar hətta ağıllarına gətirmirlər ki, Dağlıq Qarabağın müstəqilliyini Rusiya çətin ki, tanısın - hələ başqa qonşu dövlətləri demirik".

***

Ancaq bu vəziyyətə görə, özümüz heç də az suçlu deyilik. Aydındır ki, Rusiyadakı azərbaycanlıların əsas qurumları *("AzerRos", Rusiya Azərbaycanlıları Konqresi)* və bu qurumların rəhbərliklərinə daxil olan şəxslər erməni diasporu ilə deyil, öz aralarında çəkişdikcə, bir-birilərinin ayağını qazdıqca vəziyyət nəinki belə qalacaq, üstəlik, pisləşməkdə davam edəcək.

Bunu hesablamaq üçün Bzejinski olmağa gərək yox. İş ondadır ki, ermənilər Qarabağ haqda dezinformasiyaları, yanlışlıqları Rusiya ictimai rəyinə yerinə yeritmək üçün illərdir bu ölkənin aparıcı KİV-ləri ilə intensiv işləyir, orada israrla kök salmağa çalışırlar. Bu gün hətta həmin KİV-lərin bəzilərinə *(misal üçün, «Regnum» Agentliyi)* erməni rəhbərlik edir.

Nəzərə alsaq ki, Azərbaycan dövləti erməni təbliğatını neytrallaşdırmaq, Qarabağ həqiqətlərini Rusiyada yaymağa yönəlik tədbirlər üçün hər il xaricdəki diaspor təşkilatlarınma sanballı vəsait ayırır, o zaman qənaət hasil olar ki, bu vəsaitlər ya aidiyyəti üzrə, effektli xərclənmir, ya da mənimsənilir.

Bu xüsusda Azərbaycan Xarici İşlər Nazirliyinin görəcəyi işlər də az deyil. Söhbət həm də qurumun diaspor təşkilatları ilə sinxron və effektli fəaliyyət qurmağın vacibliyindən gedir. Yaddan çıxarmaq olmaz ki, istər Rusiya olsun, istərsə də qlobal miqyasda - Dağlıq Qarabağla bağlı obyektiv rəy bizə həm də ona görə lazımdır ki, sabah konfliktin hərbi yolla həll variantını seçmək zorunda qalanda beynəlxalq qınaqla, hətta işğalçı damğası ilə üzləşməyək.

***

Onu da ciddiyə almaq lazımdır ki, hiyləgər ermənilər Rusiyanın forpostu rolunda olsalar da, altdan-altdan Qərblə, Qərb ictimai rəyi ilə güclü şəkildə işləyirlər. Erməni KİV-lərində son 1-2 ildə Rusiya əleyhinə sərt tənqidi materialların getməsi ən əvvəl bu maraqdan qaynaqlanır. Başqa sözlə, erməni bir əllə zorən rusdan yapışıbsa, o biri əli də Qərbə uzanılıdır.

**Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov isə Ermənistan-Rusiya münasibətlərinin artıq hətta pisləşdiyini düşünür. Mətbuata açıqlamasında o, Ermənistan KİV-lərində anti-Rusiya əhval-ruhiyyəsinin gücləndiyinə diqqət yönəldib:** "Ümumiyyətlə, bu ölkənin mediasında qərbyönümlü siyasətçilərin Moskvaya hücumlarına həmişə yer verilib. Lakin son günlərdə bu kampaniya daha da sürətlənib. Düzdür, bu, Ermənistanın Rusiya vassallığından imtina etməsi deyil. Yəni bu məsələ faktiki olaraq mümkün deyil. Amma rusofobiyanın güclənməsi müşahidə olunur. Misal üçün, Ermənistanda Rusiya hərbçilərinin və diplomatlarının oxuduğu rusdilli təhsil müəssisələri bağlanıb, Slavyan Universiteti ölkədən çıxarılıb, rus dilində yayımlanan radio və televiziya yoxdur, rusdilli nəşrlərin demək olar ki, hamısı ləğv olunub. Xüsusilə Gümrüdə rus hərbiçisinin bir ailəni qətlə yetirməsindən sonra ruslara nifrət şiddətli dərəcədə artıb".

Politoloq daha sonra qeyd edib ki, Rusiyanın Azərbaycana silah satması da erməniləri hiddətləndirir: "Halbuki Moskva Ermənistana pulsuz, yaxud çox aşağı qiymətə silah verir. Düzdür, bu silahlar köhnədir, amma istifadə qabiliyyətini itirməyib. Ermənilərsə buna görə ruslara minnətdar olmaq istəmirlər. Ermənilər həm də ona görə qıcıqlanırlar ki, Rusiya borcların silinməsi əvəzinə bu ölkənin strateji sektorlarını öz nəzarətinə götürür. Burada şəxsi münasibətlər də rol oynayır. Putin Prezident İlham Əliyevlə qarşılıqlı münasibətlərə malik olsa da, Sarkisyanı demək olar ki, saymır. Digər tərəfdən, Rusiya Cənubi Qafqazda öz ambisiyalarını əsas götürərək, Türkiyə ilə Azərbaycanın münasibətlərinin pisləşməsi üçün əlindən gələni etmir. Erməniləri qıcıqlandıran amillərdən biri də budur. Təbii ki, yüz illərdir davam edən erməni-rus münasibətlərinin pisləşməsi regionda vəziyyəti dəyişə bilər. Bu, strateji baxımdan bizim də xeyrimizədir".



# Daha 50 erməni ailəsi Azərbaycana gəlmək istəyir

**Hüquq müdafiəçisi Novella Cəfəroğlunun köməyi ilə Azərbaycana qaçan Ermənistanın müxalif "Milli azadlıq hərəkatı" ictimai birliyinin rəhbəri Vahan Martirosyan 50-dən çox erməni ailəsinin Azərbaycana gəlmək istədiyini bildirib. Bu haqda hüquq müdafiəçisi Novella Cəfəroğlu məlumat verib (modern.az).**

O deyib ki, ermənilər Azərbaycana gəlməklə Serj Sarkisyan rejiminə etiraz nümayiş etdirirlər: "Vahan Azərbaycandan siyasi sığınacaq istədi, ölkəmiz də ona müsbət cavab verdi. Onu da deyim ki, ermənilərin Azərbaycana gəlişi təkcə iqtisadi çətinliklərlə bağlı deyil. Sadəcə, ölkələrindəki siyasi rejim insanlara rahat yaşamağa imkan vermir. Ona görə də bizim ölkəyə üz tuturlar. İqtisadi çətinlikləri olanlar isə daha çox Rusiyaya gedir".

Novella Cəfəroğlu bildirib ki, Vahan Martirosyanla mütəmadi görüşür: "Azərbaycanda olmaqdan məmnundur və qaldığı şəraitdən də çox razıdır".

Vahan Martirosyanın üçüncü ölkəyə getmək fikrinin olub-olmamasına gəlincə, Novella Cəfəroğlu deyib ki, bu barədə fikir mübadiləsi aparmayıblar: "Bununla bağlı məsələni o özü həll edəcək. Hələlik ailəsi ilə birlikdə Azərbaycandadır".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 210 (6238) 22 sentyabr 2015

# Qurbanlıq heyvanların satılacağı yarmarkaların ünvanları

**Bakıda Qurbanlıq heyvanların satışı təşkil ediləcək yarmarkaların ünvanları məlum olub. Kənd Təsərrüfatı Nazirliyindən "APA-Economics"ə verilən məlumata görə, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən Qurban bayramı günlərində (24-27 sentyabr 2015-ci il tarixlərində) Bakı şəhərində və Bakıətrafı qəsəbələrdə qurbanlıq heyvanların satışı və müasir standartlara uyğun kəsimi təşkil ediləcək.**



Qurbanlıq heyvanların satış və kəsim məntəqələrinin ünvanları aşağıdakılardır:

Yarmarkanın təşkil edildiyi ünvanlar:

1. Sabunçu

Sabunçu qəsəbəsi, Şəhər şossesi, "ABU" yanacaqdoldurma məntəqəsinin yanı

2. Zabrat - Maştağa yolunun sol tərəfi, Olimpiya İdman Kompleksinin yanı

3. Nərimanov

Əlyar Əliyev küç., 26 (Keşlə bazarının yanı)

4. Xətai

Cavanşir küç. 7, Nevrocərrahiyyə xəstəxanasının arxası

5. Mehmandarov küç. 72, Elektrik yarımstansiyasının yaxınlığında

6. Suraxanı

Əmircan qəsəbəsi, Malik Mustafayev küç., "Neftçi" stadionunun yanı

7. Qaraçuxur qəsəbəsi, Etibar Bəkirli küç., 114 saylı evin yanında

8. Zığ qəsəbəsi, Hatəm Allahverdiyev küç., Tikiş sexinin yanı

9. Hövsan qəsəbəsi, Oqtay Şabanov küç., "Maral" fiqurunun yanı

10. Səbail

Bibiheybət yolu, qoşa Yanacaq Doldurma Məntəqəsinin yanı

11. 20-ci sahə dairəsi, Ticarət cərgəsinin arxasında boş sahə

12. Yasamal

Şərifzadə küç., 196 ("İdeal" şadlıq sarayının həyəti)

13. Binəqədi

8 - ci mkr., C. Xəndan və Atatürk prospekti kəsişməsində yerləşən ət bazarı

14. Rəsulzadə qəsəbəsi, Binəqədi sossesi ilə Baksol yolunun kəsişməsi

15. Biləcəri qəsəbəsi, T. Yaqubov 12A,

16. Binəqədi qəsəbəsi, 3 - cü mədən, korpus 78, Qəsəbə mərkəzi

17. Nizami

R. Rüstəmov ilə M. Əliyev küçələrinin kəsişməsində ("Millord" restoranının yanı)

18. Xəzər

Binə qəsəbəsi, Əliağa Vahid küç. 9 (yolun solu)

19. Qala qəsəbəsi, Dəmiryolçular küç. 41, (Qala Bələdiyyəsinin inzibati binasının qarşısı)

20. Mərdəkan qəsəbəsi, Yesenin küç., döngə 3

21. Qaradağ

Lökbatan qəsəbəsi, "Meyvəli" bazarının yanı

22. Sahil qəsəbəsi, Mədəniyyət evinin yanı

23. Aqrovest MMC-nin qarşısı.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# 2 yaşlı Aylanınköməyə ehtiyacı var



BENEFICIARY name (müştərinin adı) AZAYEVA AYLA FƏRHAD

BENEFICIARY account (İBAN) AZ26IBAZ33801019442130398206 AZN

BENEFICIARY bank Azərbaycan Beynəlxalq Bankı Nərimanov Filialı

Alan Bankın SWIFT kodu: IBAZAZ2X

Correspondent Account Müxbir heesab: AZ03NABZ01350100000000002944

Alan bankın kodu: 805540

TAX id VÖEN: 9900001881

Bank Address- H.ALIYEV str.94, Baku -1072, Azerbaijan

Telefon 4656562,FAKS 4656558

**2 yaşlı Ayla Azayevaya kəskin leykoz L2 (qan xərçəngi) diaqnozu qoyulub. Hazırda uşaq Belarusiyada Uşaq Onkologiya Hematologiya və İmmunialogiya Mərkəzində müalicə olunur. Xəstəliyin müalicəsi üçün 30.000 dollar maddi vəsait tələb olunur. Xəstəliyi ağır olduğundan hər dəqiqə uşaq üçün çox əhəmiyyətlidir.**



AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ

SİTOKİMYƏVİ MÜAYİNƏ

Aylanın hər kəsin köməyinə çox ehtiyacı var. Mümkün yardımı aşağıdakı bank hesabına köçürmə yolu ilə və ya nağd formada təqdim edə bilərsiniz. Aylaya bu mübarizədə qalib gəlməyə dəstək olaq. Atası Fərhad Azayevin əlaqə nömrəsi 070 378 93 44

Online bank AZN hesabı 4127 2222 3913 3028

# Azərbaycanda televiziya işçiləri yol qəzasına düşüb

**Azərbaycanda televiziya işçiləri yol qəzasına düşüb. APA-nın məlumatına görə, hadisə dünən Masazır qəsəbəsində qeydə alınıb. "Dünya" TV-nin çəkiliş qrupunu aparan "Lifan" markalı maşın "Mercedes" markalı avtomobillə toqquşub. Nəticədə televiziyanın xidməti avtomobilinin sürücüsü və maşında olan operator yüngül, jurnalist Nizami Rəsulov isə ağır bədən xəsarətləri alıb.**

N. Rəsulov APA-ya açıqlamasında qəzaya düşdüklərini təsdiqləyib: "Hazırda həkim müayinəsindən keçirik. Sürücü və operator yüngül xəsarət alıblar. Mənim isə xəsarətlərim ağırdır".

# Yardımlıda avtomobil aşıb: 2 nəfər ölüb, 4 nəfər yaralanıb

**Yardımlıda ölümlə nəticələnən yol qəzası baş verib. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, sentyabrın 20-də saat 19.00 radələrində Yardımlı rayonunun Honuba kəndində rayon sakini Vüqar Rəsulov idarə etdiyi "VAZ-21213" markalı avtomobili aşırıb. Nəticədə sürücü və sərnişini İsmayıl Rəsulzadə hadisə yerində ölüb, digər 4 sərnişini isə xəstəxanaya yerləşdirilib. Yardımlı Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.**


## Elan

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

## Elan

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**





# "Nar" Azərbaycanda bir ilk olan "Ailəm" paketini təqdim etdi

## Artıq "Nar" istifadəçisi olan hər bir kəs öz qohumları, dostları və yaxınları ilə pulsuz danışa biləcək

**İnsanları bir-birinə və dünyaya qovuşdurma missiyasını əldə rəhbər tutan "Nar", öz abunəçilərini daha rahat və sərfəli rabitə xidməti ilə təmin etmək üçün növbəti təşəbbüsə imza atdı. İnsanların öz ailələri, dostları və yaxınları ilə daim əlaqədə olmasını vacib hesab edən mobil operator, bu məqsədlə, öz abunəçilərinə yeni "Ailəm" paketini təqdim etdi.**

nar
Gəlin birlikdə böyüyək

**4 nömrədən ibarət olan "Ailəm" paketi Azərbaycanın mobil rabitə bazarında ilk dəfə olaraq 4 nəfərdən ibarət müxtəlif müştəri qrupları üçün pulsuz danışıq imkanıdır. Paketə daxil olan 4 nömrənin istifadəçiləri bir-biri ilə 31 dekabr 2015-ci il tarixədək dəqiqəsi 0 qəpiyə danışa biləcəklər. Ölkədaxili digər istiqamətlərə zəngin dəqiqəsi isə 4 qəpikdən hesablanacaq.**

**"Ailəm" paketinə daxil olan nömrələr bir fiziki şəxsin adına qeydiyyata alına bilər.**

**Hər zaman öz abunəçilərinin qayğısına qalan "Nar" müxtəlif müştəri qrupları arasında daha keyfiyyətli və rahat mobil rabitə fürsəti yaradaraq, onları bu əlavə ünsiyyət imkanından yararlanmağa dəvət edir. Təklif edilən danışıq paketləri öz sərfəliliyi ilə seçilir və əhalinin bütün kateqoriyalarını əhatə edir.**

**Əlavə məlumatı "Nar" operatorunun internet səhifəsindən əldə edə bilərsiniz: www.nar.az**

# Gəncədə fəhlə tikinti zamanı hündürlükdən yıxılıb ölüb

**Gəncədə bədbəxt hadisə baş verib. APA-nın verdiyi məlumata görə, tikinti şirkətlərindən birində fəhlə işləyən şəxs iş zamanı hündürlükdən yıxılaraq, ağır bədən xəsarətləri alıb. Fəhlə Gəncə Şəhər Təcili Tibbi Yardım Xəstəxanasına aparılarkən yolda ölüb. Hazırda ölən fəhlənin kimliyi müəyyənləşdirilir.**

Faktla bağlı hüququ-mühafizə orqanları tərəfindən araşdırma aparılır.

# Bakıda kafedə qətl törədən şəxslər Azərbaycandan qaçmaq istəyərkən tutuldular

**Bakıda "Lion" kafesində qətl törədən şəxslər ölkədən qaçmaq istəyərkən həbs ediliblər. Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən APA-ya verilən məlumata görə, sentyabrın 20-də Biləsuvar kəndi ərazisindəki sərhəd zastavasının xidməti sahəsindən dövlət sərhədini İran İslam Respublikası istiqamətində pozmağa cəhd göstərən iki və onlara vasitəçilik edən bir Azərbaycan vətəndaşı saxlanılıb.**

Müəyyən olunub ki, Əliyev Rövşən Natiq oğlu sentyabrın 18-də Bakı şəhərində yerləşən "Lion" kafesində baş vermiş qətl hadisəsində şübhəli bilinən və cinayət yerindən qaçan, əvvəllər məhkum olunmuş Ağayev Niyaməddin Xanhüseyn oğlu və Hətəmov Nurəddin Nurməmməd oğlunu dövlət sərhədindən qanunsuz keçirmək məqsədilə idarə etdiyi avtomaşınla Biləsuvar rayonunun sərhədyanı ərazisinə apararaq köməklik edib.

Dövlət Sərhəd Xidməti əməkdaşlarının sayıqlığı nəticəsində Hətəmov Nurəddin Nurməmməd oğlu, Ağayev Niyaməddin Xanhüseyn oğlu və Əliyev Rövşən Natiq oğlu sərhədyanı ərazidə saxlanılıblar.

Hazırda fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Qeyd edək ki, məlum hadisə sentyabrın 19-da Xətai rayonu, Nobel prospekti, 110 ünvanında qeydə alınıb.

Ağayev Elməddin Xanhüseyn oğlu və onun qardaşı Ağayev Niyaməddin idarə etdikləri "BMW" və "KİA" markalı avtomobillərlə Nobel prospekti ilə hərəkətdə olduqları zaman hələlik naməlum avtomobilin sürücüsü, 1965-ci il təvəllüdlü Qarayev Ələddin Malış oğlu ilə mübahisələri yaranıb.

Mübahisə zamanı Elməddin Ağayev bıçaqla E.Qarayevə xəsarət yetirib və o, hadisə yerində ölüb. Hər iki qardaş hadisəni görən motosikl sürücüsünü izləyib və onu beysbol ağacları ilə döyüblər. Hər iki şəxs hadisə yerindən qaçıb.

Xatırladaq ki, Elməddin Ağayev "Lion" kafesinin sahibinin mühafizəçisidir. Qətlə yetirilən Ə. Qarayev isə adıçəkilən kafenin yaxınlığında yaşayırmış. E. Ağayev hadisə yerindən "Lion" kafesinin sahibinə məxsus BMW X5 markalı avtomobillə qaçıb.

YENİ MÜSAVAT
N 210 (6238) 22 sentyabr 2015



# Telefonsuz yaşaya bilərikmi?

## Mobil cihazlardan asılılıq insanlarda aqressiyanın artmasına, əsəblərin və qida sisteminin pozulmasına səbəb olur

**Mobil telefonlar artıq həyatımızın ayrılmaz bir hissəsinə çevrilib. Hər gün, hər saat mobil istifadəçilərinin sayı dayanmadan artır. Son illər bu ünsiyyət vasitəsindən daha çox zəng üçün deyil, internetdən - sosial şəbəkələrdən istifadə etmək, mesajlaşmaq, müxtəlif məlumatlar almaq və s. məqsədlər üçün istifadə edilir. Ətrafımızda saatlarla facebook, watsapp-dan ayrıla bilməyən xeyli sayda insanlar var. Beləliklə, müasir texnologiya inkişaf etdikcə mobil telefonların həyatımızdakı rolu daha da genişlənməyə başlayır.**

Mütəxəssislər bildirirlər ki, mobil telefonlardan asılılıq insanlarda aqressiyanın artmasına, əsəb və qida sisteminin pozulmasına səbəb olur. Nəticədə orqanizmdə dəyişiklik yaranır, müəyyən mutasiya prosesi baş verir və bu da təhlükəli haldır. Yəni insanlar bilərəkdən və ya bilməyərəkdən virtual dünyanın sakininə çevrilir, reallıqdan uzaqlaşırlar. Buna görə də valideynlər tez-tez övladlarının təmasdan qaçdığını, özlərinə qapılmalarından şikayətlənirlər.

**Psixoloq Azad İsazadə mobil telefonların müsbət və mənfi tərəflərindən danışıb:** "Hər şeyin günahını mobil telefonlarda axtarmaq doğru deyil. İnsan öz-özünün qayğısına qalmalı, vaxtı-vaxtında yatıb, istirahət etməlidir. Sovet dövründə gənclər daha çox kitab oxumağa həvəsli idilər. Nəticədə səhərədək davam edən mütaliələr sonda öz mənfi tərəflərini göstərirdi. Gözlərimiz zəifləməyə, əsəblərimiz korlanmağa başlayırdı. Müasir dövrdə də mobil telefonlardan çox istifadə orqanizmimizdə fəsadlar yaradır. Bu, sivilizasiyanın reallığıdır. Ən yeni əsrdə avtomobil, təyyarə, müasir odlu silahlar yarandığı kimi, mobil telefonların da imkanları hər gün daha çox inkişaf etməyə başlayır. Sözsüz ki, bunun da müsbət tərəfləri kimi mənfi tərəfləri də var. Lakin deyərdim müsbət cəhətləri daha çoxdur, məsələn, insanlar bir-biriləri ilə daha çox ünsiyyət saxlaya, xəbərləri obyektiv olaraq ala bilirlər".

Qeyd edək ki, dünyada mobil telefondan asılılıq geniş şəkil aldığı üçün bununla bağlı olaraq dəfələrlə "Mobil telefonsuz günlər" ümumdünya aksiyası keçirilib. Aksiyada insanlara mobil telefonlardan istifadədən imtina etmək və ya danışıq vaxtını azaltmaq təklif edilir. Məlumata görə, aksiyanın məqsədi adikofoniya ilə mübarizə aparmaq, cəmiyyəti müasir texnologiyaların insanların kommunikasiya vərdişlərini necə dəyişdirdiyi barədə düşünməyə vadar etməkdir. Bu termin fransalı yazıçı Fil Marso tərəfindən tətbiq edilmiş və o, mobil telefon və "ağıllı" telefonlara qeyri-normal bağlılığı ifadə edir. Qeyd edilən aksiyanın təşəbbüskarı da elə Fil Marsodur.

**Dünyada xeyli sayda tanınmış insanlar var ki, onlar özlərinə mobil telefonsuz və sosial şəbəkəsiz həyat tərzini seçiblər. Bu cür şəxslərdən biri də tanınmış amerikalı yazıçı Pol Austerdir. O, müsahibələrinin birində bildirib ki, evində nə interneti, nə kompüteri, nə də mobil telefonu var:** "Bilirəm ki, hamı məndən fərqli düşünür və bilirəm ki, heç kim mənim yaşadığım kimi yaşamaq istəmir. Amma içimdə orada olmaqla bağlı cüzi də olsa istək yoxdur. Üstəlik, o elektron əşyaları hər yerə özümlə daşımadığım üçün də xoşbəxtəm".

Qeyd edək ki, azərbaycanlı şairə, publisist **Günel Mövlud** da bir müddət mobil telefondan imtina etdiyini bildirmişdi.

**"Yeni Müsavat" qəzetinin köşə yazarı Zamin Hacı əməkdaşımıza açıqlamasında bildirib ki, şəxsi, ailə-məişət məsələləri olmazsa, mobil telefondan rahatlıqla imtina edə bilər:** "Ötən illərə nisbətən hazırda mobil telefonlardan ünsiyyət üçün çox az istifadə edilir. Daha çox insanlar sosial şəbəkələr üzərindən bir-biriləri ilə əlaqə saxlamağa çalışırlar. Jurnalist fəaliyyətimlə bağlı olaraq daha çox facebbok və ya emailдən istifadə edirəm. Yeni mobil telefon sosial şəbəkələrdən istifadə etmək üçün mənə aparat kimi lazım olur. Əgər şəxsi, ailə-məişət məsələləri olmazsa mobil telefondan istifadə etməyə bilərəm".

Məlumat üçün bildirək ki, mobil telefonlardan ilk istifadə 1973-cü ilin aprel ayında olub. Belə ki, həmin gün "Motorolla" şirkətinin əməkdaşı Martin Kuper Nyu-Yorkda yerləşən "Motorola Dyna TAC" ofisinə zəng edərək mobil telefonu vasitəsilə ilk zəngi edir. Şirkətin baş mühəndisi Kuper mobil telefonla danışan ilk insan olduğu üçün özünü çox xoşbəxt hesab edib. Qeyd edək ki, həmin cihaz 22 sm uzunluğunda olub. Onun danışıq vaxtı 35 dəqiqə, enerji ilə təmin olunması isə 10 saat təşkil edib.

Mobil telefon vasitəsilə ilk danışıqdan 10 il ötdükdən sonra "Motorolla" satış üçün nəzərdə tutulan DynaTAC 8000X modelini istehsal edir. Onun ağırlığı 1 kiloqramdan çox idi və qiyməti 3 500 dollar təşkil edirdi. Martin Kuper bu telefonların ölçülərinin böyük olduğu və bahalı olduqları üçün heç zaman dünya bazarında məşhur olmayacaqlarını düşünürdü.

Mühəndislik və Texnologiyalar İnstitutunun mütəxəssisi Mayk Şort Kuperin ilk zənginі ictimaiyyətdə bir sıçrayış kimi təsvir etmişdi. Onun sözlərinə görə, mobil telefonları satışa buraxmamışdan əvvəl mühəndislər və alimlər telekommunikasiya sahəsində bir sıra tədqiqatlar və testlər aparmışdılar. Tədqiqatların ilk onilliyi müştərilərin tələbatlarının araşdırmalarına sərf edilmişdi.

❑ **Xalidə GƏRAY**

# Payız gəldi, dəb də gəldi

## 2015-2016 payız-qış kolleksiyası artıq mağazalarda yer alıb...









**Artıq isti yay günlərini geridə qoyduq. Bu gün payız fəslinin ilk gününü yaşayırıq. Qarşıda bizi sərin payız və soyuq qış ayları gözləyir. Havalar soyuduqca isə daha çox qalın geyimlərə üstünlük veririk. Artıq hər bir xanımı payız fəsli üçün hansı geyim alsam daha yaxşı olar, hansı rəng və ya tərz dəbdədir sualları düşündürür.**

Biz də buna cavab tapmaq üçün kiçik bir araşdırma apardıq. Artıq bir çox dünya brendləri, modelyerlər payız-qış mövsümünün dəblərini açıqlayıb. Məlum olub ki, bu ilin payız-qış kolleksiyasının dəbi bizi ötən əsrin 60-70-ci illərinə aparacaq. O illərin bohem tərzi payızda da təsirini davam etdirəcək. Rəng çeşidlərinə gəlincə, bu mövsümdə bizi təbiətin bütün rənglərinin olduğu geniş rəng çeşidi gözləyir. Torpaq tonları ilə yanaşı, qırmızı, bənövşəyi və narıncı kimi rənglər yeni mövsümdə qarderobumuzu bəzəyəcək. Hansı rənglərin dəbdə olacağını daha dəqiqliyi ilə açıqlasaq onları aşağıdakı kimi sıralamaq olar.

**Stormy Weather -** Fırtınalı boz hava: adını ilk oxuduqda insanı vəlvələyə salır, amma bu rəng yeni mövsümdə fırtına kimi əsməyə iddialıdır. Marsala - Zoğalı: zəngin, cəsur, mürəkkəb və hər kəsin dəri tonuna uyğun olan bu güclü rəng ötən ildə də dəbdə idi. Bu rəng yeni mövsümün yaxınlaşması ilə öz təsirini yenidən hiss etdirəcək. **Oak Buff -** solğun sarı: Fırtınalı havadan sonra hər kəsin günəşin istisini hiss etməyə haqqı var. Bu məqamı dizaynerlər diqqətdən kənar qoymayıblar. Klassik sarıdan fərqli olaraq, onun bu payızda solğun, xəzəl çalarları dəbdədir. Solğun sarı digər rənglərlə asanlıqla kombinə edilir. **Biscay Cənab - meşə yaşılı:** maviyə çalan meşə yaşılı da payızın daha bir nəfis rəngi olacaq. **Cadmium Prins - parlaq narıncı:** bu rəng olduqca səmimi və parlaqdır. Eyni zamanda payız-qış mövsümünün ən cəlbedici tonu olacaq. Bu rəngi yaşıl, mavi tonları və ya zoğalı rənglə tamamlaya bilərsiniz. **Cashmere Rose - bənövşəyi:** payız qış mövsümünün ən romantik rəngi bənövşəyidir. Tünd bənövşəyini açıq torpaq tonlarla uyğunlşadırıqda gözəl nəticələr əldə edə bilərsiniz. **Desert Saqa - xaki:** sakitləşdirici təsiri olan yaşılımtıl boz tonları mövsümün ən ideal rəngləri arasında yer alır. Təvazökar rəng olsa da, qəşəng və güclü təsir yaradır.

Mövsümün dəyişməsi ilə əlaqədar olaraq üst geyim növü olan trençlər daha çox dəbdədir. Onların uzunluğu müxtəlifdir. Bu il uzunluğu dizdən 4 barmaq yuxarı olan trençlər aktual olacaq. Mövsümün hiti isə trençlərdə hansısa hissənin (qollarda, beldə) rezinlə yığılması sayılacaq. O cümlədən trençlərdə idman elementləri də müşahidə olunacaq. Ətəklərə gəlincə, bu il daha çox dizə qədər və uzun olan yun ətəklər aktual olacaq. Klyoş şalvarlar yenidən dəbə qayıdır. Bununla yanaşı, dəridən olan ətəklər, gödəkçələr, şalvarlar da dəbdə olacaq. Baş örtüklərinə gəldikdə isə əsasən idman üslubunda olan qaşlı kepkalar aktual olacaq. Bundan əlavə, trikotajdan olan şərflər, toxunma əlcəklər dəbdə olacaq. Onlardan isə yarımçıq və barmaqsız əlcəklər yenidən qayıdacaq. Zərif qadın ayaqlarını qışın soyuğundan qoruyan çəkmələr sözsüz ki, bu il də aktual olacaq. Bu mövsümdə bir rəngdə olan və üzərində müxtəlif kəmərlər, qıfıllar olan ayaqqabılar dəbdə olacaq. Qarşıdan gələn mövsümdə həm uzunboğaz, həm də dizə qədər olan çəkmələrdə gözəl qış obrazı yarada biləcəksiniz. Yağışlı günlər üçün xüsusi hazırlanan rezin çəkmələr bu mövsüm də kolleksiyalar arasında yer alır. Qış mövsümündə ayaqqabıları əsasən dəmir detallar bəzəyəcək. Ötən illərdən fərqli olaraq, bu il dabanlarda da dəmir elementlər nəzərə çarpır. Bu kimi ayaqqabı modellərini sadə paltarla birləşdirsəniz, həm güclü, həm də zərif görünəcəksiniz. Rahatlığına düşkün olan qadınların üstünlük verdiyi maskulin (kişisayağı) tərzi ayaqqabılar da bu payız mövsümündə dəbdədir.

Bu brendin kolleksiyasında qızılı, zoğalı, qara və torpaq rəngləri ilə yanaşı, iddialı rənglər və naxışlar da göz qamaşdırır. Əsasən gecə paltarlarında və çantalarında görməyə vərdiş etdiyimiz daş detallar ayaqqabı kolleksiyasında da göz oxşayır. Parıltılı daşlarla bəzədilmiş ayaqqabılar sadə geyimi inanılmaz dərədəcə gözəlləşdirir. Aksesuarlara gəldikdə isə bunlardan folklor stilində olan muncuqlar, taxtadan, metal və taxta qarışığından olan Afrika stilində aksesuarlar dəbdə olacaq.

Maraqlıdır, bəs payız mövsümündə kişilərin qarderobunda nə kimi yeniliklər gözlənilir?

Bu mövsüm kişilər başdan ayağa qədər eyni rəngdə geyinəcəklər. Belə ki, bir rəng əsas götürülür və geyimlərin çoxu həmin rəngdə seçilir. 2015-2016-cı ilin dəb tendensiyaları eyni rəngdə çanta, köynək, hətta qalstuk taxmağı diktə edir.

Payız-qış mövsümünün dəblərinin geyim mağazalarına gəlib gəlməməsini öyrənmək üçün bir neçə mağazaya baş çəkdik. Artıq mağazaları yeni kolleksiyalar bəzəyirdi. Qiymətləri baha olsa da bir-birindən gözəl geyimlər göz oxşayırdı. Baş çəkdiyimiz **"Lady Sharm"** mağazasının satıcısı mağazalarında olan paltarların yeni payız kolleksiyasından olduğunu və artıq alındığını dedi: **"Mağazamıza gələnlər bu ilin payız dəbi ilə maraqlanırlar və alırlar. Qiymətlər də münasibdir".**

Digər mağazalarda da bu ilin dəblərinə rast gəldik. Bir sıra mağazalar isə bir neçə günə yeni kolleksiyaların onların da mağazasında olacağını bildirdilər.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 210 (6238) 22 sentyabr 2015




## Körpəyə əmzik verilməlidirmi?

Uşaqların sağlam həyat tərzi valideynləri ən çox narahat edən məsələlərdən biridir. Belə ki, uşaq əmziklərinin uşaqlara verilib verilməməsi valideynləri çox narahat edir. Bəziləri əmziklərin uşaqların dadbilmə, diş və damağına pis təsir etdiyini söyləyir, bəziləri isə əmziklərin heç bir pis təsirinin olmadığını söyləyirlər. Bəs uşağı əmziyə öyrətməliyik, ya yox?

Pediatrlar bu suala birmənalı cavab vermirlər, çünki bir tərəfdən uzunmüddətli əmzikdən istifadə uşağın diş-damaq sisteminə pis təsir göstərir, digər tərəfdən, uşaq çox ağlayırsa və onu sakitləşdirmək mümkün deyilsə, onda az da vermək lazımdır. İstənilən stress və narahatçılıq uşağın psixikasına və sağlamlığına pis təsir göstərir. Əgər körpə əmziksiz sakitdirsə, onda ehtiyac yoxdur əmzik verməyə.

Körpələri əmziyə öyrəşən valideynlərə məsləhət budur ki, uşağın müxtəlif oyuncaqlarla başını qatsınlar, belə ki, körpə əmzik əmərək özbaşına qalıb darıxmasın. Əgər uşaq əmziksiz yatmırsa, onda o, möhkəm yatana qədər əmzik ağzında qalsın, yuxuya gedən kimi ağzından mütləq çıxarmaq lazımdır. Gecə əmziyin uşağın ağzında qalması məsləhət deyil.

# Pişiklə oynamaq üçün 5 dollar

Amerikanın Nyu-York şəhərində açılan yeni kafe müştərilərinə qeyri-adi xidmət təklif edir. "Pişik mızıltısı" adlı kafedə pişiklə oynamağın yarım saatlıq qiyməti 5 dollardır. Sevimli ev heyvanları ilə oynamaq, onlara xüsusi yeməklər və içkilər vermək isə xüsusi qiymətə başa gəlir. Arzu edənlər 100 dollar ödəyərək kafedəki pişiklərə sahib ola bilər. Kafedə mütəmadi olaraq treninqlər keçirilir və pişiklərə necə baxılması və onlara necə davranılması haqda məlumatlar verilir. Pişik kafesində küçədəki pişikləri necə ev heyvanına çevriləcəyi və necə baxılması da öyrədilir.



# Aslan baxıcısını öldürdü



Yeni Zelandiyanın Hamilton şəhərindəki zooparkda bir aslanın baxıcısını öldürdüyü haqda məlumat yayılıb. Hamilton zooparkındakı Sumatra aslanının qadın baxıcısına hücum etdiyi və onun hadisə yerində həyatını itirdiyi bildirilib. Zoopark işçiləri baxıcının aslanları bayıra çıxararkən hücuma məruz qaldığını deyiblər. Zoopark hadisədən sonra bir neçə gün bağlı qalıb. Soyları tükənmək üzrə olan beş Sumatra cinsli aslanın saxlanıldığı Hamilton zooparkı hər il 128 min nəfər tərəfindən ziyarət edilir.

## NASA beynimizdə gəzəcək



NASA həssas beyin əməliyyatlarını asanlaşdırmaq üçün 3D görünüş yaradan özəl bir kamera hazırlayıb. "Marvel" ("Möcüzə") adlı mikroskopik kameranın köməyi ilə cərrahlar beyin hüceyrələrini daha asan görəcək və daha təhlükəsiz əməliyyatlar gerçəkləşdirə biləcəklər. 55 millimetr eni və 15 millimetr uzunluğu olan kamera xəstənin beyninə qaşın üzərindən salınır və beynin içərisində gəzir. Əyilib-bükülən cihaz 120 dərəcəlik bucaq altında hərəkət edir. Hazırda yalnız bir prototipi olan 3D kamera NASA-nın Kaliforniyadakı jet laboratoriyasında hazırlanıb.



## 75 min dollarlıq sənəd

Dünya şöhrətli britaniyalı "Beatles" qrupunun səsyazma studiyası ilə ilk müqaviləsi Nyu-York şəhərində hərraca çıxarılıb. "Heritic" hərracına çıxarılan müqavilə sənədi 75 min dollara satılıb. Hərrac evi sənədin satışından 150 min dollar əldə etməyi planlaşdırırsa da, bu proqnoz özünü doğrultmayıb. 6 səhifəlik müqavilə 1961-ci ildə kvartetin Almaniyada çıxışı zamanı bağlanıb. Müqaviləni Con Lennon, Pol Makkartni, Corc Harrison və Pit Best imzalayıb. Həmin vaxt qrup "Beatles" deyil, "Tony Sheridan and the Beat Brothers" adlanırdı. Həmin müqaviləyə əsasən, məşhur qrupun Almaniyada yalnız bir sinqlı - "My Bonnie" sinqlı işıq üzü görüb. Müqavilə sənədi 2010-cu ildə dünyasını dəyişmiş Uve Blaşke adlı alman kolleksiyaçılarına məxsus olub. Hərrac isə "Beatles" qrupunun yaranmasının 50-ci ildönümünə təsadüf edib.




**QOÇ** - Fəaliyyət dairənizi genişləndirmək üçün durmadan fəaliyyətə başlayın. Nəzərə alın ki, bu addım karyeranız üçün böyük əhəmiyyət daşıya bilər. Bu gün qazanmaq ehtimalınız böyükdür.

**BUĞA** - Səhər saatlarını gərgin şəraitdə keçirsəniz də, özünüzü təmkinli aparmaqla gözlənilən xoşagəlməzliyi dəf edə biləcəksiniz. Nahardan sonra isə sevindirici hadisələrin şahidi olacaqsınız.

**ƏKİZLƏR** - Astroloji göstəricilər ümumi ovqatınızın yüksək olacağını bildirir. Maraqlı insanlarla rastlaşma ehtimalınız da böyükdür. Ulduzlar ziyarətə getməyi məsləhət görsə də, uzaq yola çıxmaq olmaz.

**XƏRÇƏNG** - Göy qübbəsi pulla bağlı məsələlərdə ehtiyatlı olmağı tövsiyə edir. Bir qədər qənaətcil olmağınız vacibdir. Kiməsə borc vermək və ya maliyyə sövdələşmələrinə girişmək yolverilməzdir.

**ŞİR** - Həftənin ən uğurlu gününü yaşayacaqsınız. Bir tərəfdən ailə-sevgi münasibətlərində, digər tərəfdənsə işgüzar sövdələşmələrdə vəziyyət xeyrinizə cərəyan edəcək. Səfər də mümkündür.

**QIZ** - Əsas enerjinizi sevgi amilinə yönəldin. Çalışın ki, hər bir kəlmənizdə, hər bir ifadənizdə özünüzə qarşı rəğbət oyadasınız. İndiki sərt cəmiyyətdə kiminsə qəlbinə dəymək savab iş deyil.

**TƏRƏZİ** - Kifayət qədər uğurlu bir gün yaşayacaqsınız. İştirakçısı olduğunuz hər bir proses yalnız zövqünüzlə uyğunluq təşkil edəcək. Özünüzə inamı artırmaqla uğurları yaxınlaşdırın.

**ƏQRƏB** - Qarşılıqlı münasibətlərdə güzəştli mövqe seçin. Risk tələb edən işlərə isə girişməyin. Yaxşı olar ki, soyuq və spirtli içkilərdən, duzlu qidalardan mümkün qədər uzaq olasınız.

**OXATAN** - Həddindən ziyadə uğurlu təqvimdir. Ələlxüsus da saat 12-16 arası bəxtiniz gətirə bilər. Həmkarlarınızla aranızda yaranmış soyuqluq səngiməyə başlayacaq. Hətta varlanmaq ehtimalınız da var.

**OĞLAQ** - Ümumi çalarlarına görə gərgin gün olsa da, özünüzü ələ almağı bacarmalısınız. Çünki qarşınızda duran perspektivlərə yetişmək üçün hansısa dedi-qoduya əhəmiyyət verməməlisiniz.

**SUTÖKƏN** - Səhhətinizlə bağlı nasazlığı nəzərə alıb hansısa qeyri-adi və yeni işlərə başlamayın. Yaxşısı budur ki, əsas vaxtınızı mənzil şəraitində keçirəsiniz. Axşama yaxınsa qonaq getmək olar.

**BALIQLAR** - Hiss olunur ki, sizi sevməyənlər artmaqdadır. Lakin ruh düşkünlüyünə mübtəla olmaqdansa, deyildiyi kimi olmadığınızı sübut etməlisiniz. Bu gün maraqlı görüşlərdə iştirakınız gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Çinlilər yeni Obama düzəltdilər



Çinin Siçuan əyalətində yaşayan Şioa Jiguo adlı gənc Amerika prezidenti Barak Obamaya bənzədiyi üçün məşhurlaşıb. Obamanı təqlid edərək pul qazanan 29 yaşlı Şiao Jigua ölkəsində çəkilən filmdə mafiya qruplaşmasının başçısını canlandırır. O, bu rola məhz Obamaya bənzədiyi üçün seçilib. Keçmişdə ofisiant olaraq çalışmış olan Jiguo 2012-ci ildə iştirak etdiyi yarışmada məşhurlaşmışdı. O, Obamaya daha çox bənzəmək üçün estetik əməliyyat da keçirib.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300